RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 171 (9626) 13 avqust 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Zəfər seçkisindən parlament seçkisinə



## Xankəndidə seçki hazırlığı davam edir

Respublikamız mühüm siyasi hadisə ərəfəsindədir. Sentyabrın 1-də Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Hazırda ölkə üzrə bütün seçki dairələrində seçkiyə hazırlıq işləri davam edir, deputatlığa namizədlər özlərinin təşviqatı ilə məşğuldurlar.

### Namizədlər üçün bərabər imkanlar yaradılıb

Ötən ilin sentyabr ayında erməni separatizminin əsarətindən xilas edilən Xankəndi şəhəri də seçkiyə hazırlaşır. Bu, müstəqilliyimiz dövründə birbaşa Xankəndinin özündə təşkil edilən ikinci seçki olacaq. İlk seçki 2024-cü ilin fevralında keçirilən növbədənkənar prezident seçkiləri olub. Tariximizə Zəfər seçkisi kimi həkk olunan həmin seçkilərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri 122 saylı seçki dairəsinin Xankəndi şəhərindəki 14 saylı seçki məntəqəsində səs veriblər.

Qarşıdan gələn parlament seçkilərinə hazırlıq prosesinin davam etdiyi bir ərəfədə Xankəndi şəhərinə gedərək 122 saylı seçki dairəsi üzrə seçkiyə hazırlığın gedişatı ilə maraqlandıq. Qeyd edək ki, bu seçki dairəsinin hüdudları çərçivəsində 15 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrdən ikisi - 14 və 15 saylı seçki məntəqələri işğaldan azad edilmiş ərazilərdə yerləşir. 14 saylı seçki məntəqəsi Xankəndi şəhərini əhatə edir. 15 saylı seçki məntəqəsi isə Kərkicahan qəsəbəsindəki orta məktəb binasında yerləşir.

→ 8

## İlham Əliyev braziliyalı həmkarına başsağlığı verib

Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

Hörmətli cənab Prezident!

San-Paulu ştatında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Braziliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6.1.2-ci yarımbəndinə "40 faizi" sözlərindən sonra ", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi meyarlara uyğun olaraq yerli istehsala aid edilən müasir suvarma sistemlərinə münasibətdə isə 60 faizi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2024-cü il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Maqomedxan Maqomedovu bürünc medal qazanması münasibətilə təbrik edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Paris Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovla bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovu bürünc medal qazanması münasibətilə təbrik edirəm! İdmançımıza yeni qələbələr və nailiyyətlər arzulayıram!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Olimpiadada bürünc medal qazanan Giorgi Meşvildişvilini təbrik edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Paris Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili Paris Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır! İdmançımızı təbrik edir, ona yeni qələbələr və nailiyyətlər arzulayıram!"

## *ŞKTC Parlamentinin sədri:* "Azərbaycanla münasibətlər digər türk ölkələri üçün nümunə olmalıdır"



"Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) ilə Azərbaycan arasındakı münasibətlər digər türk dövlətləri üçün nümunə olmalıdır".

AZƏRTAC xəbər verir ki, bunu ŞKTC Parlamentinin sədri Zorlu Töre Macarıstanda Böyük Hun-Türk Qurultayı çərçivəsində təşkil olunmuş "dəyirmi masa"nın iştirakçıları ilə görüşündə bildirib.

Müzakirələrdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un rəhbəri Sultan Raev, Türk Dövlətləri Parlament Assambleyasının (TürkPA) sədri Mehmet Sürəyya Ər və başqaları iştirak ediblər.

"Dəyirmi masa" iştirakçılarına müraciət edən Töre qeyd edib ki, Lefkoşa Türk dünyasına böyük ümidlər bəsləyir. "Son vaxtlar Azərbaycanla münasibətlərimiz yeni mərhələyə keçib. Ümid edirəm ki, bu əlaqələr digər türk ölkələri üçün nümunə olacaq. Kipr türkləri türk dünyasının ayrılmaz hissəsidir", - deyə ŞKTC Parlamentinin sədri bildirib.

Onun sözlərinə görə, Türk Kipri Şərqi Aralıq dənizindəki türk dövlətlərinin maraqları baxımından strateji əhəmiyyət kəsb edir.

Töre türk xalqlarının dialoqunu və inteqrasiyasını təşviq edən bütün strukturları ŞKTC-yə daha çox diqqət yetirməyə çağırıb.

## *Metyu BRAYZA:* "Azərbaycanda keçirilən parlament seçkiləri həm milli, həm də regional təsirə malikdir"



"Ötən ilin sentyabrında Azərbaycan suverenliyini tam bərpa etdi. Sürətli və uğurlu tədbirlər həyata keçirməklə Azərbaycan özünün ərazi bütövlüyünə qarşı davamlı təhlükə yaradan amilləri aradan qaldırdı. Sözsüz, bu amil Azərbaycanda keçiriləcək parlament seçkilərinin də əhəmiyyətini çox yüksəltdi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Ceymstaun Fondunun İdarə Heyətinin üzvü Metyu Brayza deyib. Sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərin Azərbaycanın bütün ərazilərində baş tutacağını xatırladan beynəlxalq ekspert qeyd edib ki, seçkilər hər bir ölkənin demokratik inkişafı üçün vacibdir və bəzi hallarda regional təsirə malikdir.

"COP29 ərəfəsində seçkilərin keçirilməsi Azərbaycanın qlobal nüfuzunu daha da gücləndirəcək. Mən bu prosesi alqışlayıram", - deyə M. Brayza əlavə edib.

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Avqustun 12-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə öz xarici partnyorları ilə birgə "exit-poll" keçirmək niyyəti ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası və "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi tərəfindən Mərkəzi Seçki Komissiyasına ünvanlanan müraciətlərə baxılıb. Komissiya üzvləri və iclas iştirakçıları bu barədə ətraflı məlumatlandırıldıqdan və aparılan geniş müzakirələrdən sonra sözügedən qurumların müraciətlərinin təmin edilməsinə, Milli Məclisə seçkilərdə "exit-poll" keçirmək üçün qeydə alınmalarına qərar verilib.



İclasda qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin bilavasitə iştirakı ilə komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində vətəndaşların seçki hüquqlarının daha səmərəli və effektiv təmin olunması üçün hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq qərarlar qəbul edilib.

İclasın sonunda həmçinin cari məsələlərə baxılıb.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 15-ci, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddə üzrə:

1.1.1. 5-ci hissədə "ismin müvafiq halında "əmək müqaviləsi"sözləri "- əmək müqaviləsi" sözləri ilə əvəz edilsin və həmin hissəyə "fərdi qaydada" sözlərindən sonra "bu Məcəllə ilə müəyyən edilmiş formada" sözləri əlavə edilsin;

1.1.2. 5-1-ci hissə ləğv edilsin;

1.1.3. aşağıdakı məzmunda 8-1-ci hissə əlavə edilsin:

"8-1. **Ştat (ştat vahidi)** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemində (bundan sonra - elektron informasiya sistemi) yaradılan və yaxud bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda kağız daşıyıcıda təsdiq edilən cədvəl üzrə vəzifə (peşə) adının və vəzifə (tarif) maaşının əks olunduğu vahid.";

1.2. 7-ci maddənin 2-ci hissəsində "hissəsi" sözü "və 2-2-ci hissələri" sözləri ilə, "elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra" sözləri "əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlandıqda" sözləri ilə əvəz edilsin;

1.3. 9-cu maddənin birinci hissəsinin "o" bəndi aşağıdakı redaksiyada verilsin:

"o) elektron informasiya sistemindən əmək müqaviləsini, habelə əmək münasibətlərinə (iş yeri, əməkhaqqı və s.) dair arayışları real vaxt rejimində əldə etmək.";

1.4. 12-ci maddənin 1-ci hissəsi üzrə:

1.4.1. "h" bəndi ləğv edilsin;

1.4.2. "j" bəndi aşağıdakı redaksiyada verilsin:

"j) işçilərin qanunla müəyyən olunmuş qaydada məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta, işsizlikdən sığorta və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığorta haqlarının vaxtında və tam həcmdə ödənilməsini təmin etmək;";

1.4.3. aşağıdakı məzmunda "k", "q" və "l" bəndləri əlavə edilsin:

"k) elektron informasiya sisteminə əmək müqaviləsi ilə bağlı daxil etdiyi məlumatların tam və düzgün olmasını təmin etmək;

q) işçiyə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə, idman-sağlamlıq turizmi ilə məşğul ola bilməsi üçün şərait yaratmaq;

l) elektron informasiya sisteminə strukturuna, peşə və vəzifələrin iyerarxiyasına uyğun ştat vahidlərini daxil etmək.";

1.5. 15-ci maddənin 2-ci hissəsində "səlahiyyəti çərçivəsində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq işəgötürənlərdən zəruri olan məlumatların tam, düzgün və vaxtında təqdim edilməsini, habelə" sözləri ilə əvəz edilsin;

1.6. 21-1.1.3-cü maddəyə "məskunlaşdıqda" sözündən sonra "(yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyata alındıqda)" sözləri əlavə edilsin;

1.7. 43-cü maddənin 2-ci hissəsi üzrə:

1.7.1. "a", "b", "c" və "ğ" bəndləri aşağıdakı redaksiyada verilsin:

"a) işçinin soyadı, adı, atasının adı, ünvanı və fərdi identifikasiya nömrəsi (FİN);

b) işəgötürən dövlət orqanı (qurumu), hüquqi şəxs və ya xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda adı, işəgötürən funksiyasını həyata keçirən vəzifəli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), faktiki fəaliyyət göstərdiyi ünvanı, işəgötürən fiziki şəxs olduqda soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), faktiki fəaliyyət göstərdiyi ünvanı, fərdi identifikasiya nömrəsi (FİN);

c) əsas və ya əlavə iş yeri olması barədə qeydlə birlikdə işçinin iş yerinin ünvanı, vəzifəsi (peşəsi);";

"ğ) əmək müqaviləsi elektron sənəd formasında bağlanılan işçilər, bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda ilk dəfə əmək fəaliyyətinə başlayan işçilər və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla, işçininsosial sığortanömrəsi (SSN);";

1.7.2. "h" bəndi ləğv edilsin;

1.8. 44-cü maddə üzrə:

1.8.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Əmək müqaviləsi bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda kağız daşıyıcıda, digər hallarda isə elektron sənəd formasında bağlanılır.";

1.8.2. 3-cü hissədə "Əmək" sözü "Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda əmək" sözləri ilə əvəz edilsin;

1.9. 46-cı maddə üzrə:

1.9.1. 2-ci və 3-cü hissələr ləğv edilsin;

1.9.2. 5-ci hissənin üçüncü cümləsindən "və ya yazılı formada tərtib edildiyi" sözləri çıxarılsın;

1.9.3. 6-cı hissənin üçüncü cümləsində "Həcmcə" sözü "Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda həcmcə" sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Elektron sənəd formasında bağlanılan əmək müqavilələrində dəyişiklik edildikdə, ilkin əmək müqaviləsi yenidən tərtib olunaraq təsdiq edilir.";

1.10. 47-ci maddənin birinci hissəsinin "g" bəndi ləğv edilsin;

1.11. 48-ci maddə üzrə:

1.11.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Əmək müqaviləsi bağlanılarkən işçi şəxsiyyətini təsdiq edən sənədi, bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə habelə əmək kitabçasını təqdim edir.";

1.11.2. 3-cü hissəyə "əmək kitabçası" sözlərindən əvvəl "bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin;

1.11.3. 4-cü hissədə "Əmək" sözü "Bu maddənin 6-cı hissəsi nəzərə alınmaqla əmək" sözləri ilə əvəz edilsin və həmin hissəyə "işəgötürənə" sözündən sonra "peşə hazırlığı və" sözləri əlavə edilsin;

1.11.4. 6-cı hissəyə "bu Məcəllədə" sözlərindən əvvəl "aidiyyəti dövlət informasiya sistemlərindən və ehtiyatlarından əldə edilməsi mümkün olan," sözləri əlavə edilsin;

1.11.5. aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Əmək müqaviləsi bağlanıldıqdan sonra işçilərlə bağlı elektron informasiya sistemində mövcud olan əmək fəaliyyətinə dair ümumi məlumatların, o cümlədən həmin və ya digər işəgötürənlə əvvəllər bağlanılmış əmək müqavilələrinin, onlarda dəyişiklik edilməsi və ya onlara xitam verilməsi ilə bağlı məlumatların işəgötürənə ötürülməsi istisna olmaqla, şəxsin əmək fəaliyyəti barədə məlumatların digər şəxslərə ötürülməsi "Fərdi məlumatlar haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.";

1.12. 49-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 49. Əmək müqaviləsinin hüquqi qüvvəyə minməsi və qüvvədən düşməsi**

1. Bu maddənin 2-ci və 3-cü hissələri ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsi və ya ona dəyişiklik tərəflərin gücləndirilmiş elektron imzası ilə imzalandıqda, son imzalanma tarixindən əmək müqaviləsi bağlanılmış və ya ona dəyişiklik edilmiş hesab olunur və hüquqi qüvvəyə minir.

2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə ilk dəfə bağlanılacaq əmək müqaviləsimüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində qeydə alınmış işçi və işəgötürən barədə əmək münasibətlərinə dair məlumatların elektron informasiya sisteminə ötürülməsi əsasında elektron sənəd formasında avtomatlaşdırılmış qaydada formalaşır və formalaşan tarixdən 3 (üç) iş günündən gec olmayaraq, tərəflərin gücləndirilmiş elektron imzası vasitəsilə imzalanır. Bu halda əmək müqaviləsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan hüquqi qüvvəyə minir.

3. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsində müəyyən edilmiş hallarda bağlanılmış əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa,o, tərəflərin imzaladığı gündən hüquqi qüvvəyə minir.

4. Bu Məcəllənin 74-cü maddəsinin 1-1-ci hissəsində nəzərdə tutulan hallarda elektron informasiya sistemində qüvvədə olan əmək müqaviləsi əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın qərarı ilə qüvvədən düşmüş hesab edilir. Bu zaman əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən işçinin qüvvədə olan əmək müqaviləsinin qüvvədən düşmüş hesab edilməsi barədə inzibati akt formasında qərar qəbul edilir və bununla bağlı elektron informasiya sistemində müvafiq qeyd aparılır.

5. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsinə xitam verilməsi bu barədə əmrin (sərəncamın, qərarın) işəgötürən tərəfindən elektron informasiya sisteminə daxil edilərək gücləndirilmiş elektron imza ilə imzalandığı tarixdən hüquqi qüvvəyə minir. Əmək müqaviləsinə xitam verilməsi tarixi əmək müqaviləsinə xitam verilməsi barədə əmrin (sərəncamın, qərarın) imzalandığı tarixdən əvvəlki tarixə (bu Məcəllənin 74-cü maddəsinin 1-ci hissəsinin "e" bəndi ilə xitam verilən və həmin maddənin1-1-ci hissəsi ilə xitam verilmiş hesab edilən hallar istisna olmaqla) müəyyən edilə bilməz.";

1.13. 53-cü maddənin 1-ci hissəsinə və 56-cı maddənin 2-ci hissəsinin birinci cümləsinə "yazılı" sözündən sonra "(kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

1.14. 58-ci maddənin 1-ci hissəsi üzrə:

1.14.1. ikinci cümlədən ", əmək kitabçası saxlanılan yer isə əsas iş yeri" sözləri çıxarılsın;

1.14.2. üçüncü cümlə çıxarılsın;

1.15. 69-cu maddə üzrə:

1.15.1. 1-ci hissəyə, 4-cü hissənin üçüncü cümləsinə və 6-cı hissənin ikinci cümləsinə "yazılı" sözündən sonra "(kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

1.15.2. 3-cü hissədə "əmək müqaviləsi bağladıqda" sözləri "əmək münasibətlərinə daxil olması ilə bağlı yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) razılığı olduqda" sözləri ilə əvəz edilsin;

1.16. 73-cü maddə üzrə:

1.16.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Müddətli əmək müqaviləsinə müddəti bitdikdə xitam verilir. Müddətli əmək müqaviləsinin müddətinin bitməsinə azı bir həftə qalmış tərəflərdən heç biri digər tərəfi müddətin bitməsinə görə müqaviləyə xitam verilməsi barədə yazılı formada (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) xəbərdar etməzsə, həmin əmək müqaviləsi əmək müqaviləsində göstərilən müddətə uzadılır və ya bu Məcəllənin 45-ci maddəsinin 5-ci hissəsi ilə müəyyən edilmiş hallarda müddətsiz hesab olunur.";

1.16.2. 2-ci hissədə "işçi işə çıxdıqdan sonra işəgötürənin müəyyən etdiyi gündə, lakin onun işə çıxdığı gündən bir təqvim həftəsi keçməmiş" sözləri "bu maddənin 1-ci hissəsində nəzərdə tutulmuş qaydada xəbərdar edilmişdirsə, işçi işə çıxdığı gün işəgötürən tərəfindən" sözləri ilə əvəz edilsin;

1.17. 75-ci maddənin 2-ci hissəsinin "ç" bəndinə "yazılı formada" sözlərindən sonra "(kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

1.18. 83-cü maddə üzrə:

1.18.1. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Əmək müqaviləsinə bu Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrində nəzərdə tutulan əsaslara və qaydalara uyğun olaraq xitam verilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir.

2. Elektron sənəd formasında bağlanılmış əmək müqavilələrinə xitam verilən zaman bu barədə işəgötürənin əmri (sərəncamı, qərarı) elektron informasiya sistemində gücləndirilmiş elektron imza ilə imzalanaraq işçinin informasiya sistemində yaradılan elektron kabinetində yerləşdirilir.";

1.18.2. aşağıdakı məzmunda 3-cü və 4-cü hissələr əlavə edilsin:

"3. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda müvafiq əmr (sərəncam, qərar) işəgötürən tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Əmrin surəti işçinin əmək kitabçası ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir.

4. Əmək müqaviləsinə xitam verilmiş işçiyə son haqq-hesab (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əməkhaqqı və digər ödəmələr) sonuncu iş günü ödənilməlidir.";

1.19. 84-cü maddə üzrə:

1.19.1. adında "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.19.2. 1-ci hissə üzrə:

1.19.2.1. birinci abzasda "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.19.2.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"işəgötürən dövlət orqanı (qurumu), hüquqi şəxs və ya xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda adı, işəgötürən funksiyasını həyata keçirən vəzifəli şəxsin vəzifəsi, soyadı və adı, faktiki fəaliyyət göstərdiyi ünvanı, işəgötürən fiziki şəxs olduqda soyadı və adı, faktiki fəaliyyət göstərdiyi ünvanı, əmrin (sərəncamın, qərarın) nömrəsi, tarixi;";

1.19.2.3. beşinci abzasda "müqaviləsinin ləğv edilməsinin" sözləri "müqaviləsinə xitam verilməsinin" sözləri ilə əvəz edilsin;

1.19.2.4. altıncı və səkkizinci abzaslarda "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.19.2.5. yeddinci abzasda "müqaviləsi ləğv edilən" sözləri "müqaviləsinə xitam verilən" sözləri ilə əvəz edilsin;

1.19.3. 3-cü hissədə "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.20. 85-ci maddə üzrə:

1.20.1. 1-ci hissə üzrə:

1.20.1.1. birinci cümlədə "İşəgötürən" sözü "Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda işəgötürən" sözləri ilə, "uçotunun qeydiyyatını" sözləri "uçotunu" sözü ilə əvəz edilsin;

1.20.1.2. ikinci cümlədə "qeydiyyat" sözü "uçot" sözü ilə əvəz edilsin;

1.20.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Elektron sənəd formasında bağlanılmış əmək müqavilələrinin, onlara edilən dəyişikliklərin, bu müqavilələrlə əlaqədar verilmiş əmrlərin (sərəncamların, qərarların), habelə digər əmrlərin (sərəncamların, qərarların) uçotunun aparılması elektron informasiya sistemi vasitəsilə təmin edilir.";

1.20.3. 2-ci hissənin birinci cümləsində "İşəgötürən qeydiyyat" sözləri "Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda işəgötürən uçot" sözləri ilə əvəz edilsin;

1.20.4. 3-cü hissədə "Bu maddədə" sözləri "Bu maddənin 1-ci və 2-ci hissələrində" sözləri ilə əvəz edilsin və həmin hissədən "və qeydiyyatı" sözləri çıxarılsın;

1.21. 86-cı maddə üzrə:

1.21.1. 1-ci hissədə "İşəgötürən" sözü "Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda işəgötürən" sözləri ilə əvəz edilsin;

1.21.2. 2-ci hissənin birinci cümləsinə "işəgötürəndə" sözündən əvvəl "bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin;

1.21.3. 3-cü hissədə "əsli," sözü "əslinin bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda" sözləri ilə əvəz edilsin;

1.21.4. aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Elektron sənəd formasında bağlanılan əmək müqavilələri barədə məlumatların arxivləşdirilməsi elektron informasiya sistemi vasitəsilə təmin edilir.";

1.22. 87-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 87. İşçilərin əmək fəaliyyəti haqqında məlumatlar**

1. Bu maddənin 2-ci hissəsində nəzərdə tutulmuş hal istisna olmaqla, işçinin əmək fəaliyyəti haqqında məlumatlar elektron informasiya sistemində qeydə alınır.

2. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda işçinin əmək fəaliyyəti haqqında məlumatlar əmək kitabçasında qeydə alınır. İşəgötürən 5 (beş) gündən artıq işləyən bütün işçilərin əmək kitabçasında onların işə qəbul edilməsi, başqa daimi işə keçirilməsi, əmək müqaviləsinə xitam verilməsi barədə müvafiq qeydlər aparmalıdır. İşçinin əmək fəaliyyəti haqqında məlumatlarda onun əmək stajı haqqında - işə girdiyi gün, ay, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası, günü, ayı və ili barədə qeydlər göstərilir.

3. İşçilərin əmək kitabçasının forması və onun doldurulması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

4. Xarici ölkədə işləmiş Azərbaycan Respublikası vətəndaşının xarici ölkədəki əmək fəaliyyəti ilə bağlı məlumatların elektron informasiya sistemində, habelə bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda əmək kitabçasında qeydiyyatı xarici işəgötürənlə bağladığı əmək müqaviləsi və məcburi dövlət sığortasının həyata keçirildiyini təsdiq edən sənəd əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

1.23. 88-ci maddə üzrə:

1.23.1. 1-ci hissəyə "xasiyyətnamə verməyə" sözlərindən sonra ", o cümlədən elektron informasiya sistemi vasitəsilə işçinin informasiya sistemində yaradılan elektron kabinetinə göndərməyə" sözləri əlavə edilsin;

1.23.2. 2-ci hissənin birinci cümləsinə "yazılı" sözündən sonra "(kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

1.24. 103-cü maddənin 4-cü hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, növbə cədvəlləri elektron informasiya sisteminə daxil edilir.";

1.25. 138-ci maddənin 1-ci hissəsinin birinci cümləsinə "işçinin" sözündən sonra "yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

1.26. 172-ci maddənin 6-cı hissəsində "87-ci maddəsinin üçüncü hissəsi ilə" sözləri "83-cü maddəsinin 3-cü hissəsinin ikinci cümləsində" sözləri ilə əvəz edilsin;

1.27. 173-cü maddəyə aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Əmək müqaviləsi elektron sənəd formasında bağlanıldıqda bu maddədə nəzərdə tutulan məlumatların verilməsi elektron informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə təmin edilir.";

1.28. 258-ci maddənin 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Ailə kəndli təsərrüfatlarında və ailə müəssisələrində əmək münasibətləri bu Məcəllə ilə müəyyən edilmiş qaydada elektron sənəd formasında əmək müqaviləsi bağlanılmaqla tənzimlənir.";

1.29. 296-cı maddənin 3-cü hissəsinə "verildiyi" sözündən sonra "və ya əmrin (sərəncamın, qərarın) işçinin elektron informasiya sistemində yaradılan elektron kabinetinə göndərildiyi və bu barədə işçinin məlumatlandırıldığı (elektron poçt və SMS vasitəsilə)" sözləri əlavə edilsin;

1.30. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 1-ci əlavə - "Əmək müqaviləsinin (kontraktının) nümunəvi forması" üzrə:

1.30.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Bu Əmək müqaviləsi (kontraktı) (bundan sonra - əmək müqaviləsi) İşəgötürən______________________________________________

*(işəgötürən dövlət orqanı (qurumu), hüquqi şəxs və ya xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda adı, işəgötürən funksiyasını həyata keçirən vəzifəli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN-i), faktiki fəaliyyət göstərdiyi ünvanı, işəgötürən fiziki şəxs olduqda soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN-i), faktiki fəaliyyət göstərdiyi ünvanı, fərdi identifikasiya nömrəsi (FİN-i)*

_______________________________________________________ ilə

İşçi _______________________________________________________

*(soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (FİN-i) və*

_______________________________________________________

*(sosial sığorta nömrəsi (SSN-i), əmək müqaviləsi elektron sənəd formasında bağlanılan işçilər, bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda ilk dəfə əmək fəaliyyətinə başlayan*

*işçilər, "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla)*

arasında "____" _______________ ______ il tarixində Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (bundan sonra - Əmək Məcəlləsi) uyğun olaraq bağlanılmışdır.";

1.30.2. 2.3-cü bənddən " ____ " _____________ il tarixindən" sözləri çıxarılsın;

1.30.3. 2.4-cü bəndə "tarixindən" sözündən sonra ", həmin tarixədək müqavilə imzalanmadıqda isə imzalandığı gündən" sözləri əlavə edilsin;

1.30.4. 6.2-ci bəndə "işsizlikdən sığorta," sözlərindən sonra "icbari" sözü əlavə edilsin;

1.30.5. 8.3-cü bənddə "dərhal (______ gündən gec olmayaraq)" sözləri "imzalandığı tarixdən və ya _____ gündən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

1.30.6. 10.2-ci bənddə "Bu Əmək müqaviləsi" sözləri "Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda bu əmək müqaviləsi" sözləri ilə əvəz edilsin.

***Ardı 3-cü səh.***

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

**Maddə 2.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli, 23 aprel tarixli 1141-VIQD nömrəli və 21 may tarixli1157-VIQD nömrəli qanunları) 102.1.6-cı və 102.8-ci maddələrindən" (əmək kitabçasının olduğu yerdə)" sözləri çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli və 7 may tarixli 1148-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 29-cu maddə üzrə:

3.1.1. 29.1-ci maddəyə "olaraq" sözündən sonra ", müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sisteminə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə" sözləri əlavə edilsin;

3.1.2. 29.3-cü maddəyə "bağlayarkən" sözündən sonra "elektron informasiya sistemində və ya Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin və həmin maddədə "həmin" sözü "elektron informasiya sistemində və ya" sözləri ilə əvəz edilsin;

3.1.3. 29.4-cü maddəyə "azad edilmiş" sözlərindən sonra "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində müəyyən edilmiş" sözləri əlavə edilsin;

3.2. 168-ci maddə üzrə:

3.2.1. 168.3-cü maddəyə "əmək kitabçası" və "pensiya vəsiqəsi" sözlərindən sonra "(olduğu halda)" sözləri əlavə edilsin;

3.2.2. 168.4-cü maddədə "əmək kitabçası və pensiya vəsiqəsi" sözləri "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş şəxslərə münasibətdə əmək kitabçası" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 62 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanunu) 8-ci maddəsinin ikinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci cümləyə "haqqında" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemində və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş şəxsin" sözləri əlavə edilsin;

4.2. ikinci cümlədə "Şəxsin" sözü "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş şəxsin" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 393 (Cild I); 2024, № 4, maddə 365) 7-ci maddəsinin dördüncü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümlədə "Məcburi köçkünlərin" sözləri "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda məcburi köçkünlərin" sözləri ilə əvəz edilsin;

5.2. ikinci cümlədə "bu şəxslər" sözləri "məcburi köçkünlər" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 12-ci maddəsinin 3-cü bəndinə "əmək kitabçası" sözlərindən sonra "(olduğu halda)" sözləri əlavə edilsin.

**Maddə 7.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanunu) 17.8-ci maddəsində "əmək kitabçasında və şəxsi işində" sözləri "şəxsi işində və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində müəyyən edilmiş hallarda əmək kitabçasında" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin 13-cü maddəsinin 3-cü bəndinə "əmək kitabçası" sözlərindən sonra "(olduğu halda)" sözləri əlavə edilsin.

**Maddə 9.** "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 738 (Cild I) 9.2.2-ci maddəsinin 1-ci hissəsində "müqaviləsi bildirişinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemində qeydiyyata alınması" sözləri "müqaviləsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemində elektron sənəd formasında bağlanılması" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. aşağıdakı məzmunda 5.2.1-1-ci maddə əlavə edilsin:

"5.2.1-1. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tərtib olunmuş fərdi məşğulluq proqramını təsdiq etmək, yerinə yetirmək və icrası barədə hesabat vermək;";

10.2. 13-cü maddə üzrə:

10.2.1. 13.5-ci maddənin birinci cümləsinə "ilk dəfə" sözlərindən əvvəl "bir sığorta hadisəsi üzrə" sözləri, "müraciət edərək" sözlərindən sonra "həmin sığorta hadisəsinə görə" sözləri əlavə edilsin və həmin cümlədə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş münasib işlə təmin olunmayan" sözləri "məşğul şəxs hesab edilməmiş" sözləri ilə əvəz edilsin;

10.2.2. 13.8-ci maddədə "dəfə yenidən" sözləri "sığorta hadisəsi üzrə" sözləri ilə əvəz edilsin;

10.3. 14-cü maddə üzrə:

10.3.1. 14.3-cü maddəyə "əməkhaqqı barədə" sözlərindən sonra "(sığorta haqqı ödənilmiş)" sözləri əlavə edilsin;

10.3.2. 14.4-cü maddədə "Qanunu ilə işsiz kimi qeydiyyata alındığı" sözləri "Qanununa uyğun olaraq fərdi məşğulluq proqramını təsdiq etdiyi" sözləri ilə əvəz edilsin;

10.4. 17.7-ci maddənin birinci cümləsində "şəxsən" sözü "elektron formada" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1-ci maddə üzrə:

11.1.1. 1.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.3. fərdi məşğulluq proqramı - işsiz, habelə bu Qanuna əsasən aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaran şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədilə məşğulluq imkanlarının qiymətləndirilməsi əsasında hazırlanan, aktiv məşğulluq tədbirlərinin konkret həcmini, növünü, ardıcıllığını və icra müddətini, habelə işsizlikdən sığorta ödənişinin verilməsini və iş axtarışını müəyyən edən elektron sənəd;";

11.1.2. 1.1.22-ci maddədə "yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər," sözləri "1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan, habelə" sözləri ilə əvəz edilsin;

11.2. 4-cü maddə üzrə:

11.2.1. 4.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.9-cu maddə əlavə edilsin:

"4.1.9. xüsusi notariuslar, sərbəst mediatorlar və vəkillər.";

11.2.2. 4.4.2-ci maddədə "sahibkarlar," sözündən sonra "4.1.9-cu maddəsində göstərilən sərbəst mediatorlar və vəkillər," sözləri əlavə edilsin;

11.2.3. 4.4.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.4.11-ci maddə əlavə edilsin:

"4.4.11. bu Qanunun 4.1.9-cu maddəsində göstərilən xüsusi notariuslar barədə - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) "Elektron notariat" informasiya sisteminin məlumatları əsasında.";

11.3. 5-ci maddə üzrə:

11.3.1. 5.2-ci və 5.4-cü maddələrə "işaxtaran" sözündən sonra "və ya işsiz" sözləri əlavə edilsin;

11.3.2. 5.3-cü maddədə "İşaxtaran kimi qeydiyyata alınmaq üçün"sözləri "Bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

11.3.3. 5.5-ci maddədə "işaxtaran kimi qeydiyyata alındığı gündən 5 (beş) iş günü ərzində ona münasib iş təklif olunmadığı və ya işəgötürən (işəgötürənlər) tərəfindən vakansiyaya qəbulundan imtina edildiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəxsin işsiz" sözləri "bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş ərizə ilə müraciət etdiyi gün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəxsin işsiz kimi qeydiyyata alınmasını istisna edən hal müəyyən etmədikdə işsiz kimi, əks halda işaxtaran (bu Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

11.3.4. 5.9.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.9.5-ci və 5.9.6-cı maddələr əlavə edilsin:

"5.9.5. bu Qanuna əsasən aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaranlar fərdi məşğulluq proqramının tərtib edilməsindən imtina etdikdə və ya onu təsdiq etmədikdə;

5.9.6. bu Qanuna əsasən aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaranlar fərdi məşğulluq proqramını icra etmədikdə və icrası barədə hesabatı bu Qanunun 27.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim etmədikdə.";

11.3.5. 5.10.4-cü maddə ləğv edilsin;

11.3.6. 5.11.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.11.7-ci və 5.11.8-ci maddələr əlavə edilsin:

"5.11.7. fərdi məşğulluq proqramının tərtib edilməsindən imtina etdikdə və ya onu təsdiq etmədikdə;

5.11.8. fərdi məşğulluq proqramını icra etmədikdə və icrası barədə hesabatı bu Qanunun 27.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim etmədikdə.";

11.4. 6-cı maddə üzrə:

11.4.1. 6.1-ci maddədə "İşaxtaran" sözü "Şəxs" sözü ilə əvəz edilsin;

11.4.2. 6.2-ci maddədə "işaxtaranın" sözü "şəxsin" sözü ilə əvəz edilsin;

11.5. 7.2-ci maddədə "Məcəlləsinin 3-cü maddəsinin 5-1-ci hissəsinə və bu Qanunun 7.1-ci maddəsinə" sözləri "Məcəlləsinə" sözü ilə, "məlumatlar" sözü "ştat vahidləri" sözləri ilə əvəz edilsin;

11.6. 18-ci maddə üzrə:

11.6.1. 18.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu məlumat Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda kağız daşıyıcıda, digər hallarda isə elektron informasiya sistemi vasitəsilə təqdim edilməlidir.";

11.6.2. 18.4-cü və 18.5-ci maddələr ləğv edilsin;

11.7. 20-ci maddə üzrə:

11.7.1. 20.1.2-ci maddəyə "qabiliyyətini itirdikdə" sözlərindən sonra ", həmin peşə (ixtisas) üzrə iş tapmaq mümkün olmadıqda və ya həmin peşə (ixtisas) üzrə bacarıqların artırılması zərurəti olduqda" sözləri əlavə edilsin;

11.7.2. aşağıdakı məzmunda 20.6-cı maddə əlavə edilsin:

"20.6. Bu Qanunla nəzərdə tutulmuş hallarda peşə hazırlığına cəlb olunmuş və müvafiq kursları müvəffəqiyyətlə bitirmiş şəxslərə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada sənəd təqdim olunur.";

11.8. 24-cü maddə üzrə:

11.8.1. aşağıdakı məzmunda 24.1.1-1-ci maddə əlavə edilsin:

"24.1.1-1. təcrübəsinin, peşəsinin (ixtisasının), məşğulluq tarixçəsinin, maddi rifahının, habelə şəraitinin özünüməşğulluğa cəlb edilməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə ilkin monitorinqin həyata keçirilməsi;";

11.8.2. 24.3-cü maddədə "1 (bir) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin;

11.8.3. 24.4-cü maddəyə "istifadə etmədikdə" sözlərindən sonra ", özgəninkiləşdirdikdə, digər şəxsin istifadəsinə verdikdə" sözləri əlavə edilsin;

11.9. 25-ci maddə üzrə:

11.9.1. 25.3-cü maddədə "2 (iki) ildən" sözləri "6 (altı) aydan" sözləri ilə, "3 (üç) aydan az və" sözləri "əmək müqaviləsinin müddətinin yarısı qədər, lakin" sözləri ilə əvəz edilsin;

11.9.2. 25.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"25.5. Sosial iş yerlərinin təşkili zamanı sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə üstünlük verilir.";

11.9.3. 25.6-cı maddədə "10" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

11.10. 27-ci maddə üzrə:

11.10.1. 27.1-ci maddəyə "İşsiz" sözündən sonra ", bu Qanunun 20.2.2-ci, 21.1-ci və 24.1-ci maddələrinə uyğun olaraq aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaran" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulmuş işsiz və işaxtaran kimi qeydiyyata alınan şəxs qeydiyyata alındığı tarixdən ən geci 14 gün ərzində fərdi məşğulluq proqramını təsdiq etməlidir.";

11.10.2. 27.2-ci maddədə "İşsiz" sözündən sonra ", habelə bu Qanuna əsasən aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaran" sözləri əlavə edilsin və "aktiv məşğulluq tədbirlərində" sözləri "tədbirlərdə" sözü ilə əvəz edilsin;

11.11. 31.1-ci maddədə "sisteminin "Əmək müqaviləsi bildirişi" altsisteminə" sözləri "sisteminə" sözü ilə əvəz edilsin.

### Maddə 12. Keçid müddəalar

12.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində müəyyən edilmiş dövlət orqanlarında çalışan, eləcə də əmək müqavilələrinə 2014-cü il iyulun 1-dək xitam verilmiş işçilərin əmək stajı onların əmək kitabçası əsasında müəyyən edilir.

12.2. Bu Qanun qüvvəyə mindiyi tarixdən elektron informasiya sistemində məlumatları mövcud olan əmək kitabçaları işəgötürənlər tərəfindən işçilərə təhvil verilir.

12.3. Bu Qanun qüvvəyə mindiyi günədək bağlanılmış əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq həyata keçirilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 8-1-ci hissəsində, 49-cu maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 87-ci maddəsinin 3-cü və 4-cü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 87-ci maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 3-cü maddəsinin 8-1-ci hissəsində, 87-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 49-cu maddəsinin 2-ci hissəsinin birinci cümləsində"orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 29.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

1.6. "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

1.7. "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında"Azərbaycan Respublikası Qanununun 9.2.2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*Ardı 4-cü səh.*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

1.8. həmin Qanunun 9.2.2-ci maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.9. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.4.11-ci, 5.5-civə 20.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.10. həmin Qanunun 4.4.11-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.11. həmin Qanunun 5.5-ci və 20.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.12. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun 12.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.13. həmin Qanunun 12.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun 12.3-cü maddəsinə uyğun olaraq,əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi mərhələlərini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 20.6-cı maddəsinə uyğun olaraq, peşə hazırlığına cəlb olunmuş və müvafiq kursları müvəffəqiyyətlə bitirmiş şəxslərə təqdim olunan sənədin formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 105 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 88 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

2.2. həmin Qanunun 6-cı maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.".

5. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. ikinci abzasda "5-1-ci hissəsinin ikinci cümləsində" sözləri "8-1-ci hissəsində" sözləri ilə, "2-2-ci (hər iki halda) və 4-cü (birinci halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində" sözləri "2-ci hissəsində" sözləri ilə əvəz olunsun, həmin abzasa "98-ci" sözlərindən əvvəl "87-ci maddəsinin 3-cü və 4-cü hissələrində," sözləri əlavə edilsin;

5.2. üçüncü abzasdan "49-cu maddəsinin 4-cü hissəsində (ikinci halda)," və "87-ci maddəsinin dördüncü hissəsində," sözləri çıxarılsın;

5.3. dördüncü-iyirmi dördüncü abzaslar müvafiq olaraq beşinci-iyirmi beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 87-ci maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

5.4. beşinci abzasdan "3-cü maddəsinin 5-1-ci hissəsinin birinci cümləsində," və "87-ci maddəsinin altıncı hissəsində," sözləri çıxarılsın;

5.5. onuncu abzasdan "49-cu maddəsinin 5-ci hissəsində," və "87-ci maddəsinin 8-ci hissəsində," sözləri çıxarılsın;

5.6. iyirmi ikinci abzasda "3-cü maddəsinin 5-1-ci hissəsində, 49-cu maddəsinin 2-2-ci (hər iki halda) və 4-cü hissələrində "orqan" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri "49-cu maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə" sözləri ilə əvəz edilsin;

5.7.iyirmi üçüncü abzasa "Məcəllənin" sözündən sonra "3-cü maddəsinin 8-1-ci hissəsində," sözləri və "98-ci" sözlərindən əvvəl "87-ci maddəsinin 4-cü hissəsində,"sözləri əlavə edilsin.

6. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611 (Cild I) 3.19-cu bəndinə "Məcəllənin" sözündən sonra "29.1-ci maddəsinin birinci cümləsində və" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 15-1-ci hissəsində "əmək kitabçasında və şəxsi işində" sözləri "şəxsi işində və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda əmək kitabçasında" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nın 10-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"10. Dövlət qulluğunda qulluq stajı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə əsasən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi iləmüəyyən edilmiş hallarda isə əmək kitabçasına əsasən müəyyən edilir.".

9. Azərbaycan Respublikası Prezidentinin2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 70(Cild I) ilə təsdiq edilmiş "Dövlət qulluqçularına əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları"nın 10-cu hissəsindən "əmək kitabçası əsasında" sözləri çıxarılsın.

10.Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297(Cild I); 2024, № 4, maddə 378, № 5 (I kitab), maddələr 517, 529) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin 3.3.6-cı yarımbəndində"ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla" sözləri "olduğu halda" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 965 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın 1.5-ci bəndinin dördüncü abzasına "kitabçası" sözündən sonra "(olduğu halda)" sözləri əlavə edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90(Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"nin 3.1.3-2-ci yarımbəndinə "hallarda işçinin" sözlərindən sonra "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş" sözləri əlavə olunsun və həmin yarımbənddə "müqaviləsi bildirişinin" sözləri "müqaviləsinin" sözü ilə, "işçinin müraciəti əsasında əmək kitabçasında" sözləri "həmin informasiya sistemində" sözləri ilə əvəz edilsin.

13."Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 100 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 107 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) 3-cü hissəsi ləğv edilsin.

14. "Tikinti sahəsində qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 aprel tarixli 1349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 563 (Cild I) 1.2-ci bəndində "Əmək müqaviləsi bildirişi üzrə" sözləri "Mərkəzləşdirilmiş" sözü ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 150 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 2-ci hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 1-ci bəndi ləğv edilsin.

16. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 iyul tarixli 132 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

16.1. 2.1-ci bəndə "4.4.10-cu," sözlərindən sonra "4.4.11-ci," sözləri, "20.4-cü," sözlərindən sonra "20.6-cı," sözləri əlavə olunsun və həmin bənddə ", 18.2-18.6-cı" sözləri "maddələrində, 18.2-ci maddəsinin birinci cümləsində, 18.3-cü, 18.6-cı" sözləri ilə əvəz edilsin;

16.2. 2.5-ci bəndə "20.2-ci," sözlərindən sonra "20.6-cı," sözləri əlavə olunsun və həmin bənddə ", 18.2-ci, 18.4-18.6-cı" sözləri "maddələrində, 18.2-ci maddəsinin birinci cümləsində, 18.6-cı" sözləri ilə əvəz edilsin;

16.3. 2.21-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.22-ci bənd əlavə edilsin:

"2.22. həmin Qanunun 4.4.11-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.".

17. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2.1-ci bənd ləğv edilsin;

17.2. 7.14-cü bənddən "əmək kitabçasında müvafiq qeydiyyat aparılan" sözləri çıxarılsın.

18. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 226 (Cild I) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

18.1. 2.3.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.5. əmək müqavilələrinin əsli, əmək müqavilələrində dəyişikliklər edilməsi haqqında sənədlərin əsli, elektron sənəd formasında bağlanılan əmək müqavilələrinə münasibətdə isəəmək müqavilələri, onlarda edilmiş dəyişikliklər və onlara xitam verilməsi barədə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemindən çıxarış;";

18.2. 2.4.3-cü yarımbəndə "kitabçasının" sözündən sonra "(olduğu halda)" sözləri əlavə edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I); 2024, № 4, maddə 385; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

19.1. 2.1-ci bənd üzrə:

19.1.1. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. "Əmək və məşğulluq" altsistemi;

19.1.2.2.1.9-cu yarımbənd ləğv edilsin;

19.2. 2.3-cü bənd üzrə:

19.2.1. 2.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.2."Əmək və məşğulluq" altsistemi vasitəsilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən (siyahısı Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı ilə təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında əmək müqaviləsi kağız üzərində yazılı formada bağlanılan əmək münasibətləri istisna olmaqla) işçilərlə işəgötürənlər arasında əmək münasibətlərinin rəsmiləşdirilməsi, əmək münasibətlərinə dair arayışların alınması, habelə əməyin təşkili, əməyin mühafizəsi, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məşğulluq sahəsində xidmətlərin elektron qaydada təşkili, o cümlədən məşğul şəxslərin reyestrinin elektron formada aparılması, işsiz və işaxtaran şəxslərin qeydiyyata alınması, vakansiya bankının və ştat vahidlərinə dair cədvəlin yaradılması, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsi və ya onun müddətinin uzadılması ilə bağlı elektron qaydada rəy verilməsi, eləcə də məşğulluq və əmək qanunvericiliyinə əməl olunmasına nəzarət, sığorta edənlər tərəfindən "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə əməl edilməsinin elektron monitorinqi;";

19.2.2. 2.3.9-cu yarımbənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2024-cü il*

# "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 160 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissəsində "2022-2026-cı" sözləri "2022-2028-ci" sözləri ilə əvəz edilsin.

2. Həmin Sərəncamla təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" üzrə:

2.1. adında "2022-2026-cı" sözləri "2022-2028-ci" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissə üzrə:

2.2.1. birinci abzasda "2022-2026-cı" sözləri "2022-2028-ci" sözləri ilə əvəz edilsin;

2.2.2. on birinci abzas üzrə:

2.2.2.1. birinci cümlədə "400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000" sözləri "500" rəqəmləri ilə, "və magistratura" sözləri ", magistratura və doktorantura" sözləri ilə əvəz edilsin;

2.2.2.2. aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisaslara üstünlük verilməsi Azərbaycan Respublikasında akademik potensialın gücləndirilməsini, elmi-texniki və intellektual potensialın artırılmasını, elmi yaradıcılığın inkişafını və elmi biliklərin yayılmasını təmin edəcəkdir.";

2.3. 2-ci hissənin üçüncü abzasının ikinci cümləsinə "artırır" sözündən sonra ", elmi kadr hazırlığının səmərəliliyinin yüksəldilməsini, ölkənin elm və innovasiya potensialının gücləndirilməsini şərtləndirir" sözləri əlavə edilsin;

2.4. 4-cü hissə üzrə:

2.4.1. birinci cümlədə "2022-2026-cı illərdə, hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000" sözləri "2022-2028-ci illərdə, hər il 500" sözləri ilə əvəz edilsin;

2.4.2. ikinci cümlədə "ən azı 80 faizi" sözləri "2022-2024-cü illərdə 80 faizədək hissəsi" sözləri ilə əvəz olunsun və həmin cümləyə "səviyyəsini" sözündən sonra ", 2025-ci ildən başlayaraq isə 25 faizindən çox olmayan hissəsi ali təhsilin bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi ali təhsilin doktorantura səviyyəsini" sözləri əlavə edilsin;

2.5. 5-ci hissənin altıncı abzasından "təhsilin bakalavriat və magistratura səviyyələri üzrə" sözləri çıxarılsın;

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.2-ci bəndin üçüncü abzasında "da gücləndirəcəklər" sözləri "gücləndirəcək, ali təhsil müəssisələrinin beynəlxalq reytinqinin yüksəlməsinə və elm-tədqiqat profilli təhsil müəssisələrinə çevrilməsinə şərait yaradacaqlar" sözləri ilə əvəz edilsin;

2.6.2. 6.3-cü bəndin ikinci abzasının ikinci cümləsindən "isə" sözü çıxarılsın və həmin cümləyə "magistratura səviyyəsində" sözündən sonra ", ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisas üzrə təhsil almaq istəyən, elmi nəticələri və elmi potensialı olan yaradıcı gənclərə isə ali təhsilin doktorantura səviyyəsində" sözləri əlavə edilsin;

2.7. 9-cu hissə üzrə:

2.7.1. 9.1-ci bənd üzrə:

2.7.1.1. "Əsas icraçı orqan (qurum)" sütununda "Təhsil Nazirliy" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.7.1.2. "İcra müddəti" sütununda "2022" rəqəmləri "2024" rəqəmləri ilə əvəz edilsin;

2.7.2. 9.2-ci bənd üzrə:

2.7.2.1. "Digər icraçılar" sütununa "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

2.7.2.2. "İcra müddəti" sütununda "2022" rəqəmləri "2024" rəqəmləri ilə əvəz edilsin;

2.7.3. 9.3-cü bənd üzrə:

2.7.3.1. "Əsas icraçı orqan (qurum)" sütununa "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

2.7.3.2. "İcra müddəti" sütununda "2022" rəqəmləri "2024" rəqəmləri ilə əvəz edilsin;

2.7.4. 9.4-cü bənd üzrə:

2.7.4.1. "Digər icraçılar" sütununa "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

2.7.4.2. "İcra müddəti" sütununda "2022" rəqəmləri "2024" rəqəmləri ilə əvəz edilsin;

2.7.5. 9.5-ci bəndin "İcra müddəti" sütununda "2022-2026" rəqəmləri "2022-2028" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2024-cü il*

# Azərbaycanın xarici siyasətinin uğurları



**Ötən həftə Prezident İlham Əliyev Qazaxıstana səfər edərək Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq kimi iştirak etdi. Bu, Azərbaycan Prezidentinin son iki ildə Mərkəzi Asiya ölkələrinə ümumilikdə 16-cı səfəri idi. Təkcə bu iki məqama diqqət etsək, əsl reallığı bir daha görmüş olarıq.**

## İlham Əliyev Mərkəzi Asiya ölkələrinə çağırış etdi

### Azərbaycan birgə təşəbbüsləri dəstəkləməyə hazırdır

Öncə Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görərik ki, ölkəmiz sözün əsl mənasında müstəqil dövlət kimi dünya xəritəsində layiqli yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dvidendlər qazandırır. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də beynəlxalq aləmdə şəxsi nüfuzunun artmasına gətirib çıxarır. Yəni bu gün elə bir beynəlxalq toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin mərasimə dəvət edilməsin.

İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq kimi iştirakı, çıxış edərək təkliflər səsləndirməsi də bir daha göstərdi ki, Azərbaycanın Avrasiya məkanında mövqeyi getdikcə möhkəmlənir. Bu həm də dövlət başçısının şəxsi nüfuzunun, ölkəmizin beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin edilməsinə, əməkdaşlığın genişlənməsinə verdiyi töhfələrinə yüksək qiymətin bariz nümunəsidir.

Görüşdə çıxış edən İlham Əliyevin son iki ildə Mərkəzi Asiya ölkələrinə 16 səfər etməsi, bu regionun dost və qardaş ölkələrinin liderlərinin Azərbaycana 15 dəfə səfər etmələri ilə bağlı fikirləri də diqqətçəkən məqam oldu. Ümumilikdə götürdükdə qarşılıqlı 31 səfər ilk növbədə, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa, münasibətlərin inkişafına verdiyi önəmin göstəricisidir. Əlbəttə ki, bu səfərlər zamanı aparılan danışıqlar, imzalanan sənədlər, əldə olunan razılaşmalar müxtəlif istiqamətlərdə əlaqələrin daha da şaxələnməsi üçün real zəmin yaradır.

Prezident İlham Əliyev Azərbaycanın noyabr ayında evsahibliyi edəcəyi möhtəşəm beynəlxalq konfransa - COP29-a hazırlıqlar barədə məlumat verərək təklif də səsləndirdi: "Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır".

Ən önəmlisi isə odur ki, bu gün Azərbaycan imkanlarını daha da genişləndirərək Avropa ilə Asiya arasında etibarlı tranzit habına çevrilməkdədir. Yəni Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan Şərq-Qərb marşrutu üzrə etibarlı tranzit ölkədir.

Ümumiyyətlə, Mərkəzi Asiya ölkələri ilə Azərbaycanın əməkdaşlığı dərinləşdikcə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhlizin) əhəmiyyəti bir qədər də artacaq. Çünki bu gün Asiyadan Avropaya və ya əksinə işləyən marşrutların ən qısa yolu Azərbaycandan keçir. Ölkəmiz isə bu inkanlarını daha da genişləndirməklə dəhlizin cəlbediciliyini artırır. Bu imkanları İlham Əliyev Qazaxıstan görüşündə bir daha Mərkəzi Asiya ölkələrinin liderləri ilə görüşündə diqqətə çatdırıb. Prezident deyib ki, qarşılıqlı fəaliyyətin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

Onu da vurğulamalıyıq ki, Mərkəzi Asiya ilə Azərbaycan arasındakı əməkdaşlıq yalnız tranzit daşımalarla yekunlaşmır. Bu gün tranzit yüklər Azərbaycan vasitəsilə Avropaya çatdırılır. Növbəti mərhələ isə Mərkəzi Asiya respublikalarında istehsal olunan alternativ enerjinin Azərbaycan ərazisindən Avropaya ixracını təmin etməkdən ibarətdir. Qara dənizin dibi ilə Şərqi Avropaya elektrik enerjisinin ixracını həyata keçirməklə Azərbaycan yenə də mühüm tranzit ölkə olacaq. Avropa İttifaqı texniki əsaslandırma işləri üçün 2,5 milyon dollar vəsait ayırıb. Dünya Bankı isə layihənin reallaşmasına 75 milyon dollar ayırmaq niyyətini açıqlayıb.

Əlbəttə ki, Asiya ilə Avropa arasında rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" əhəmiyyətli inkişaf layihəsidir. Xəzər dənizinin dibi ilə fiber-optik kommunikasiya xəttinin çəkilməsini nəzərdə tutan bu layihə regionda rəqəmsallaşma və rabitə xidmətlərinin inkişafına mühüm töhfə verəcək.

Beləliklə, Azərbaycan Mərkəzi Asiyadan yüklərin Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınmasında iştirak etməklə yanaşı, həm də bu regionda istehsal olunan alternativ enerjinin Avropaya nəqlində əhəmiyyətli tranzit dövlət kimi çıxış edəcək. Bu baxımdan Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində yürütdüyü siyasət ölkəmizin milli maraqlarına cavab verməklə bərabər, həm də milli iqtisadiyyatın daha da inkişafına böyük töhfə verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## *Qazax ekspert:* "Trans-Xəzər marşrutu Avrasiyanın əsas nəqliyyat arteriyası olmaq üçün bütün ilkin şərtlərə malikdir"

Azərbaycan və Mərkəzi Asiya ölkələri strateji əhəmiyyəti artan vahid tarixi, mədəni və geosiyasi məkandır. Ölkəmiz iki Mərkəzi Asiya ölkəsinin - Qazaxıstan və Türkmənistanın daxil olduğu Xəzər beşliyindən biridir. Məhz mövcud coğrafi məkanına görə Azərbaycan Mərkəzi Asiyada mövcud olmağa "məhkumdur".



Avqustun 9-da Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvətilə Prezident İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib. Bu tədbirdə çıxış edən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanın Mərkəzi Asiyanın dövlət başçılarının görüşlərinə dəvət olunması ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin, inkişaf edən əməkdaşlığın göstəricisidir.

Jurnalist T.Məmmədova AZƏRTAC üçün mövzu ilə bağlı qazaxıstanlı iqtisadi ekspert, Dünya İqtisadiyyatı və Siyasəti İnstitutunun Çin və Asiya Araşdırmaları proqramının rəhbəri Ersultan Janseitov ilə müsahibə hazırlayıb. Müsahibəni təqdim edirik.

*- Azərbaycan Prezidenti Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının görüşlərində iştirak etmək üçün dəvət olundu. Bu görüşlər rəsmi Bakı ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin inkişafına necə təsir edir?*

- Qeyd edək ki, cənab İlham Əliyev demək olar ki, Qazaxıstanın keçirdiyi bütün tədbirlərdə iştirak edir, Qazaxıstan paytaxtında tez-tez qonaq olur. Bütün bunlar Qazaxıstanla Azərbaycan arasında ikitərəfli münasibətlərin səviyyəsinin tarixi maksimumda olduğunu simvolizə edir. Biz təkcə strateji tərəfdaş deyilik, ən yaxın müttəfiqlərik. Bizim əməkdaşlığımız qardaşlıq münasibətlərinə əsaslanır. Ölkələrimiz türk dövlətləridir, ona görə də biz bütün beynəlxalq məsələlərdə bir-birimizi dəstəkləməyə məhkumuq. Rəsmi Bakı Mərkəzi Asiya ölkələrinin regional inteqrasiyası proseslərində mühüm rol oynayır. Hazırda əlaqələrimizin inkişafı Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), Türk Dövlətləri Təşkilatı (TDT) və Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində formalaşır. BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramını - SPECA-nı da qeyd etmək vacibdir. Azərbaycanla Qazaxıstan, Qırğızıstan və Özbəkistan arasında investisiya layihələri fəal şəkildə həyata keçirilir, birgə investisiya fondları yaradılıb. Bundan əlavə, rəsmi Astana və Bakı Mərkəzi Asiya və Cənubi Qafqazın geosiyasi qarşılıqlı fəaliyyətində əsas rol oynayır. Bu, hər iki ölkənin böyüyən iqtisadiyyatı, demoqrafik göstəriciləri və nəqliyyat imkanlarını gücləndirir.

*- Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı fəaliyyətin mühüm istiqamətlərindən biri nəqliyyat və tranzit sektorunda əməkdaşlıqdır. Ölkələrimiz arasında bu sahədə hansı mühüm layihələr həyata keçirilib?*

- 2022-ci ildən Qazaxıstanın xarici siyasətində təbii ki, geosiyasi kontekstlə əlaqədar olaraq, nəqliyyat və tranzit sektoru kontekstində xüsusi əhəmiyyətə malik Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi əsas rol oynayır. Bu marşrutun böyük potensialı var. Təkcə ötən il trans-Xəzər marşrutu ilə yükdaşımalar 65 faiz artaraq 3 milyon tona yaxın olub. Qazaxıstanın hədəfi 2027-ci ilə qədər bu rəqəmi 10 milyon tona çatdırmaqdır. Qeyd etmək lazımdır ki, bu istiqamətdə böyük potensial var və gələcəkdə biz ticarət axını artdıqca tədarük olunan malların həcmini də artıra bilərik. Trans-Xəzər marşrutu Avrasiyanın əsas nəqliyyat arteriyalarından birinə çevrilmək üçün bütün ilkin şərtlərə malikdir. Bundan əlavə, rəsmi Bakı Şərq-Qərb dəhlizi boyunca Mərkəzi Asiya ölkələri üçün etibarlı tranzit ölkə rolunu oynayır. Əhəmiyyətli irəliləyiş təşəbbüsü Rəqəmsal İpək Yoludur. Layihəyə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi planları daxildir ki, bu da regionda rabitə xidmətlərinin rəqəmsallaşmasına və inkişafına mühüm töhfə verəcək.

*- İşğaldan azad edilmiş Qarabağ ərazilərinin bərpasında Mərkəzi Asiya ölkələri Azərbaycana hansı yardımı göstərmək niyyətindədirlər?*

- Qarabağ işğaldan azad edildikdən sonra bütün Mərkəzi Asiya ölkələri işğaldan azad edilmiş ərazilərin bərpasında öz imkanları daxilində Azərbaycan tərəfinə dəstək verirlər. Ötən il Füzuli şəhərində Mirzə Uluqbəy adına orta məktəb, bu il isə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi istifadəyə verilib. Bu dəstək Özbəkistan və Qazaxıstanın hədiyyəsidir. Bu il də Qırğızıstanın dəstəyi ilə Ağdam rayonunda orta məktəb binasının təməlqoyma mərasimi olub. Məncə, Azərbaycan torpaqlarının infrastrukturunun bərpasına dəstəyin göstərilməsi çox simvolikdir. Bu, demək olar ki, tariximizin nəsildən-nəslə ötürüləcək parlaq səhifələrindən biridir.

*- Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Ölkələrimiz "yaşıl iqtisadiyyat"ı inkişaf etdirmək üçün güclərini necə birləşdirə bilərlər?*

- İstər Mərkəzi Asiya ölkələri, istərsə də Azərbaycan bu məsələyə böyük önəm verir. Çünki biz bilirik ki, karbohidrogenlər dövrü, neft əsri get-gedə ötüb gedir. Hər halda, bu gün baş verməsə belə, gələcəkdə bu, qaçılmaz tendensiya olacaq. Ona görə də biz zamanla ayaqlaşmalı və vaxtında yeni alternativ mənbələrə keçməliyik. Mərkəzi Asiya ölkələrilə əməkdaşlıq kontekstində iyul ayında Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Elektrik enerjisinin regionumuzdan Avropa ölkələrinə ixracı üçün Xəzər dənizinin dibi ilə və daha sonra Qara dənizin dibi ilə kabellərin çəkilməsi nəzərdə tutulur. Bundan əlavə, Almaniya tərəfi ilə əməkdaşlıqda Qazaxıstan "yaşıl hidrogen" istehsalı üzrə böyük layihə hazırlayır. Bu kontekstdə trans-Xəzər marşrutu Avropa ölkələrinə, ilk növbədə Almaniyaya ixracına görə prioritetdir. Ona görə də Azərbaycan bu məsələdə bizim əvəzsiz tərəfdaşımızdır və "yaşıl enerji" ilə əməkdaşlıq məsələsi gələcəkdə ən aktual məsələlərdən biri olacaq.

*- Noyabrda Azərbaycanda COP29 konfransı keçiriləcək. Qazaxıstan bu tədbirin keçirilməsində Bakıya necə dəstək vermək niyyətindədir?*

- Qazaxıstan iqlim gündəliyinə böyük əhəmiyyət verir. Bu baxımdan Qazaxıstan BMT-nin məsuliyyətli dövləti kimi öz növbəsində bu ilin payızında Bakıda mötəbər İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsini dəstəkləmək üçün hər cür səy göstərəcək. Əminəm ki, Qazaxıstandan ekspert dəstəyi və informasiya dəstəyi lazımi səviyyədə olacaq və bizim tərəf də Azərbaycana lazım olan bütün yardımları göstərəcək. Qazaxıstanın 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq üçün uzunmüddətli hədəfi var. Bu, bizim uzun müddət üçün etalonumuzdur. Bundan əlavə, Almatıda iqlim və "yaşıl enerji" məsələləri üzrə layihə mərkəzi yaradılır. Qazaxıstan Mərkəzi Asiyada iqlim məsələləri üzrə regional mərkəz və koordinator kimi fəaliyyət göstərir. Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən sammitində Prezident Kasım-Jomart Tokayev bildirib ki, Qazaxıstan COP29 gündəliyinin formalaşmasında birbaşa iştirak edəcək. Hesab edirəm ki, burada tərəflər Xəzər dənizi üzərindən nəqliyyat və tranzit potensialını inkişaf etdirməklə yanaşı, dənizin qorunub saxlanması üçün də birgə fəaliyyət göstərə bilərlər. Çünki biz indi bilirik ki, Xəzərin səviyyəsinin aşağı düşməsi tendensiyası var və burada trans-Xəzər marşrutunun inkişafı üçün əsas meyarlardan biri onun ekoloji cəhətdən təmiz olmasıdır. Yəni dövlətlər bu məsələyə məsuliyyətlə yanaşmalı, ilk növbədə Xəzər dənizinin fauna və florasını qorumalı, bu su anbarının bütün biomüxtəlifliyinin yox olmasına imkan verməməli və Xəzər dənizinin çirklənməsinin qarşısını almalıdır.

## *Yerlan SAİROV:* "Türk dünyası ölkələrinin əsas vəzifəsi kompleks təhlükəsizlik sisteminin yaradılmasıdır"

Getdikcə daha mürəkkəb hal alan beynəlxalq münasibətlər fonunda ortaq tarixi və mədəni kökləri olan ölkələrimizin əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər bunun əyani nümunəsidir.

Bu yaxınlarda Azərbaycan Prezidentinin də iştirakı ilə Mərkəzi Asiya Dövlət Başçılarının görüşü keçirildi. Qazaxıstan Respublikası Parlament Məclisinin (aşağı palata) deputatı Yerlan Sairov Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın perspektivlərini, həmçinin onların qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərini AZƏRTAC-ın müxbiri ilə söhbətində şərh edib.

*- Sizcə, bu kontekstdə Azərbaycan Prezidentinin Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə iştirakı hansı rolu oynadı?*

- Mərkəzi Asiya ölkələri kimi, Azərbaycan da türk dünyasının bir hissəsidir. Hamımız vahid dil, din və mədəni məkanı təmsil edirik. Son 5-6 ildə dünyada artan geosiyasi gərginlik, habelə qeyri-sabit iqtisadi və sosial proseslər fonunda ortaq tarixi köklərə malik olan xalqların daha çox konsolidasiyası zərurəti yaranıb. Bu kontekstdə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə iştirakı xüsusi əhəmiyyət kəsb edir. Bu, həmçinin bizim gələcək inteqrasiya və birlik səylərimizdən xəbər verir.

*- Görüşün hansı nəticələri Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün daha çox əhəmiyyətlidir?*

- Son vaxtlar Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın liderləri qlobal siyasət, dost və mənşəcə yaxın dövlətlərimizin regional inteqrasiyası məsələlərini müzakirə etmək üçün tez-tez görüşürlər. Bu görüşlər iqtisadi, sosial və digər sahələrdə ölkələrin daha sıx inteqrasiyasına təkan verən real nəticələr verir. Bunun sayəsində türk dünyası ölkələri böyük beynəlxalq layihələrdə iştirak etmək imkanı əldə edirlər. Hər bir görüş iştirakçılara müsbət enerji verməklə yanaşı, konkret nailiyyətlərə, xüsusən də vahid nəqliyyat qovşağının yaradılmasına gətirib çıxarır. Bu sammitlər dövlətlərimiz arasında əməkdaşlığın inkişafında əsas rol oynayır.



*- Azərbaycan Prezidenti İlham Əliyev görüş əsnasında qeyd etdi ki, dünyada getdikcə artan təhdidlər və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsini zəruri edir. Bu bəyanatı necə şərh edərdiniz?*

- Mərkəzi Asiya ölkələri Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Qohum xalqlar təkcə bir-birinə güvənmir, həm də əməkdaşlıq üçün qarşılıqlı faydalı iqtisadi, maliyyə və digər şərtlər təklif edə bilərlər. Qlobal qeyri-sabitlik şəraitində ümumi təhlükəsizlik sisteminin formalaşdırılması xüsusi əhəmiyyətə malikdir. Ölkələrin liderlərinin mütəmadi görüşləri həm iqtisadi inteqrasiyanın, həm də bir-biri ilə sıx bağlı olan vahid təhlükəsizlik sisteminin inkişafında əsas rol oynayır.

Beləliklə, bu görüşlərin gündəliyi iqtisadi və mədəni məsələlərin müzakirəsindən kənara çıxmalıdır. Əsas vəzifə türk dünyasının bütün ölkələri üçün hərtərəfli təhlükəsizlik sistemi yaratmaqdır.

*- Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-tranzit sektorunda əməkdaşlıq haqqında nə deyə bilərsiniz?*

- Azərbaycan Mərkəzi Asiya ölkələrindən Avropaya, Yaxın və Orta Şərq ölkələrinə mal və xidmətlərin çatdırılmasını təmin etmək üçün unikal nəqliyyat qovşağıdır. Bu gün Qazaxıstan nefti və Mərkəzi Asiya ölkələrindən gələn digər mal və xidmətlərin Azərbaycanın nəqliyyat qovşaqlarından keçə bilməsi üçün nəqliyyat məsələləri əsas prioritetdir. Bizə rəqəmsallaşma, sənaye, neft emalı və digər sahələrdə inteqrasiya sistemləri lazımdır. Bütün bu məsələlər gələcəkdə öz həllini tapacaq və ölkələrimizin iqtisadi qüdrətini artıracaq.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## QƏRAR № 30/138

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermə günü Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının "Oracle Advisory Group" şirkəti (Amerika Birləşmiş Ştatları) ilə birgə "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası 2 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "Oracle Advisory Group" şirkəti (Amerika Birləşmiş Ştatları) ilə birgə səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, Komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının müraciəti təmin olunmalı, "Oracle Advisory Group" şirkəti ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 2.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının 2 avqust 2024-cü il tarixli müraciəti təmin edilsin və 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "Oracle Advisory Group" şirkəti ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/139

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermə günü "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyinin SWG S.P.A. tədqiqatlar şirkəti (İtaliya) ilə birgə "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Tərəqqi" sosial tədqiqatlar ictimai birliyi 3 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə SWG S.P.A. tədqiqatlar şirkəti (İtaliya) ilə birgə səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, Komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyinin akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalı, SWG S.P.A. tədqiqatlar şirkəti (İtaliya) ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 2.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyinin 3 avqust 2024-cü il tarixli müraciəti təmin edilsin və 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə SWG S.P.A. tədqiqatlar şirkəti (İtaliya) ilə birgə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/140

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 26 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Məhəbbət Orucov 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin partiya tərəfindən namizədliyi irəli sürülmüş Ağayev Elxan Şükür oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 14/37 saylı Qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə onun pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən, Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında mahiyyəti üzrə baxılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş E.Ş.Ağayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 7 avqust 2024-cü il tarixli 14/37 saylı qərarını onunla əsaslandırmışdır ki, toplanmış 500 seçici imzası olan 10 ədəd imza vərəqəsi və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu imza vərəqələrini yoxlayarkən bəzi imzaların yoxlanmasına zərurət yarandığını nəzərə alaraq namizədin təqdim etdiyi imza vərəqələrindəki imzaların yoxlanılması üçün xətşünas ekspertlərin ayrılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupunun mütəxəssisləri sırasından xətşünas ekspertlər ayrılmış və yoxlamaya təqdim edilmiş imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə ekspertlərin rəyindən və işçi qrupunun protokolundan görünür ki, yoxlamaya təqdim olunan 10 ədəd imza vərəqəsində olan 500 ədəd imzadan 300 ədəd imza yoxlanılmış, həmin imzalardan 151 ədəd imza qeyri-düzgün hesab olunmuşdur. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd E.Ş.Ağayev tərəfindən təqdim edilmiş imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş və təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən İşçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olmuş seçici imzaları təkrarən digər xətşünas ekspertlər tərəfindən yoxlanılmış, imzalar üzrə əvvəl aparılmış ekspertizanın nəticəsi bir daha öz təsdiqini tapmışdır.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə, işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə, namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı E.Ş.Ağayevin namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur.

Beləliklə, Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Məhəbbət Orucovun müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 14/37 saylı saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Məhəbbət Orucovun 10 avqust 2024-cü il tarixli 26 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 14/37 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/141

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 22 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 35 saylı Xətai üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərkərnamazova Könül Əhməd qızı 2024-cü il avqustun 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair həmin seçki dairəsi dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 18/39 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Namizəd K.Ə.Sərkərnamazova şikayətində bildirmişdir ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyinin qeydə alınması üçün imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərini 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmiş, namizəd tərəfindən gəlirlərin miqdarı və mənbəyi haqqında düzgün məlumat verməməsi səbəbindən onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədin qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin gəlirlərinin miqdarı və mənbəyi barədə məlumatlar müvafiq seçki sənədində düzgün göstərilməmişdir.

Araşdırma ilə əlaqədar namizəd K.Ə.Sərkərnamazova tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 12 avqust 2024-cü il tarixli rəyindən məlum olur ki, namizəd K.Ə.Sərkərnamazova "Namizədin gəlirlərinin miqdarı və mənbələri haqqında məlumat" blankında 29 iyul 2023-cü il tarixdən 29 iyul 2024-cü il tarixədək olan dövr üçün heç bir gəlirinin olmadığını göstərsə də, araşdırma zamanı onun muzdla 2024-cü ilin ilk 6 ayı (yanvar-iyun) üzrə gəlirinin olduğu müəyyən edilmiş, lakin müvafiq seçki sənədinə bu barədə məlumat daxil etməmişdir.

Beləliklə, namizəd K.Ə.Sərkərnamazova öz gəlirlərinin miqdarı və mənbəyi barədə dairə seçki komissiyasına verdiyi məlumatların düzgün olmaması Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədliyin qeydə alınmasından imtina üçün əsasdır və dairə seçki komissiyası bu əsasla onun namizədliyinin qeydə alınmasından imtina etməklə düzgün hüquqi nəticəyə gəlmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 35 saylı Xətai üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərkərnamazova Könül Əhməd qızının 10 avqust 2024-cü il tarixli 22 saylı şikayəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 18/39 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/142

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 avqust 2024-cü il tarixli 29 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Məcidzadə Şəhriyar Sərdar oğlu 2024-cü il avqustun 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd tərəfindən seçkiqabağı təşviqat qaydalarının pozulduğunu iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Məcidzadə Şəhriyar Sərdar oğlunun 2024-cü il 12 avqust tarixli 29 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/144

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 28 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Kərimli Nigar Bəybala qızı 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərkən müraciətin Seçki Məcəlləsinin və müvafiq Təlimatın müəyyən etdiyi tələblərin pozulması ilə daxil olduğu müəyyən edilmiş, müraciətin onu göndərən şəxsə geri qaytarılmasına dair rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət daxil olduqdan sonra ərizəçi ilə əlaqə saxlanılmış, müraciətin Seçki Məcəlləsinin tələblərinin pozulması ilə daxil olması barədə ona məlumat verilmiş, iclasda iştirak etmək hüququnun olması izah edilmiş və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd müraciətin partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən tərtib edildiyini, məzmunundan məlumatsız olduğunu bildirmişdir.

Namizədin müraciətində göstərilmişdir ki, "1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkilərində Ümid Partiyası tərəfindən 10 saylı Binəqədi üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş Kərimli Nigar Bəybala qızının sənədlərinə baxış zamanı 121 saylı Laçın dairə seçki komissiyasının üzvləri Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 19.4, 19.14, 31.1.1, 34.3, 34.4, 58, 59, 60-cı, 147 və 148.1-ci maddələrini əsas gətirərək onun namizədliyinin qeydə alınmaması ilə bağlı qərar qəbul etmişdir".

Nəzərdən keçirilən zaman müraciətin seçki qanunvericiliyinin tələblərinin pozulması ilə daxil olması və namizədin tələbinin aydın olmaması müəyyən edilmişdir.

Seçki Məcəlləsinin 112.5-ci maddəsində seçki hüquqlarının pozulması ilə bağlı təqdim edilən şikayətlərə dair tələblər müəyyən edilmişdir.

Bu tələblər sırasında şikayət üçün əsas kimi Seçki Məcəlləsinin, digər qanunvericilik aktlarının pozulmasının güman edilməsi, güman edilən pozuntunun dəlilləri və ya pozuntunun nədən ibarət olduğunun izahı, şikayətçinin tələbi və sairə öz əksini tapmışdır.

"Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2.5-ci bəndində göstərilir ki, əgər şikayətdə qeyd edilən şərtlərdən hər hansı biri yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, şikayət onu göndərən şəxsə geri qaytarılır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2-ci hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Kərimli Nigar Bəybala qızının 10 avqust 2024-cü il tarixli 28 saylı müraciəti Seçki Məcəlləsinin və müvafiq Təlimatın müəyyən etdiyi qaydaların pozulması ilə daxil olduğundan onu göndərən şəxsə geri qaytarılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 30/143

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 23 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fərəcov Aqşin Akif oğlu 2024-cü il avqustun 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair həmin seçki dairəsi dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 18/58 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd A.A.Fərəcov şikayətində iddia etmişdir ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, seçici imzaları olan imza vərəqələri və ona əlavə edilmiş müvafiq seçki sənədləri 2024-cü il avqustun 2-də dairə seçki komissiyasına təqdim edilmiş, lakin adına olan məhdud məsuliyyətli cəmiyyətin gəliri barədə bəyannamələrin təqdim olunmaması səbəbindən dairə seçki komissiyasının mübahisələndirdiyi qərarı ilə onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizəd A.A.Fərəcovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, dairə seçki komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupunun namizədin gəlirlərinin miqdarı və mənbəyi barədə məlumatların yoxlanılmasına dair rəyində onun 2024-cü ilin ilk 6 ayı üzrə muzdlu işdən gəlir əldə etdiyi müəyyən edilmiş və namizəd gəlirlərinin miqdarı və mənbəyi haqqında məlumatları seçki sənədində düzgün göstərmədiyindən Seçki Məcəlləsinin 58.1.4-cü və 60.2.3-cü maddələrinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar namizəd A.A.Fərəcov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. İşçi qrupunun 11 avqust 2024-cü il tarixli rəyindən məlum olur ki, həqiqətən də namizəd A.A.Fərəcovun öz gəlirlərinin miqdarı və mənbəyi barədə təqdim etdiyi məlumatda göstərmədiyi, lakin 2024-cü ilin ilk altı ayını əhatə edən dövr üzrə muzdlu işdən 2160,00 (iki min yüz altmış) manat məbləğində gəliri olmuşdur.

Seçki Məcəlləsinin 58.3-cü maddəsinə görə, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi bəyannamə formasında, seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən əvvəlki bir illik dövr üçün təqdim olunur. Eyni zamanda gəlirlərin alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış təqdim edilir.

Araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyasının qərarı heç də şikayətçinin iddia etdiyi kimi onun "adına olan məhdud məsuliyyətli cəmiyyətin gəliri barədə bəyannamələrin təqdim olunmaması səbəbindən" deyil, həmin qurumun rəhbəri kimi aldığı əməkhaqqı barədə məlumatı namizədin gəlirlərinin miqdarı və mənbələri barədə olan Qaydalara 1 saylı əlavədə "Əsas iş yerindən aylıq əmək haqqı" bölümündə göstərməməsi əsas götürülərək qəbul olunmuşdur. Namizədliyin qeydə alınması üçün təqdim edilən sənədlərin qəbul edilməsinə dair 02 avqust 2024-cü il tarixli arayış nəzərdən keçirilərkən isə müəyyən olundu ki, gəlirlərin alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış da dairə seçki komissiyasına təqdim edilməmişdir.

Beləliklə, namizəd A.A.Fərəcovun öz gəlirlərinin miqdarı və mənbəyi barədə dairə seçki komissiyasına verdiyi məlumatların düzgün olmaması Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədliyin qeydə alınmasından imtina üçün əsasdır və dairə seçki komissiyası bu əsasla A.A.Fərəcovun namizədliyinin qeydə alınmasından imtina etməklə düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən namizəd A.A.Fərəcovun 10 avqust 2024-cü il tarixli 23 saylı şikayəti əsassız olduğundan təmin edilməməli, onun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 18/58 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fərəcov Aqşin Akif oğlunun 10 avqust 2024-cü il tarixli 23 saylı şikayəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 18/58 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/145

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 24 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi İmanlı Salman Məhəmməd oğlu 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Əsgərov Aqşin Cahangir oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 24/57 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv olunmasını və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən, Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında mahiyyəti üzrə baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma prosesində iştirakı təmin edilmiş, Komissiyanın iclasına dəvət edilsə də iclasa gəlməmişdir.

Dairə seçki komissiyası A.C.Əsgərovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 8 avqust 2024-cü il tarixli 24/57 saylı qərarını onunla əsaslandırmışdır ki, toplanmış 500 seçici imzası olan 10 ədəd imza vərəqəsi və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən imza vərəqələri yoxlanılarkən bir sıra vətəndaşlar tərəfindən dairə seçki komissiyasına daxil olmuş müraciətlər əsasında bəzi imzaların yoxlanmasına zərurət yarandığını nəzərə alaraq namizədin təqdim etdiyi imza vərəqələrindəki imzaların yoxlanılması üçün xətşünas ekspertlərin ayrılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun mütəxəssisləri sırasından xətşünas ekspertlər ayrılmışdır. Yoxlamaya təqdim edilmiş imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə ekspertlərin rəyindən və işçi qrupunun protokolundan görünür ki, yoxlamaya təqdim olunan 10 ədəd imza vərəqəsində olan 500 imzadan 260 ədəd imza yoxlanılmış, həmin imzalardan 115 ədəd imza qeyri-düzgün hesab olunmuşdur. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd A.C.Əsgərov tərəfindən təqdim edilmiş imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş və təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olan seçici imzaları təkrarən digər xətşünas ekspertlər tərəfindən yoxlanılmış, imzalar üzrə əvvəl aparılmış ekspertizanın nəticəsi bir daha öz təsdiqini tapmışdır.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə, işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə, namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımı saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı A.C.Əsgərovun namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur.

Beləliklə, Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi İmanlı Salman Məhəmməd oğlunun müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 24/57 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndəsi İmanlı Salman Məhəmməd oğlunun 10 avqust 2024-cü il tarixli 24 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 24/57 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/146

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 25 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 45 saylı Sumqayıt dördüncü seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş İsrafil İkram İsrayıl oğlu 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 21/66 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv olunmasını və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən, Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında mahiyyəti üzrə baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd İ.İ.İsrafil öz müraciətində imtina üçün əsas olmuş imzaların qeyri-düzgünlüyünü mübahisələndirmiş və imzaların yoxlanılması prosesi barədə ona məlumat verilmədiyini, o cümlədən həmin icraatda iştirakının təmin olumamasını bildirmişdir.

Dairə seçki komissiyası namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş İ.İ.İsrafilin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 8 avqust 2024-cü il tarixli 21/66 saylı Qərarını onunla əsaslandırmışdır ki, toplanmış 497 seçici imzası olan 10 ədəd imza vərəqəsi və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən imza vərəqələri yoxlanılarkən dairə seçki komissiyasına daxil olmuş seçici müraciətləri (imzaların onların adından qoyulması ilə bağlı) və bununla əlaqədar yoxlama aparılması zərurəti yarandığını nəzərə alaraq 45 saylı Sumqayıt dördüncü seçki dairəsi dairə seçki komissiyası məktubla namizədin təqdim etdiyi imza vərəqələrindəki imzaların yoxlanılması üçün xətşünas ekspertlərin ayrılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Bu məqsədlə Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun mütəxəssisləri sırasından xətşünas ekspertlər ayrılmışdır. Həmin ekspertlərin rəylərindən və imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə işçi qrupunun protokolundan görünür ki, təqdim olunan 10 imza vərəqəsində olan 497 imzadan 49 imza Seçki Məcəlləsinin 56.2-ci maddəsinin tələbləri pozulmaqla 45 saylı Sumqayıt dördüncü seçki dairəsinin ərazisindən kənarda toplandığından, yoxlanılmış 200 ədəd imzadan 108 ədəd imza 34 qrup olmaqla öz aralarında eyni şəxs tərəfindən icra edildiyindən, 74 seçici imzası qeyri-düzgün hesab olunmuşdur. Bununla da, təqdim edilmiş 497 seçici imzasından 123 seçici imzası qeyri-düzgün hesab edilmişdir. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd İ.İ.İsrafil tərəfindən təqdim edilmiş imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş, təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olmuş 49 seçici imzasının Seçki Məcəlləsinin 56.2-ci maddəsinin tələbləri pozulmaqla 45 saylı Sumqayıt dördüncü seçki dairəsinin ərazisindən kənarda toplanması, yoxlanılmış 200 ədəd imzadan 108 ədəd imza 34 qrup olmaqla eyni şəxs tərəfindən icra olunması nəticəsində 74 seçici imzasının qeyri-düzgün olması və ümümilikdə 123 seçici imzasının etibarsız olması tərtib edilmiş 11 avqust 2024-cü il tarixli protokol və ekspert rəyi ilə bir daha təsdiq olunmuşdur.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə, işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımı saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı İ.İ.İsrafilin namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur.

Beləliklə namizəd İ.İ.İsrafilin müraciəti əsassız olduğundan təmin edilməməli, onun namizədliyin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 21/66 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 45 saylı Sumqayıt dördüncü seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş İsrafil İkram İsrayıl oğlunun 10 avqust 2024-cü il tarixli 25 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 21/66 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

## QƏRAR № 30/147

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 27 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi 83 saylı Beyləqan seçki dairəsi üzrə Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Vəliyev Əli Xanəli oğlu 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, onun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 17/40 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv olunmasını və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən, Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında mahiyyəti üzrə baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma prosesində iştirakı təmin edilmiş, Komissiyanın iclasına dəvət edilsə də, iclasa gəlməmişdir.

Dairə seçki komissiyası Ə.X.Vəliyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 8 avqust 2024-cü il tarixli 17/40 saylı qərarını onunla əsaslandırmışdır ki, toplanmış 500 seçici imzası olan 10 ədəd imza vərəqəsi və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən imza vərəqələri yoxlanılarkən bəzi imzaların düzgünlüyünün yoxlanmasına zərurət yarandığından xətşünas ekspertlərin ayrılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun mütəxəssisləri sırasından ayrılmış xətşünas ekspertlərin yoxlamaya təqdim edilmiş imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə rəyindən və işçi qrupunun protokolundan görünür ki, yoxlamaya təqdim olunan 10 ədəd imza vərəqəsində olan 500 imzadan 280 ədəd imza yoxlanılmış, həmin imzalardan 170 ədədi etibarsız hesab olunmuşdur. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd Ə.X.Vəliyev tərəfindən təqdim edilmiş imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş və təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olan seçici imzaları təkrarən digər xətşünas ekspertlər tərəfindən yoxlanılmış, imzalar üzrə əvvəl aparılmış ekspertizanın nəticəsi bir daha öz təsdiqini tapmışdır.

Həmçinin, Ə.X.Vəliyevin dairə seçki komissiyası üzvlərinin ona qərəzli münasibət və təzyiq göstərdikləri haqqında iddiası da öz təsdiqini tapmamışdır.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə, işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə, namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımı saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı Ə.X.Vəliyevin namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur.

Beləliklə, namizəd Vəliyev Əli Xanəli oğlunun müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 83 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 17/40 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyası tərəfindən namizədliyi 83 saylı Beyləqan seçki dairəsi üzrə irəli sürülmüş Vəliyev Əli Xanəli oğlunun 10 avqust 2024-cü il tarixli 27 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 8 avqust 2024-cü il tarixli 17/40 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.08.2024*

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

◆ Qarabağdan reportaj

## Zəfər seçkisindən parlament seçkisinə

### Xankəndidə seçki hazırlığı davam edir





*Əvvəli 1-ci səh.*

Xankəndidə olarkən hər iki seçki məntəqəsində seçkiyə hazırlıq işlərinin aparıldığını müşahidə etdik. 122 saylı Xankəndi Dairə Seçki Komissiyasının sədri Ağalar Əliyevin sözlərinə görə, seçki məntəqələri Mərkəzi Seçki Komissiyası tərəfindən lazımi avadanlıqlarla, o cümlədən texniki vasitələrlə təmin olunub. Onların fasiləsiz elektrik enerjisi, telefon və internetlə təmin olunması xüsusi diqqət mərkəzindədir.

Onu da öyrəndik ki, məntəqə seçki komissiyalarının sədrlərinin və üzvlərinin maarifləndirilməsi üçün MSK tərəfindən treninqlər keçirilir, seçkilərə hazırlıq və səsvermə günü görüləcək işlər onlara izah edilir. Bu treninqlər komissiya üzvlərinin seçki təcrübəsinin artırılmasında mühüm əhəmyyət kəsb edir. Məntəqə seçki komissiyalarının üzvlərinin müxtəlif partiyaları təmsil etmələri isə respublikamızdakı demokratiyanın göstəricisidir.

Namizədlərə gəldikdə, DSK sədri bildirdi ki, seçki marafonunda 122 saylı Xankəndi seçki dairəsində 7 nəfər Milli Məclisə deputat seçilmək uğrunda mübarizə aparır. Onlardan 2-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb. 5 namizəd isə namizədliyini müstəqil şəkildə verib. Namizədlər artıq təşviqat prosesinə başlayıblar. Onların seçicilərlə görüşü üçün Xankəndi şəhərində açıq və qapalı yerlər müəyyən olunub. Bütün seçki məntəqələrinin qarşısında təşviqat lövhələri quraşdırılıb. Hər bir namizədin təşviqatla məşğul ola bilməsi üçün bərabər imkanlar təmin edilib.




#### Qarabağdakı seçkilər erməni separatizminə son qoyulduğunu dünyaya bəyan edir

Bir vaxtlar 122 saylı seçki dairəsi üzrə seçkilər respublikamızın müxtəlif bölgələrində keçirilirdi. Torpaqlarımızın işğaldan azad edilməsindən və erməni separatizminə son qoyulmasından sonra isə Qarabağ torpaqları aid olduğu dövlətin və xalqın seçkilərinə evsahibliyi edir. Əlbəttə, işğaldan azad edilmiş ərazilərimizə qayıdan vətəndaşlarımızın sayı artdıqca Qarabağ və Şərqi Zəngəzurdakı seçki məntəqələrinin də sayı çoxalacaq.

Bununla bağlı qəzetimizə danışan 122 saylı Xankəndi dairə seçki komissiyasının sədri Ağalar Əliyev bildirdi ki, bir vaxtlar ən böyük arzumuz torpaqlarımızın azad edilməsi idi: "Cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bizi bu arzuya qovuşdurdu. Buna görə mən bir şuşalı kimi, hər zaman dövlətimizin başçısına minnətdar olacağam. Məhz İlham Əliyevin sayəsində biz Qarabağa, Şərqi Zəngəzura qayıtdıq. Bu gün isə dövlətimiz azad edilmiş ərazilərimizi əzmlə qurur, bərpa edir, ona ikinci həyat verir.

Bu baxımdan azadlığa qovuşmuş ərazilərdə keçirilən seçkilər də respublikamızın demokratik inkişafı ilə yanaşı, xalqımızın Vətən müharibəsindəki qələbəsini və Qarabağda erməni separatizminə son qoyulduğunu bütün dünyaya bəyan edir. Bu seçkilərin timsalında dünya Azərbaycanı daha yaxından tanıyır və ermənilərin Qarabağla bağlı iddialarının saxta olduğunu öyrənir".

Həm 122 saylı seçki dairəsindən, həm Xankəndi şəhərindən xoş təəssüratlarla ayrılırıq. Onu da qeyd edək ki, ötən ilin sentyabrında separatçılardan azad edilən Xankəndi Azərbaycan şəhəri kimi özünün tarixi simasını özünə qaytarır. Şəhərdə respublikamızın bütün dövlət orqanlarının fəaliyyəti təmin edilib, mükəmməl xidmət sahələri və infrastruktur yaradılıb.

Xankəndidə seçki məntəqələrindəki müşahidələrimiz burada parlament seçkilərinə hazırlıq işlərinin, bütövlükdə seçki prosesinin Mərkəzi Seçki Komissiyasının Təqvim Planına uyğun davam etdiyini təsdiq edir. Beləliklə, bu seçki bir daha Azərbaycanın demokratik inkişafının təcəssümünə çevriləcək və tarixə ərazi bütövlüyümüzün və suverenliyimizin növbəti təsbiti kimi həkk olunacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Xankəndi-Bakı*

## 47 saylı Sumqayıt-Abşeron-Qaradağ dairə seçki komissiyasında da treninqlərə start verilib

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsində avqustun 12-də məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə start verilib. Üç gün davam edəcək təlimlər seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaq məqsədi daşıyır.



AZƏRTAC xəbər verir ki, gündə iki sessiya olaraq keçirilən üçgünlük treninqlərdə 41 məntəqədən 246 nəfərin iştirakı nəzərdə tutulub.

Təlimlər zamanı MSK tərəfindən hazırlanmış slaydlardan və əyani vəsaitlərdən istifadə edilərək iştirakçılara səsvermə günü məntəqənin açılmasından başlayaraq sonadək zəruri prosedur qaydalar haqqında müfəssəl məlumat verilir. Eyni zamanda səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkili qaydası, seçki günü müşahidəçilərin hüquqları, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və sair məlumatlar da diqqətə çatdırılır.

Sonda iştirakçılara mövzu ilə bağlı "Yaddaş kitabçası" təqdim edilir.

## 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasındakı treninqlərdə 250 nəfərin iştirakı nəzərdə tutulub




Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 12-də 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər keçirilir.

Bu dairə seçki komissiyasında avqustun 15-dək davam edəcək təlimlər seçki komissiyaları üzvlərinin məlumatlılığını, peşəkarlığını artırmaq məqsədi daşıyır.

AZƏRTAC xəbər verir ki, gündə iki sessiya olaraq keçirilən 4 günlük treninqlərdə 42 məntəqədən 250 nəfərin iştirakı nəzərdə tutulub.

Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak edən trenerlər Arif Əhmədov və Sevda Novruzova aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkili qaydası, seçki günü müşahidəçilərin hüquqları, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və sair məlumatlar verilir.

Təlim iştirakçılarına bununla bağlı "Yaddaş kitabçası" təqdim edilir.

Qeyd edək ki, treninqlər 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 36 saylı Xətai - Suraxanı seçki dairələrinin dairə seçki komissiyalarında da təşkil olunub.

Seçkilərə hazırlıq prosesi barədə AZƏRTAC-a açıqlama verən dairə seçki komissiyasının sədri Gülnarə Salmanova bildirib ki, məntəqələrdə seçkilərin demokratik şəraitdə keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. Məntəqələr seçki kabinələri, təşviqat məlumatları, seçici siyahısı lövhələri, seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, Milli Məclisə seçkilərlə bağlı təlimatlarla təmin olunub. Seçki məntəqələrinin 11-də veb-kamera quraşdırılıb.

"Hazırda dairənin əhatə etdiyi seçki məntəqələrinin sayı 42, qeydiyyatda olan seçicilərin sayı isə 51 mindən çoxdur. Seçkilərə beş gün qalmış təşkil ediləcək dörd məntəqəmizdə seçicilərin sayının təxminən 2700-dən artıq olacağı gözlənilir. Dairə üzrə 18 yaşı tamam olmuş 786 seçicimiz var. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 3 və Daxili Qoşunların paytaxtdakı "N" saylı hərbi hissəsində isə 1 məntəqə olmaqla müvəqqəti məntəqələr yaradılacaq", - deyə Gülnarə Salmanova vurğulayıb.

35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasının üzvü Arif Əhmədov isə deyib ki, ümumiyyətlə treninqlər avqustun 12-də, 13-də, 14-də və 15-də olmaqla dörd gün keçiriləcək. Tədbirlərdə 250 nəfər daimi məntəqə üzvünün iştirakı planlaşdırılır. Dairə seçki komissiyamızın üzvləri MSK tərəfindən təyin olunmuş təlimlərə cəlb edilərək proses barədə məlumatlandırılıblar. "Hazırda keçirilən təlimlərdə isə biz də məntəqələrin üzvlərinə seçki prosesi, əsasən məntəqənin açılışı və bağlanması, seçki günü protokolların yazılmaq qaydası, daşınan qutu və digər bütün məsələlər haqqında məlumat veririk. Bu treninqlərdə məntəqə seçki komissiyalarının üzvlərinin, sədrlərinin, katiblərinin seçki günü rol və vəzifələri izah ediləcək, bülletenlərin nümunələrindən, onların təsnifatından, seçki prosesinin Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun aparılması qaydasından və seçki günü müstəsna hallardan danışılacaq", - deyə o əlavə edib.

## 15 saylı Yasamal birinci seçki dairəsi üzrə 509 nəfər ilk dəfə səs verəcək




Dünyada üç cür seçki sistemi var: proporsional, majoritar, hibrid. Azərbaycanda majoritar seçki sistemi tətbiq olunur. Dünyanın 82 ölkəsində tətbiq olunan həmin seçki sistemində namizədlərdən ən çox səs toplayanı seçilir.

Bizi, tarixi Qələbəmizi həzm etməyən bəzi qüvvələr ölkəmizə qarşı qarayaxma ilə məşğul olur, imicimizə xələl gətirməyə cəhd edirlər. Odur ki, seçkilərin şəffaf və demokratik keçirilməsinə nail olmaqla, vətəndaşların seçki hüquqlarının tam təmin edilməsi ilə onların səsləndirdiyi fikirlərin böhtandan başqa bir şey olmadığını hər zaman sübut etmişik, qarşıdan gələn seçki prosesində də sübut etməliyik.

AZƏRTAC xəbər verir ki, bu fikirlər sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar 15 saylı Yasamal birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün keçirilən treninqdə səsləndirilib.

Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunan təlim kursunda iştirak etmiş Adil Yusubov və Kəmalə Davudova tərəfindən keçirilən üçgünlük təlimlərdə 38 məntəqədən 230-a yaxın nümayəndənin iştirakı nəzərdə tutulub. Təlimlər zamanı səsvermə otağının təşkili qaydası, seçki günü məntəqə seçki komissiyalarının sədr, katib və üzvlərinin rol və vəzifələri, səsvermə günü məntəqələrdə kimlərin ola biləcəyi, seçki nəticələrinin elan edilməsi vaxtları, müşahidəçi və media nümayəndələrinin hüquqları və digər məsələlər barədə ətraflı məlumatlar verilir.

15 saylı Yasamal birinci seçki dairəsinin dairə seçki komissiyasının sədri Cumar İsayev AZƏRTAC-a müsahibəsində dairənin tərkibində 38 məntəqə olduğunu və 51 minə yaxın seçicini əhatə etdiyini bildirib. Qeyd olunub ki, seçicilərdən 903-ü 80-100, 603-ü isə 18 yaşlı vətəndaşlardır. İlk dəfə səs verəcək seçicilərin sayı isə 509-a bərabərdir. Sağlamlıq imkanları məhdud vətəndaşların qeydiyyatda olduğu məntəqələrdə onlar üçün pandus quraşdırılıb.

Qeyd edək ki, treninqlər 16 saylı Yasamal ikinci və 17 saylı Yasamal üçüncü seçki dairələrinin dairə seçki komissiyalarında da təşkil olunur.

## Qazaxdakı 109 saylı dairə seçki komissiyasında treninqlər 41 məntəqəni əhatə edir

Növbədənkənar parlament seçkiləri ilə əlaqədar avqustun 12-dən etibarən 109 saylı Qazax seçki dairəsinin dairə seçki komissiyasında da məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlərə başlanılıb. Təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlığının artırılmasıdır.

AZƏRTAC xəbər verir ki, seminarları Mərkəzi Seçki Komissiyasının təlim kursunda iştirak etmiş əməkdaşlar aparırlar. MSK tərəfindən hazırlanan slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və digər məsələlərlə bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilir. Treninqlərdə həmçinin məntəqə seçki komissiyalarının üzvlərini maraqlandıran suallar cavablandırılır.




109 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının sədri Xəyyam Salehov bildirib ki, avqustun 15-dək davam edəcək treninqlər dairənin tərkibindəki bütün məntəqələri əhatə edəcək. "Yəni, məntəqə seçki komissiyasının bütün üzvləri bu seminarda hissə-hissə iştirak edirlər. Burada əsas məqsəd məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsi, sədr, katib, üzvlərin səsvermə günü üzərilərinə düşən vəzifələrin düzgün bölgüsünün aparılması və məntəqə üzvlərinə səsvermə prosesinin Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə izah edilməsidir", - deyə o əlavə edib.

Qeyd edək ki, 109 saylı Qazax seçki dairəsinin tərkibində 41 seçki məntəqəsi fəaliyyət göstərir. Məntəqələrin 10-da veb-kameralar quraşdırılacaq. Dairə üzrə 48 min 34 seçici qeydiyyata alınıb ki, onlardan 348 nəfəri ilk dəfə səs verəcək.

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Seçkilərin şəffaf keçirilməsi üçün bütün şərait yaradılıb

Sentyabrın 1-də ölkəmizdə keçiriləcək növbədənkənar parlament sekiləri yaxınlaşdıqca dairə və məntəqələrdə fəallıq artır. Seçki prosesinin şəffaf və demokratik keçməsi, eləcə də seçicilərin məntəqələrə gələrək sərbəst şəkildə istədikləri namizədə səs vermələri üçün artıq son hazırlıq işləri gedir. Respublikamızın hər yerində olduğu kimi, Tovuzda da seçkilərə hazırlıq mütəşəkkil qaydada davam etdirilir.



Tovuzda 3 dairə seçki komissiyası fəaliyyət göstərir. Onlardan biri - 105 saylı dairə seçki komissiyasının sədri Mahir Həsənovla söhbətdən məlum oldu ki, dairəni əhatə edən 53 seçki məntəqəsində bu siyasi kampaniyanın mütəşəkkil keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Seçkilərin şəffaf və demokratik keçrilməsi üçün 8 məntəqədə veb-kamera quraşdırılmışdır. 600-dən çox yerli müşahidəçi qeydiyyatdan keçmişdir. Dairəni əhatə edən bütün məntəqələr zəruri avadanlıqlarla təmin edilmişdir. Məntəqələrə müxtəlif təlimatlar, müşahidəçilər üçün yaddaş kitabçaları və digər vasitələr çatdırılmışdır. Bundan əlavə, əlillərin rahat səs vermələri üçün bir neçə məntəqədə panduslar quraşdırılmışdır. İlk dəfə səs verəcək gənclərlə görüş keçirilmiş, bu siyasi kampaniyada iştiraklarının vacibliyi onların diqqətinə çatdırılmışdır. Bundan başqa, dairəni əhatə edən seçki məntəqələrində yaşı 100-ü ötmüş 7 nəfər ahıl seçicilərlə də söhbət aparılmışdır.

Rayondakı 106 saylı dairə seçki komissiyasını da əhatə edən məntəqələr növbədənkənar parlament seçkilərinə demək olar ki, tamamilə hazırdır. Dairə seçki komissiyasının sədri Azər Hacıyev bununla bağlı məlumat verərək bildirdi ki, seçkilərə hazırlıq Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatına uyğun aparılır. Namizədlərin hamısına bərabər səviyyədə təbliğat və təşviqat şəraiti yaradılmışdır. Bunun üçün yerlər ayrılmış, insanların sıx olduğu ərazilərdə təşviqat materialları vurulmuşdur.

Söhbət zamanı məlum oldu ki, 106 saylı Tovuz seçki dairəsində 41 məntəqə fəaliyyət göstərir. Seçkiləri izləmək üçün 12 məntəqədə veb-kamera quraşdırılmışdır. Şəffaflığı təmin etmək üçün qeydiyyata alınmış 500 nəfərə yaxın yerli müşahidəçi üçün xüsusi yerlər ayrılmışdır.

Dairə seçki komissiyasının sədri onu da əlavə etdi ki, parlament seçkilərində 407 nəfər ilk dəfə səs verəcək. Onlardan 16 nəfərinin 18 yaşı avqustun 26-da tamam olacaq. 1 nəfərdə yaşı 100-ü keçmiş seçici qeydiyyata alınmışdır. Həmin seçici - Cəlilli kənd sakini Hürü Quliyeva ilə görüşdük. Yaşı bir əsrə bərabər olmasına baxmayaraq, nitqi səlist idi. Hürü nənə dedi ki, ömür boyu çox seçkilərdə iştirak edib. Lakin son 30 ildə müstəqil Azərbaycanda keçirilən seçkilərdəki iştirakı onun üçün unudulmazdır. Sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də fəal iştirak etmək arzusundadır. Nəvələrinə deyib ki, onu seçki günü məntəqəyə aparsınlar. Qoy indiki gənclər görsünlər ki, seçkilərdə iştirak etmək çox vacibdir.

Növbədənkənar parlament seçkilərinə rayonda fəaliyyət göstərən 107 saylı Tovuz-Qazax-Ağstafa dairə seçki komissiyasında da hazırlıq işləri başa çatmaq üzrədir. Seçicilər 53 məntəqədə səs verməlidirlər. Bütün məntəqələrdə seçkilərin şəffaf və demokratik keçməsi üçün lazımi şərait yaradılmışdır. Seçici siyahıları dəqiqləşdirilərək insanların sıx olduqları ərazilərdə asılmışdır. Dairə seçki komissiyasının sədri Fərman Qurbanovla söhbət zamanı məlum oldu ki, 107 saylı dairə seçki komissiyasını əhatə edən məntəqələrdə 1728 nəfər gənc ilk dəfə səs verəcək. 3 nəfər yaşı 100-dən çox olan seçici var.

Dairənin Aşağı Öysüzlü kəndində yerləşən 1 saylı seçki məntəqəsində olduq. Burada seçkilərin izlənməsi üçün veb-kamera quraşdırılmışdır. Məntəqədə 4 nəfər ilk dəfə səs verəcək gənc, 1 nəfər isə yaşı 96-nı keçən ahıl seçicidir.

Ümumiyyətlə, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə Tovuz rayonunda ciddi hazırlıq işləri görülür. Əsas məqsəd isə məntəqələrdə seçkilərin şəffaf və demokratik keçməsini təmin etməkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## 27 saylı Sabunçu ikinci seçki dairəsində seçkilərə hazırlıq işləri uğurla davam edir

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 12-də 27 saylı Sabunçu ikinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb. Avqustun 15-dək davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlığının artırılmasıdır.





AZƏRTAC xəbər verir ki, treninqlərdə 38 məntəqədən 228 nəfərin iştirakı nəzərdə tutulub. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak etmiş Telman Sadıqov və Şəhla Qurbanova aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, səsvermə günü məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və digər məqamlarla bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilir.

Qeyd edək ki, treninqlər 26 saylı birinci, 27 saylı Sabunçu ikinci, 28 saylı Sabunçu üçüncü, 29 saylı Sabunçu seçki dairələrində də keçirilir.

Dairə seçki komissiyasının sədri Nadir Əjdərov AZƏRTAC-a seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını deyib. Bildirib ki, məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, parlament seçkiləri ilə bağlı təlimatlarla təmin olunub. Seçki məntəqələrinin səkkizində veb-kamera quraşdırılıb. Sağlamlıq imkanları məhdud seçicilər də diqqətdən kənarda qalmayıb. Belə ki, həmin vətəndaşlar üçün məntəqələrdə panduslar quraşdırılıb.

"Hazırda dairədəki seçki məntəqələrinin sayı 38-ə, seçicilərin sayı isə 52 min 722 minə bərabərdir. 80-100 yaşlı seçicilərin sayı 788 nəfərdir. Yaşı 100-dən yuxarı bir seçici var. Dairədə seçicilərin 495 nəfəri ilk dəfə səs verəcək. Onlardan 236-sı kişi, 259-u qadındır", - deyə N.Əjdərov qeyd edib.

## Tərtər-Ağdərə-Goranboy seçki dairəsi üzrə aşağı seçki komissiyalarının 354 üzvü treninqlərə cəlb olunub

Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində təşkil edilən treninqlərdə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinin 59 məntəqəsi üzrə ümumilikdə aşağı seçki komissiyalarının 354 üzvünün iştirakı nəzərdə tutulur.



Dairə seçki komissiyasından AZƏRTAC-a bildirilib ki, treninqlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi "Trenerlər üçün treninq" təlim kurslarının iştirakçısı olmuş Zaur Kərimov və Qalib Cavadov tərəfindən aparılır. Gün ərzində iki dəfə olmaqla keçirilən treninqlərdə iştirakçılara slaydların köməyi ilə seçki günü məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir. Treninq zamanı müzakirələr aparılır, iştirakçıları maraqlandıran suallar cavablandırılır. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur. Treninqlər avqustun 17-də başa çatacaq.

Qeyd edək ki, 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsində sentyabrın 1-nə təyin olunan Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər 59 məntəqədə keçiriləcək. Həmin məntəqələrdən ikisi işğaldan azad edilmiş ərazilərdə yerləşir. Dairənin tərkibinə daxil olan 59 seçki məntəqəsi üzrə 49 min 185 seçici qeydə alınıb. Onlardan 413 nəfəri ilk dəfə olaraq seçki hüququndan istifadə edəcək gənclərdir. Seçicilərin 1116 nəfəri 80-100 yaş arasındadır, 7 seçicinin yaşı isə 100-dən yuxarıdır.

## Treninqlər Ağdamda 800-dən çox aşağı seçki komissiyası üzvünü əhatə edir

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə respublikamızın hər yerində olduğu kimi, Ağdam rayonunda da start verilib.





AZƏRTAC xəbər verir ki, 118 saylı Ağdam-Xocalı və 119 saylı Ağdam seçki dairələrinin 118 məntəqəsi üzrə treninqlərdə ümumilikdə 846 aşağı seçki komissiyası üzvünün iştirakı nəzərdə tutulur. Məşğələlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi treninqlərdə iştirak etmiş trenerlər tərəfindən aparılır. Treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir.

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumat əldə edirlər. Məşğələlər zamanı müxtəlif mövzular geniş müzakirə olunur və yaranan suallar cavablandırılır. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim edilir.

## 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasında treninqlərə başlanılıb





Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə seçkilər ilə əlaqədar avqustun 12-də 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb.

AZƏRTAC xəbər verir ki, treninqdə çıxış edən 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasının sədri Niyazi Nəcəfov Milli Məclisə seçkilərdə şəffaflığın və aşkarlığın təminatı üçün məntəqə seçki komissiyalarında hər cür şəraitin yaradıldığını, onların zəruri avadanlıqlarla təchiz olunduğunu söyləyib.

O bildirib ki, təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri ilə bağlı məlumatlar verilib.

Niyazi Nəcəfov seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını deyib. Bildirib ki, sağlamlıq imkanları məhdud seçicilər üçün məntəqələrdə panduslar quraşdırılıb. N.Nəcəfov Milli Məclisə seçkilərdə namizədlərin sayının 10 nəfər, dairədəki seçki məntəqələrinin sayının 36, seçicilərin sayının 49 min 24 nəfər olduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, ilk dəfə səs verənlərin sayı isə 385 nəfərdir.

Dairə seçki komissiyasının sədri həmçinin 299 müşahidəçinin qeydiyyatdan keçdiyini, məşvərətçilərin sayının isə 37 nəfər olduğunu qeyd edib.

## Aşağı seçki komissiyalarının üzvləri səsvermə günü prosedurları barədə maarifləndirilir

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərə hazırlıqla əlaqədar avqustun 12-də ölkənin şimal-qərb bölgəsində yerləşən rayonların seçki dairələrinin dairə seçki komissiyalarında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər başlayıb. Treninqlər aşağı seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsini artırmaq məqsədi daşıyır.



AZƏRTAC xəbər verir ki, 113 saylı Qax-Şəki seçki dairəsinin dairə seçki komissiyasında keçirilən və bir həftə davam edəcək treninqlərdə dairənin tərkibinə daxil olan 73 seçki məntəqəsindən 438 nəfər komissiya üzvünün iştirakı nəzərdə tutulur. Məşğələləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunan təlim kursunda iştirak etmiş Qoşqar Paşayev və Coşqun Mirzəbəyov aparırlar.

Treninqlərin ilk günü keçirilən məşğələlərdə dairənin 12 seçki məntəqəsindən 72 nəfər komissiya üzvü iştirak edir. MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosedurları, səsvermə məntəqəsinin açılması, seçki materialları və avadanlığının, seçki qutularının hazırlanması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, daşınan seçki qutusu ilə səsvermə prosesi, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilib. Dairə seçki komissiyasının katibi İlqar Əhmədovun verdiyi məlumata görə, 113 saylı Qax-Şəki seçki dairəsi üzrə 10 namizəd qeydə alınıb. Onlardan biri siyasi partiyanı təmsil edir. Doqquz nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə indiyədək 520 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib. Dairənin tərkibinə daxil olan 73 seçki məntəqəsinin 60-ı Qaxda, 13-ü isə Şəki rayonunda yerləşir.

Avqustun 12-də 110 saylı Balakən seçki dairəsində də aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib. Dairə seçki komissiyasının sədri Vahid Əliyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, 4 gün davam edəcək treninqlərdə dairənin tərkibinə daxil olan 44 seçki məntəqəsinin 264 nəfər komissiya üzvü iştirak edəcək. Məşğələlər MSK tərəfindən təşkil olunan treninq kursunda iştirak etmiş Valeh Ocaqverdiyev və Rəcəb Ustayev tərəfindən aparılır. Dairə üzrə namizədliyi qeydə alınan 8 nəfərdən biri siyasi partiyanı təmsil edir. Yeddi nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb.

117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsində də treninqlər MSK tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır. Dairə seçki komissiyasının sədri Rəsul Cəfərovun verdiyi məlumata görə, altı gün davam edəcək treninqlərə dairənin tərkibinə daxil olan 64 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb olunublar. Məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Aşağı seçki komissiyaları üçün treninqlər şimal-qərb bölgəsində fəaliyyət göstərən 111 saylı Zaqatala-Balakən, 112 saylı Zaqatala, 114 saylı Şəki şəhər, 115 saylı Şəki kənd və 116 saylı Qəbələ seçki dairələrində də davam edir.




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



# Paytaxtın "yaşıl ada"sı

## Sirli quyu, neft milyonçusundan qalan ev, 10 mindən çox bitki...

◆ Bakı COP29-a hazırlaşır

**COP29 ərəfəsində paytaxt Bakıda abadlıq işləri böyük vüsət alıb. Görülən geniş yaşıllaşdırma işləri həm də paytaxtın "yaşıl ünvan"larının sayını artırmaqdadır.**









































Artıq Bakının hər tərəfində, xüsusən yaşayış massivləri ərazilərində sakinlərin istirahəti, asudə vaxtlarını səmərəli keçirməsi üçün yeni parklar salınır, əvvəlkilər isə bərpa olunaraq müasirləşən Bakıya uyğun yeni görkəm alır. Belə məkanlardan biri də Xəzər rayonunun Mərdəkan qəsəbəsində şəhərdən 40 kilometr, dəniz sahilindən isə 3,2 kilometr məsafədə yerləşən və Bakının "yaşıl ünvan"larından sayılan 12 hektara yaxın əraziyə malik Dendrologiya Bağıdır...

1895-1920-ci illərdə neft milyonçusu, xeyriyyəçi Murtuza Muxtarovun şəxsi bağı olan bu ərazi 1925-ci ildə dövlət mülkiyyətinə keçərək müxtəlif illərdə Ümumittifaq Tətbiqi Botanika İnstitutunun təcrübə bazası, Ümumittifaq Bitkiçilik İnstitutu, Subtropik bitkilərin təcrübə stansiyası, E.T.Bağçılıq, Üzümçülük və Subtropik bitkilər İnstitutunun təcrübə bazası kimi və Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərib. 1966-1996-cı illərdə Azərbaycan Elmlər Akademiyası Nəbatat İnstitutunun elmi strukturuna daxil edilib. 1996-cı ildən isə Mərdəkan Dendrarisi Biologiya Elmləri bölməsinə tabe edilərək hüquqi status qazanıb. 2014-cü ildən Dendrologiya İnstitutu adına layiq görülən müəssisə Nazirlər Kabinetinin 7 yanvar 2022-ci il tarixli qərarı ilə "Dendrologiya Bağı" Publik Hüquqi Şəxsə çevrilib.

Hazırda bağda böyük bərpa-quruculuq işləri həyata keçrilir. Biz də yolumuzu oradan salıb yenilənən, müasirləşən bu məkanla yaxından tanış olduq.

### 700-dən artıq növü əhatə edən 10 mindən çox bitki

Bağa daxil olanda ərazidə böyük bərpa-quruculuq işlərinin getdiyinin şahidi olduq. Əsaslı təmir-bərpa işləri Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində həyata keçirilir.

Ərazini gəzərkən görülən işlər haqqında bizə məlumat verən Dendrologiya Bağının İdarə Heyətinin sədr müavini, sədr vəzifəsini müvəqqəti icra edən Samirə Bağırova qeyd edir ki, bağın ərazisində 2022-ci ildən tikinti-bərpa, abadlıq işlərinə başlanılıb. Ərazidə olan Murtuza Muxtarovun, Sergey Yeseninin ev-muzeyləri, 4 qədim quyu, oranjereya və hovuzlar bərpa olunur.

Ərazidə əvvəlkindən fərqli olaraq yeni piyada yollarının çəkildiyinin də şahidi oluruq. Sədr müavini deyir ki, yeni yollar ziyarətçilərin gediş-gəlişinin rahatlığını təmin edəcək: "Aparılan tikinti-bərpa işləri bitkilərə zərər yetirmədən həyata keçirilir. Hazırda Dendrologiya Bağında 700-dən çox növü əhatə edən 10 mindən çox bitki var. Onların arasında nadir, nəsli kəsilməkdə olan ağac, oranjereya, ot, güllər var. Bağ elmi-tədqiqat institutudur, eyni zamanda respublikamızda bitki genefondunun artırılması, qorunması işini həyata keçirir".

S.Bağırova qeyd edir ki, dünyanın bir çox ölkəsindən gətirilən ağac və kol bitkilərinin bioloji xüsusiyyətlərini öyrənməklə yanaşı, quru subtropik iqlimə malik olan Abşeron yarımadasına uyğunlaşdırılması, introduksiyası və floranın zənginləşməsində onlardan istifadə başlıca məsələlərdir.

Eyni zamanda Dendrologiya Bağında yaşlı ağacları kəsmədən, onlara heç bir zərər yetirmədən müvafiq laboratoriyada bu bitkilərin yaşı müəyyən edilir. S.Bağırovanın sözlərinə görə, hazırda respublikada olan bütün yaşlı ağacların elektron bazasının yaradılması istiqamətində də işlər gedir. Bağda yaşı 130-dan çox olan Eldar şamı, 170 yaşlı Hələb şamı ağacları var. Ehtimal olunur ki, bu ağaclar Murtuza Muxtarovun zamanında bağ salınarkən əkilib.

### Ziyarətçilər üçün piknik əraziləri də yaradılacaq

Bağın ərazisini gəzdikcə yeni bitkilərin əkildiyini də müşahidə etdik. Yaşıllaşdırma işləri ilə ələqədar bağa yeni növ bitkilər gətirilib və bu proses tikinti işləri başa çatdıqdan sonra daha da genişləndiriləcək.

Eyni zamanda bağın xarici ölkələrin botanika bağları ilə əməkdaşlığı sayəsində bitki toxumları gətirilərək oranjereyada əkilir, onların mühitə uyğunluğu təmin olunduqdan sonra açıq əraziyə köçürülür. Hazırda bağda yeni oranjereyalar da tikilir. Bağ ərazisində qəzalı vəziyyətdə olan üçmərtəbəli inzibati binada təmir işlərinin qısa vaxtda yekunlaşacağı gözlənilir. İstixanalar da yeniləri ilə əvəzlənəcək. Bu istiqamətdə də işlər sürətlə davam edir.

Giriş hissədə yeni fəvvarənin yaradılması, ərazidəki dairəvi və dördbucaqlı su hovuzlarının əsaslı təmiri və bərpası, ərazi boyunca uzanan hasarın yenidənqurulması işləri aparılır. Həmçinin bağın bütün ərazisinin abadlaşdırılması, müasir işıqlandırma sisteminin quraşdırılması, piyada yollarının çəkilməsi işləri də davam etdirilir. Təbii ki, yaşıllıq, təmiz havaya malik ərazidə istirahət edəcək balacalar da unudulmayıb. Bağda inzibati binanın yaxınlığında uşaq əyləncə meydançası da salınır. Söhbətgahlar və ziyarətçilər üçün piknik əraziləri də yaradılacaq.

Ümumilikdə bağda tikinti-bərpa işlərinin ilin sonunda, Murtuza Muxtarovun ev-muzeyinin restavrasiyasının isə növbəti il bitəcəyi gözlənilir.

### Dərin quyudan ayrılan sirli yollar

Hər bir yerli turist üçün cəlbedici olan bu ərazinin müasirliyi, şəraitinin yüksək səviyyədə olması ilə yanaşı, həm də keçmişlə vəhdət təşkil etməsi diqqət çəkir. Dendroloji bağda da tarixiliyin qorunub saxlanılması əsas vəzifələrdəndir.

Belə ki, bağın əsasını qoyan mesenat Murtuza Muxtarovun evinin muzey kimi fəaliyyəti Dendrologiya Bağını daha da xüsusiləşdirir. Hazırda evdə restavrasiya işləri davam edir. Eyni zamanda M.Muxtarovun bağ ərazisində qazdırdığı quyular və xanımı üçün tikdirdiyi hovuz da bərpa olunub, hazırda müəyyən tamamlanma işləri görülür. Hovuzu aşağıdan görmək mümkün deyil. Böyük qalaya bənzəyən hovuzu görmək üçün pillələnlərlə yuxarı qalxmaq lazımdır.

Bağda tarixi bəlli olmayan 4 quyu var ki, onlar da restavrasiya üçün hasarlandığından yaxınına gedə bilmədik. Onlardan ən maraqlısı isə dərinliyi 30 metrə qədər olan və içindən müxtəlif istiqamətlərə yollar ayrılan sirli quyudur. Amma bu qaranlıq yolların harada sonlandığı barədə hələ də dəqiq məlumat yoxdur. Deyilənlərə görə, yolun biri Şəmsi Əsədullayevin yaxınlığında yerləşən bağ evinə, digəri M.Muxtarovun xanımı üçün tikdirdiyi evə, başqa birisi isə Xəzər dənizinə qədər uzanırmış. Sahibkarın evinin yaxınlığında yerləşən digər quyudan isə sərinlik baxımından məhsulların saxlanılması üçün istifadə olunurmuş.

Onu da bildirək ki, hazırda quyularda su var, hətta bağın suvarılmasında istifadə olunur.

Bağın ərazisində yerləşən rus şairi Sergey Yeseninin ev-muzeyi də bərpa olunur. Muzey 1975-ci ildə Yeseninin anadan olmasının 80 illiyi münasibətilə fəaliyyətə başlayıb.

Bağda ayrılmış xüsusi ərazidə heyvanlara da rast gəldik. Müxtəlif növ heyvanlar bu yaşıllığa xüsusi gözəllik qatmaqla turistlərin də marağına səbəb olacaq.

*Dendrologiya Bağında görülən işlər Bakının "yaşıl ünvan"larından birinə çevrilməsi ilə yanaşı, COP29-a hazırlığa da mühüm töhfədir.*

*Bizim isə bol oksigen qəbul edərək şəhərin səs-küyündən kənarda keçirdiyimiz vaxtımız başa çatır. Bakının növbəti "yaşıl ünvanı" ilə görüşmək ümidi ilə Dendrologiya Bağından ayrılırıq...*

**Əsmər QARDAŞXANOVA,**
**İlham BABAYEV (foto),**
**"Azərbaycan"**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Prezident İlham ƏLİYEV:

# "Azərbaycan nefti insan kapitalına çevirə bildi"

## İndi isə yurdumuzu başdan-başa "yaşıl ölkə"yə çeviririk

Hazırda dünyanın müxtəlif yerlərindən olan bəzi dairələr neftlə və qazla zəngin ölkələrin üstünə "hücum çəkirlər" ki, atmosferi çirkləndirən, ekologiyanı korlayan sizsiniz. Azərbaycan da karbohidrogen ehtiyatları bol olan, onları hasil və ixrac edən ölkələr sırasında dayandığı üçün Prezident İlham Əliyev bir sıra mötəbər tədbirlərdə həmin dairələrə tutarlı cavab vermişdir.

Əvvəla, neft və qaz ehtiyatlarına sahib olduğu üçün hər hansı bir ölkəni heç kəs səbəbsiz günahlandıra bilməz. Çünki əsas məsələ onlardan necə istifadə etməkdir. Ölkəmizdən söz gedərsə, deməliyik ki, bizdə bu sərvət müxtəlif vasitələrlə cəmiyyətə yönəldilib, inklüziv cəmiyyət qurulub, yoxsulluq 50 faizdən 5 faizə endirilib. Xarici borc təxminən 100 faizdən 7,7 faizə düşüb. Üstəlik də enerji keçidi məsələsində irəlidəyik, "yaşıl gündəliyimiz" artıq hamıya bəllidir.

Son illər ərzində Azərbaycan neft kapitalını insan kapitalına çevirə bildi. O cümlədən vaxtilə erməni vandalları tərəfindən yurd-yuvasından didərgin salınmış minlərlə soydaşımıza sahib çıxan dövlətimiz neftdən əldə olunan gəlirlərlə ilk növbədə onlar üçün 100-dən çox qəsəbələr tikdirdi. Bircə çadır şəhərciyi belə qalmadı. Oğuz, Qəbələ bölgələrindən paytaxtacan su kəməri çəkdi, Abşeron yarımadasının sakinlərini əsl bulaq suyu ilə təmin etdi. Neçə-neçə azərbaycanlı gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsilini dəstəklədi. Yeni yollar çəkdi, körpülər saldı...

"Əsrin müqaviləsi" neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsinə imkan verdi. Kənd təsərrüfatı, unudulmuş, tənəzzülə uğramış digər sahələr dirçəldildi.



"Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox Olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır". Prezidentimiz bu sözləri yeddi il əvvəl, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi üzrə sazişin müddəti 2050-ci ilin əvvəlinədək uzadılarkən - "Yeni əsrin müqaviləsi" imzalanarkən deyib. Ondan sonrakı nailiyyətlərimizi isə saymaqla bitməz.

Ən başlıcası, Azərbaycan 30 illik işğala son qoyub, düşməni qovaraq əzəli-əbədi torpaqlarına qayıdıb. Belə ki, neftdən əldə olunan gəlirlər o cümlədən Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Prezident İlham Əliyevin bu barədə dediklərinə də diqqət yetirək: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Görək "Əsrin müqaviləsi"nin gətirdiyi misilsiz bəhrələri mütəxəssis necə dəyərləndirir? BP-nin Xəzər regionunda xarici işlər və kommunikasiyalar üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli yazır: "Bu müqavilə dünyanın əsasən bütün iri neft və qaz şirkətlərinin iştirakı ilə bağlanmış 30-dan çox digər hasilatın pay bölgüsü sazişinin imzalanmasına yol açdı. Güclü və davamlı şəkildə artan iqtisadiyyatın yaranmasına töhfə verdi. Azərbaycan dövləti üçün bu iqtisadi artımı dəstəkləyən yeni əhəmiyyətli gəlir mənbəyi təmin etdi. Ölkənin beynəlxalq aləmlə qurduğu yeni ticarət əlaqələrinə əhəmiyyətli dəstək göstərdi. Dünya səviyyəli dəniz karbohidrogen hasilatı sektorunu yenidən dirçəltdi və quruda da etibarlı, təhlükəsiz və ətraf mühitə təsiri minimum olan neft ixrac sisteminin - Xəzər neftini birbaşa dünya bazarlarına nəql edən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin yaradılmasına imkan verdi. Xəzərin sahillərində dünyanın ən müasir neft və qaz emalı obyektlərindən birini yaratdı. Nəhəng "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi layihəsinin uğurla həyata keçirilməsinə investorlarda inam yaratdı ki, bunun nəticəsində Xəzərin tarixində ilk dəfə olaraq Azərbaycan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya ərazilərindən keçərək İtaliyaya qədər uzanan nəhəng qaz dəyər zənciri vasitəsilə birbaşa Avropa bazarlarına nəql edildi. Dünya səviyyəli istehsal, təlim və təhsil obyektlərinin yaradılmasına imkan verdi və ümumilikdə ölkədə peşə və bacarıq bazasını gücləndirdi. Rəqabətqabiliyyətli yerli təchizat zəncirinin formalaşmasını stimullaşdırdı. Yüksək təhsilli yerli mühəndislərin və dünya səviyyəli digər peşəkar kadrların yetişməsinə imkan yaratdı. Yerli tikinti sektorunda on minlərlə iş yeri açdı. Bacarıqların inkişafı, infrastruktur, təhsil və gəlirli biznes imkanları yaratmaqla yüzlərlə kənd icmasının davamlı inkişafına dəstək verdi".

BP-dən (AÇG-nin əməliyyatçısı) söz düşmüşkən: "Əsrin müqaviləsi"ndən başlayaraq Azərbaycan möhkəm, etibarlı əməkdaşlıq və tərəfdaşlıq platforması yaratdı. Prezidentimizin dediyi kimi: "Azərbaycan aparıcı xarici neft, enerji şirkətləri ilə çox uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatı yaratmışdır. Bu, bizə böyük faydalar gətirib. Əlbəttə ki, xarici tərəfdaşlar da bu layihənin icrası nəticəsində böyük mənfəət əldə ediblər. Bu, o hadisələrdəndir ki, burada hər iki tərəf qalib gəlir".

20-ci əsrin 94-cü ilində imzalanmış "Əsrin müqaviləsi"nin 21-ci əsrin ortasınadək uzadılması göstərir ki, bu, Ulu Öndər Heydər Əliyev dühası ilə həqiqətən də yüzilliklərə hesablanmış bir layihədir. İndi biz bu ilin aprelindən həm də "Yeni əsrin müqaviləsi" çərçivəsində neft çıxarır və gəlir əldə edirik. AÇG-nin bir "vədi" də var. Yaxın zamanlarda dərin laylarından qaz da verəcək.

Ümumilikdə isə Azərbaycanın qaz ehtiyatları çox zəngindir. Ən azı 100 il özümüzə də, bir sıra digər ölkələrə də yetər. Prezidentimiz çox gözəl ifadə edib ki, bütün bunlar bizə Allahın bəxşişidir.

Dövlətimiz də, xalqımız da bu nemətin qədrini yaxşı bilir. Biz yenə də tikib qururuq. Vəhşi düşmənin caynağından azad etdiyimiz Qarabağımızda, Şərqi Zəngəzurumuzda şəhərlərimizi, kəndlərimizi yenidən abad məkana, yamyaşıl bağa, hətta "yaşıl enerji" zonasına çeviririk. Buna bir kimsənin sözü, iradı ola bilməz!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Paytaxtın sənaye müəssisələrinin anbarlarında 512 milyon manatlıq hazır məhsul ehtiyatı yaranıb

**Cari ilin yanvar-iyun aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz azalaraq 26,3 milyard manat təşkil edib.**

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinə istinadla xəbər verir ki, sənaye məhsulunun 76,4 faizi mədənçıxarma, 20,5 faizi emal, 2,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Sənayedə qeyri-dövlət sektorunun payı 83,3 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 90,2 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 9,8 faiz təşkil edib.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 iyul 2024-cü il vəziyyətinə 512 milyon manatlıq hazır məhsul ehtiyatı olub.

Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 40,8 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 20,1 milyard manat olmaqla əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,9 faiz azalıb.

Bu ilin yanvar-iyun aylarında sahənin əsas məhsulu olan xam neftin (qaz kondensatı daxil olmaqla) əmtəəlik hasilatı 14,2 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 19,1 milyard kubmetr təşkil edib. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz azalıb, qaz hasilatı isə 5,3 faiz artıb.

## AFAQ və "Şəhərdən Kəndə" layihələri tərəfindən dəstək tədbirləri həyata keçirilib

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "PAŞA Holding"in dəstəyi ilə həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) və "Şəhərdən Kəndə" layihələri çərçivəsində kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qadın fermerlərə dəstək göstərilib.**

Növbəti dəstək AFAQ layihəsi çərçivəsində İsmayıllı rayonunda kənd təsərrüfatı ilə məşğul olan 9 fermerə göstərilib. Topçu kəndində fəaliyyət göstərən qadın fermerlərin müraciətləri əsasında təsərrüfatlara baxış keçirilib, qiymətləndirmə sorğuları aparılıb, həmçinin onlara fəaliyyət sahələrinə uyğun təlimlər keçirilib.

Həmçinin layihə çərçivəsində İsmayıllı rayonunun Kürdmaşı kəndində Solmaz Bağırlının rəhbərlik etdiyi qadın qrupuna məxsus quşçuluq təsərrüfatında istehsal həcminin artırılmasına dəstək məqsədilə 96 kv.m-lik hin tikilib, təsərrüfat 30 ədəd su qabı və 30 ədəd yem qabı ilə təmin olunub.

Bundan başqa, "Şəhərdən Kəndə" layihəsi çərçivəsində Sumağallı kəndində "Arzu" qadın qrupuna məxsus təsərrüfata baxış keçirilib. Fermerlərin fəaliyyətlərinin çoxşaxəli olması və kəndin turizm üçün əlverişliliyi nəzərə alınaraq təsərrüfatın aqroturizm potensialı dəyərləndirilib.

## Nəqliyyatın hərəkəti tam məhdudlaşdırılacaq

Bu gün saat 08:00-dan etibarən Bakı şəhərinin Nəsimi rayonu, 28 May küçəsində (K.Səfərəliyeva küçəsindən Puşkin küçəsinədək) aparılacaq təmir işləri ilə əlaqədar avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq. Bu barədə AZƏRTAC-a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib.

Məlumata əsasən, növbəti mərhələdə təmir işləri Puşkin küçəsindən R.Behbudov küçəsinədək olan hissə üzrə aparılacaq.

Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan müddət ərzində hərəkət istiqamətlərinə uyğun alternativ yollardan istifadə etmələri xahiş olunur.

## Neft bahalaşıb

Dünya birjalarında neft bahalaşıb. AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,2 dollar artaraq 79,86 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,34 dollar artaraq 77,18 dollar təşkil edib.

# İnam, etibar və etimad bəslənilən ünvan

**Vaxt var idi ki, insanlar xırda bir iş üçün bürokratik əngəllərlə rastlaşır, adi bir sənəd almaq üçün saatlarla, bəzən də günlərlə gözləməli olurdular. Xüsusilə də sosial xidmət sahəsində mövcud olan məsələlərin həllində bu iş əməllicə gərginləşir, əsəblər tarıma çəkilirdi. Demək olar ki, insanların məmnunluğu təmin edilmirdi. Nəhayət, Prezident İlham Əliyev buna son qoydu.**

Dövlət başçısının fərmanı ilə 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi yaradıldı. İndi DOST bu sahədə qarşıya qoyulan tələblərə cavab verərək nümunəviliyi ilə seçilir. Agentliyin yaradılmasında məqsəd əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılmasıdır. DOST innovasiyanın tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınmasına görə də üstünlüyünü qoruyur. Demək olar ki, qeyd olunan neqativlər tamamilə unudulub, bu gün DOST əhalinin ən gözəl və ən yaxın dostudur.

Çəkinmədən deyə bilərik ki, "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilən DOST mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. Azərbaycan sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə bu sahədə də öz sözünü deyib. Prezident İlham Əliyev DOST konsepsiyasını yüksək qiymətləndirərək deyib: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan 7 DOST mərkəzi 6 ildir fəaliyyət göstərir. Bu mərkəz əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial müdafiə və sosial təminat sahələrinə dair 15 istiqamət üzrə 160 sosial xidmətin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasını təmin edir. DOST Mərkəzindən verilən xəbərə görə, bu qurum il ərzində 120 minə yaxın vətəndaşa xidmət göstərmək potensialına malikdir. Buraya məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət və sosial-pedaqoji xidmətlər daxildir.

Ötən dövrdə 2,8 milyondan çox vətəndaşa xidmət göstərilib. Xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,2 faiz təşkil edir. "DOST Çağrı Mərkəzi 142" tərəfindən isə ötən dövr ərzində 6 milyona yaxın vətəndaş müraciəti cavablandırılıb. Bu o deməkdir ki, hər il 1 milyon Azərbaycan vətəndaşı DOST-a üz tutub, ondan məmnun qalıb.




Hər bir vətəndaşa təmənnasız xidmət göstərən DOST-da xidmətlərin sayı ilbəil artır. Prezident İlham Əliyevin 16 iyul 2024-cü il tarixli fərmanı ilə vahid əlaqələndirmə mərkəzlərində (VƏM) göstərilən xidmətlərin siyahısına yeni xidmət əlavə edilib. Bu, "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu" xidmətidir. Məlumat üçün bildirək ki, VƏM 2021-ci ilin avqustundan fəaliyyət göstərir. İlk vaxtlar burada 7 qurum tərəfindən ümumilikdə 26 xidmət göstərilirdi. VƏM-in xidmət göstərəcəyi insanlar isə əsasən şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslərdir. Mərkəzin yaradılmasında məqsəd bu şəxslərin əlavə xərclərinin və vaxt itkisinin qarşısını almaq, onlara göstərilən xidmət səviyyəsini yüksəltmək, xidmətlərin əlçatanlığını, rahatlığını təmin etmək, vətəndaş məmnunluğunu və şəffaflığı təmin etmək, həmçinin korrupsiyaya qarşı mübarizəni gücləndirməkdir.

Sevindirici haldır ki, Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində isə Qarabağ Regional DOST Mərkəzinin filialı istifadəyə verilib. 2023-cü il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdə şəhərində açılışı olan Qarabağ Regional DOST Mərkəzi Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xocavənd rayonları və Xankəndi şəhərinin sakinlərinə xidmət göstərir. Bir ildir fəaliyyət göstərən Qarabağ Regional DOST Mərkəzi gün ərzində təxminən 650-700 vətəndaş qəbul edə bilir. Bu prosesi 51 nəfərdən ibarət işçi heyəti və 27 nəfər könüllü həyata keçirir.

DOST infrastrukturunun genişləndirilməsi işləri davam edir. Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Nəticədə ümumilikdə 17 regional DOST Mərkəzi və 55 rayon filialı fəaliyyət göstərəcək və bütün ölkə DOST xidmətləri ilə əhatə olunacaq. Nə gözəl! Daha gözəl olan bir nüans da var: hazırda bir çox ölkə DOST modelini və təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin daxili siyasətinin prioritet istiqamətlərindən biri onun sosial siyasətidir. Sosial siyasət əhalinin ayrı-ayrı qruplarının həyat səviyyəsinin yüksəldilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn tədbirlər sistemidir. Bu siyasət özünü sosial proqramlarda və əhalinin cəmiyyətdəki münasibətlərinin tənzimlənməsində göstərir.

DOST hər kəsə dost münasibəti sərgiləyir. Bura əhalinin inam, etibar və etimad bəslədiyi ünvandır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Bakıda muzdla çalışan işçilərin sayı 957 minə yaxınlaşır

Cari il iyun ayının 1-i vəziyyətinə Bakı şəhəri üzrə muzdla çalışan işçilərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 51 min 459 nəfər artaraq 956 min 926, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 409 min 414 nəfər, qeyri-dövlət sektorunda isə 547 min 512 nəfər təşkil edib.



AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinə istinadla xəbər verir ki, bu ilin yanvar-may aylarının ilkin məlumatlarına əsasən, əvvəlki ilə nisbətən işçilərin orta aylıq nominal əməkhaqqı 8,3 faiz artaraq 1272,3 manat olub. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 1202,9 manat, özəl müəssisələrdə isə 1325,9 manat təşkil edib.






# Gənclik






● Gələcəyə dəstək

## Uğurların fövqündə dayanan Azərbaycan gəncliyi

**1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınmışdır.**



Odur ki, bu tarixi gün dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də böyük coşqu ilə qeyd olundu. XXIII Paris Yay Olimpiya Oyunlarından uğurla qayıdan güləşçilərimizin, boksçularımızın, gimnastlarımızın nailiyyətləri bu bayramı daha əlamətdar etdi. Xatırladaq ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Gimnastika Federasiyasını təmsil edən bədii gimnastika üzrə qrup hərəkətləri komandası bir sıra ölkələrin idmançılarını qabaqlayaraq tarixi nəticəyə imza atıblar. Parlaq qələbə münasibətilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva sosial şəbəkə hesablarında gəncləri təbrik edib.

Beynəlxalq Gənclər Gününə həsr olunmuş tədbirlərdə deyildiyi kimi, Azərbaycan gəncliyi tarixin bütün dövrlərində cəmiyyətin həyatında mühüm rol oynamışdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlət gənclər siyasətinin milli hüquqi-qanunvericilik bazası formalaşmağa başladı. Ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında gənclərin tədricən fəal iştirakının təmin olunması üçün münbit şərait yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi, 1995-ci ildə isə Gənclər Təşkilatlarının Milli Şurası yaradılmışdır. Ölkə gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemin həllində rolunu artırmaq və məsuliyyətini yüksəltmək məqsədilə Ulu Öndər Heydər Əliyev 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüş və 2 fevral 1996-cı ildə gənclərin I Forumu baş tutmuşdu. Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, həmin tarix Azərbaycan Gəncləri Günü elan edilmişdir.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də gənclərə xüsusi önəm verir. Ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Prezidentin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı təsdiq edilmiş, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu yaradılmışdır. Respublikamızda olimpiya idman komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Prezident İlham Əliyev gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Məqsəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləməkdir.

Dövlət başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli sərəncamına əsasən, ölkəmizin şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması, habelə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədilə Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması işi uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Görünən odur ki, gənclərimiz ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar.

Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, sosial həyatın bütün sferalarında onlar çoxluq təşkil edirlər. Dövlət qayğısını öz üzərlərində hiss edən gənclərimiz nailiyyətləri ilə onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Azərbaycan Prezidenti çıxışlarının birində demişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu yüksək münasibətə cavab olaraq uğurların fövqündə dayanan müasir Azərbaycan gəncliyi bundan sonra da Prezident İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləməklə ölkəmizin inkişafına öz töhfələrini verəcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Ölməzliyə qovuşanlar

## Vətənə sevgi nümunəsi

Azərbaycanın 1990-cı illərdə Ermənistan tərəfindən işğal edilən iyirmi faiz ərazilərini azadlığa qovuşduran qəhrəman övladlarının sırasında dayandı. Ömrünü baharında vətənə fəda edən igidlərdən biri oldu Əmrah Əkbərov…



İkinci Qarabağ müharibəsi başlayanda iyirmi iki yaşındaydı Əmrah. O, 1998-ci il fevralın 21-də Lerik rayonunun Livədirqə kəndində dünyaya gəlmişdi. 2004-cü ildə Əmrah Əkbərov Livədirqə kənd orta məktəbinin birinci sinfinə getdi. Təhsilini 2005-ci ildən Bakı şəhərinin Xəzər rayonunda yerləşən 322 saylı tam orta məktəbdə davam etdirdi.

Hərbçi olmaq istəyi 2013-cü ildə Əmrah Əkbərovu Cəmşid Naxçıvanski adına hərbi liseyə apardı. 2016-cı ildə liseyi bitirən Əmrah daha bir arzusunu həyata keçirdi. Elə həmin il Heydər Əliyev adına Ali Hərbi Məktəbə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldu. Ali təhsil aldığı illərdə məqsədinə doğru inamla, əzmkarlıqla irəliləyirdi. Böyük maraqla hərb sənətinin sirlərini öyrənirdi. 2018-ci il iyunun 26-da, Azərbaycan Ordusunun yarandığı gün "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olundu. Layiq görüldüyü mükafat Əmraha sonsuz sevinc bəxş etməklə yanaşı, oxuyub öyrənməyə daha da həvəsləndirdi. Hərbi bacarığını təkmilləşdirməyə səy göstərdi. O, 2020-ci ildə məktəbi bitirib Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində leytenant rütbəsi alaraq, baş kəşfiyyatçı kimi xidmətə başladı.

Azərbaycanın ürəyi Vətən sevgisi ilə döyünən övladları əzəli ərazilərimizdən olan Qarabağ və Şərqi Zəngəzuru heç zaman Ermənistan silahlı qüvvələrinin işğalında qalmağa qoymayacaqdılar. Ermənistan həmin torpaqları otuz ilə yaxın idi ki, əsarəti altında saxlayırdı. Qəsbkar ölkənin silahlı qüvvələri Qarabağda, Şərqi Zəngəzurdu səngərlər qazır, istehkamlar qururdular. Həmin illərdə Azərbaycan dövləti münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərirdi. Torpaqlarımızın bir qarışını da güzəştə getməyəcəyimiz bəlli idi. Prezident İlham Əliyev istər ölkə daxilində, istərsə də beynəlxalq müstəvidə keçirilən tədbirlərdə hər zaman Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmasına yol verilməyəcəyini bəyan edirdi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə hərbi cəhətdən gündən-günə güclənən Azərbaycanın sülh çağırışlarına və cəhdlərinə məhəl qoymayan Ermənistanın təxribatlarının ardı-arası kəsilmirdi. 1994-cü il mayın 12-də atəşkəs barədə razılığa gəlinsə də, işğalçı ölkənin silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri və mülki vətəndaşlarının yaşayış yerləri müxtəlif silahlardan intensiz olaraq atəşə tuturlurdu. Atəşkəs dövrü olsa da, Azərbaycanın əsgər və zabitləri, eləcə də mülki şəxsləri şəhid olurdular.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. 44 gün davam edən müharibədə Azərbaycan Silahlı Qüvvələri Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərdilər. İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən leytenant Əmrah Əkbərov da döyüşçü bacarığı, cəsurluğu, rəşadəti ilə düşmənə ağır zərbələr endirdi. Əmrah Əkbərov oktyabrın 12-də Hadrut döyüşlərində qəhrəmancasına şəhid oldu.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin leytenantı Əmrah Şahid oğlu Əkbərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Gənclər Kitabxanasında Beynəlxalq Gənclər Günü münasibətilə virtual kitab sərgisi hazırlanıb

Avqustun 12-si dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Beynəlxalq Gənclər Günü münasibətilə virtual kitab sərgisi hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, kitab sərgisində gənclər siyasətinə dair beynəlxalq və yerli təcrübəni özündə əks etdirən məlumatlar təqdim edilir.




Belə ki, materialda beynəlxalq və Azərbaycan Gənclər Gününün yaranma tarixi, ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin uğurları haqqında məlumatlar əks olunur.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan virtual kitab sərgisində gənclər siyasətinə dair nəşr edilən "Azərbaycan gəncliyinin himayədarı", "İlham Əliyev və müasir Azərbaycan gənclərin gözü ilə", "Gələcək gənclərindir", "Azərbaycanda gənclər hərəkatı", "Azərbaycanın gələcəyi etibarlı əllərdədir", "Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri" kimi 10-dan çox kitabın qısa annotasiyası, dövrü mətbuat nümunələri təqdim edilir.

Beynəlxalq Gənclər Günü ilə əlaqədar hazırlanan material kitabxananın rəsmi saytında yerləşdirilib.

● Dövlət siyasəti

## Gənclərimiz uğurları ilə ölkəmizi gücləndirirlər

**Gənclər bütün dövrlərdə cəmiyyətin aparıcı qüvvəsi olub. Buna görə də ən vacib və ən zəruri işlər həmişə onların çiyinlərinə düşüb. Gənclər də uğurlu və işıqlı sabahlar naminə, vətəndaşı olduqları ölkənin dünyada tanınması, inkişafı üçün üzərlərinə götürdükləri bu işlərin öhdəsindən bacarıqla gəliblər. Dövlət də həmişə gənclərə böyük diqqət göstərib, onların təhsil alması, inkişaf etməsi üçün hərtərəfli şərait yaradıb.**



Gənclərin gücündən, bacarığından səmərəli istifadə etmək məqsədilə bu istiqamətdə müxtəlif dövlət proqramları qəbul olunub və uğurla icra edilib.

Azərbaycanın dövlət siyasətinin aparıcı istiqamətlərindən biri gənclər siyasətidir. Gənclərin hərtərəfli inkişafına göstərilən diqqət və qayğıdır. Azərbaycanın inkişafına istiqamətlənən və əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Azərbaycan gəncliyi hər addımda dövlətin qayğısını öz üzərində hiss edir. Öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirən Azərbaycan gəncliyi daim ölkədə gedən proseslərin önündə addımlamağa çalışır. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edən gənclərimiz uğurları ilə dövlətimizi gücləndirir, xalqımızı sevindirirlər.

Həmsöhbət olduğumuz Bakı şəhər sakinləri də Azərbaycan dövlətinin gənclər siyasətinin uğurla həyata keçirildiyindən, qazanılan nailiyyətlərdən ürəkdolusu danışdılar. Ehtiyatda olan zabit Elman Pirməmmədov dedi ki, gəncliyin daha da inkişafı məqsədilə qəbul olunan proqramlar, keçirilən bir sıra zəruri tədbirlər, müxtəlif sahələrdə gəncləri maraqlandıran məsələlərin həlli, qəbul edilən qərarlar Azərbaycan dövlətinin gənclərə göstərdiyi diqqətdən və qayğıdan xəbər verir. Böyük inamla deyə bilərik ki, gənclərimiz çox vətənpərvərdirlər. Biz onların vətənpərvərliyini, yurda bağlılığını 44 günlük Vətən müharibəsində yaxından gördük. Torpaqlarımızı erməni işğalından azad etməyi özlərinin ən şərəfli və müqəddəs vəzifəsi hesab edən gənclərimiz erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlanan kimi könüllü olaraq döyüşlərə yollandılar. Çox keçmədi ki, düşməni məhv etmək, torpaqlarımızı işğaldan qurtarmaq amalı ilə döyüşlərə atılan gənclərimizdən zəfər dolu xəbərlər eşitdik. Əsgərlərimizin döyüşlərdə göstərdiyi vətənpərvərlik, cəsarət təbiidir ki, uğurla həyata keçirilən dövlət siyasətinin nəticəsi idi. Çünki zaman-zaman keçirilən müxtəlif tədbirlərdə 44 günlük Vətən müharibəsinin iştirakçısı olmuş və döyüşlərdə erməni işğalçılarını məğlubiyyətə uğradan gənclərə vətənpərvərlik hissləri aşılanmışdır. Bax, bu hisslərin nəticəsində də gənclərimizdə düşmənə qarşı nifrət formalaşmış, erməni işğalçılarından şəhidlərimizin qisasını almaq istəyi yaranmışdı.

- Cəmiyyətimizin aparıcı qüvvəsi olan gəncliyin inkişafı üçün dövlətin yaratdığı hərtərəfli şərait onları daim axtarışa, yeniliyə həvəsləndirir, - deyə şəhər sakini Zenfira İsmayılova söhbətimizə qoşuldu. O dedi: "Bu gün gənclərimiz sağlam ruhda böyüyür. Sağlam gənclik isə sağlam gələcək və sağlam nəsil deməkdir. Dövlət qayğısı ilə əhatə olunan gənclərimiz başqa sahələrdə olduğu kimi, beynəlxalq səviyyəli yarışlarda da ölkəmizi uğurla təmsil edir, idmanımızın şərəfini layiqincə qoruyurlar. Həmişə olduğu kimi, bir müddət əvvəl Fransada keçirilən 33-cü Olimpiya Oyunlarında da idmançılarımız qələbə əzmi ilə mübarizə apararaq Azərbaycan bayrağını ucalara qaldırdılar, Dövlət himnimizi səsləndirdilər. Bütün bunlar yaddaşımızda çox qürurverici anlar kimi qalacaq. Gənclər təkcə idmanda deyil, mədəniyyətlərarası dialoqların keçirilməsində də, beynəlxalq əməkdaşlığın inkişafında da, eləcə də başqa sahələrdə də fəal çalışırlar. Uğurla həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində son illər ərzində cəmiyyətdə gənclərin ictimai fəallığı xeyli yüksəlmişdir. Başqa sahələrlə yanaşı, onların idarəetmədəki rolu da əhəmiyyətli dərəcədə artmışdır".

Cəmiyyətimiz istedadlı, bacarıqlı və vətənpərvər gənclərlə həmişə fəxr edir. Çünki gənclər bizim sabahımızdır. Onların inkişafını, tərəqqisini gördükcə qürur duyuruq. Müasir Azərbaycan gəncliyinin milli-mənəvi dəyərlərimizi göz bəbəkləri kimi qoruyub saxlaması və inkişaf etdirməsi bizi daim sevindirir. Deməli, sabahımızın gəncləri daha mübariz, daha yenilməz və daha bacarıqlı olacaqlar. Gənclərimiz vətəndaşı olduqları ölkənin tərəqqisi və inkişafı naminə bundan sonra da əzmkarlıqla çalışacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Bu il peşə hazırlığı keçən 54 gəncə şəhadətnamə verilib

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində peşə hazırlığı keçən gənclərin qiymətləndirilməsi aparılıb.

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iştirakçıların kurs müddətində biliklərə yiyələnmə səviyyəsini yoxlamaq məqsədi daşıyan qiymətləndirmə kompüter istifadəçisi, tikişçi, kişi və qadın bərbəri, aşpaz köməkçisi, bədii oyma, toxuculuq və dulusçuluq peşələri daxil olmaqla 8 istiqamət üzrə keçirilib.

Ümumilikdə 19 nəfərin qazandığı yeni bilik və bacarıqlarla bağlı hazırlıq səviyyələri yoxlanıb. İmtahan komissiyasının qərarına əsasən, onlardan 15 nəfərinə şəhadətnamə, 4 nəfərinə arayış təqdim edilib. Ümumilikdə isə 2024-cü il ərzində müəssisədə üç dəfə qiymətləndirilmə aparılıb və kursları 54 nəfər şəhadətnamə ilə bitirib.

Qeyd edək ki, Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzi həmin kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası üçün mütəmadi tədbirlər görür. Mərkəzdə fiziki və yüngül formalı əqli və psixi pozuntuları olan 15-29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Burada müxtəlif peşələr üzrə 3-6 aylıq kurslar təşkil olunur.



## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 aprel (Bazar ertəsi günü) tarixli 151-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 6 rəcəbül-mürəccəb sənə 1337.
7 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Gəncə Türk Müəllimlər İttifaqı məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] məlum edir.

*T-89*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bağır bəy və Qəhrəman bəy Rəfibəyovlar öz sevgili qardaşları **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mədrəseyi-Diniyyə bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-90*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məşhədi Zeynal bəy, Əli bəy, Abdulla bəy və Məşədi Əzim bəy Rəfibəyovlar öz sevgili əmisi oğlu **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Gəncə Həmkarlar Cəmiyyəti Şurası bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə Gəncədə vəfat etdiyini kamali-hüzn və təhəssürlə elan edir.

*T-91*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Doktor Xudadad bəy Rəfibəyov öz sevgili atası **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

İsmayıl, Hilal və Abbas Məhəmmədovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

*T-92*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Cavad bəy, Əyyub bəy, Qənbər bəy Rəfibəyovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Gəncə Ticarət və Sənaət İttifaqı bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-93*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məşhədi bəy, Məşhədi Əsgər bəy Rəfibəyovlar özlərinin sevgili əmisi oğlu **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

### ELAN

1919 sənəsi aprel ayının 7-də, düşənbə [bazar ertəsi] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

### Satılır

Azərbaycan qoşunlarının təntənəli bir surətdə şəhərə daxil olmaları münasibətilə çəkilmiş şəkillər. Ünvan: Nikolayevski küçə Xitrin aptek mağazası, "İsmailiyyə" ilə rubəru.

*5758*

### Təcili surətdə lazımdır

8, 10, 12 otaq, şəhərin mərkəzində müəssisədən ötrü. Naberejnı küçədə olması təmənna olunur. Mebel ilə, olmasa mebelsiz, qiyməti qədərsizdir. Pasredniklərdən [vasitəçilərdən] məlumat dəxi qəbul edirəm. Xahiş olunur bu ünvana müraciət olunsun: Tarqovı küçə, "Kommerçeski nömrələr", nömrə 9, səhər saat 9-11, axşam 6-7-ədək.

*5788*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Hökumətinin qərarı**
30 mart 1919
Azərbaycan 100-lükləri

1) İndiyə qədər işlənməkdə olan pullardan başqa, hökumət tərəfindən təsdiq edilmiş şəkildə 100 manatlıq Azərbaycan Hökuməti pulları buraxılsın.

2) Göstərilən pullar hökumət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanununu və buraxılması qaydalarını nəşr edib "Azərbaycan" qəzetəsinin qismi-rəsmi şöbəsində həmin pulun 1919-cu il şəklini təsvir ilə elan etsin.

*Rəisi-vükəla:*
*Fətəli xan Xoyski*
*Maliyyə naziri vəzifəsini ifa edən:*
*Əliağa Həsənzadə*

## MİLLİ BİR GÜN

Aprelin 5-i heç şübhəsiz ki, Azərbaycan tarixi-təşəkkülünə [təşəkkül tarixinə] milli günlərdən biri olmaq üzrə qeyd olunacaq.

Bir gün əvvəlcə çıxan qəzetələr:

– Ordumuz gəlir! – xəbərini vermişlərdi.

Sabah açılarkən xalqımızın ordusunu nə kimi bir sevinclə istiqbala [qarşılamağa] hazırlandığı görülürdü. Bazar, dükan, ev, küçə – həpsi xalılarla bəzənmiş, aylı-yıldızlı bayraqlar şəhərə adəta bayram rəngi vermişdi.

Böyük-kiçik, oğul-uşaq, kişi-arvad hər kəs küçələrdə idi. Damların üstü belə qadınlarla dolu idi.

Ordumuz müntəzəm səflər, qüvvətli süvarilərlə, qismiməxsusumuzda [xüsusi hissəmizdə] bərtəfsil [təfsilatı ilə] yazıldığı vəchlə şəhərin mərkəzi küçələrini dola-şaraq Hökumətin, Parlamanın və möhtərəm müsafirlərimiz ingilislərin nümayəndələri tərəfindən təbrik edildikdən sonra Salyan qışlalarına [kazarmalarına] getmiş, qışlaya gedərkən Şamaxı yolunda əhali tərəfindən istiqbal olunaraq ayaqları altında qurbanlar kəsilmiş, keçdikləri küçələrdə, damlarda və balkonlarda oturub aylarla yollarını gözləyən qadınlar tərəfindən güllər saçılmışdır.

Ordumuzu ilk dəfə olaraq paytaxtımızda görmək, xalqımızın kəndi ordusunu böylə təsviri qeyri-qabil böyük bir ruh və sevinclə istiqbal eylədiyini seyr eyləmək, millətin hürriyyətini, istiqlalını sənələrdən bəri gözləyən və bunu bir fikir və bir ideal olaraq pərvərdə edənlər [bəsləyənlər] üçün nə dərəcədə böyük bir bayram, nə şanlı və şərəfli bir gün idi!.. Parlamanın sosialist əzasından [üzvlərindən] birisi bugünkü hissiyyatını anlatarkən deyirdi ki:

– Mən bu gün doğrudan da milləti görürəm. Bu saatda hər kəs kəndiliyini unutmuş, təbii olaraq hər kəs vahid bir vücudun cüz'ü [hissəsi] olduğunu dərk eyləmişdir.

Əvət, doğrudur, öylə anlar, öylə dəqiqələr, öylə hisslər, öylə zamanlar vardır ki, onda sinif mənfəəti, firqə hissi, şəxs qərəzi unudulur, millət əfradı [fərdləri] yalnız bir vücud olduqlarını düşünürlər.

Bu gün, ordumuzun paytaxtımıza gəldiyi gün, böylə günlərdən, böylə dəqiqələrdən biri idi.

Ordumuzun gəldiyi münasibətilə köksü qabaran bir vətəndaş bugünkü sevinclə keçənilki günləri müqayisə edirdi.

– Əlhəmdülillah, bugünləri də görəcəkmişiz! – deyirdi.

Aprelin Azərbaycan tarixi səhifələrinə yazılacaq 5-ci günü yalnız xalqımızda tövlid eylədiyi [meydana gətirdiyi] təsliyət [ürək-dirək vermək, təsəlli vermək] hissləri ilə deyil, oyandırdığı vəhdəti-milli idrakı ilə də böyükdür.

Bu gün mən görürdum ki, bir millətin milət olduğunu kəndisinə bildirmək və onda etimadi-nəfs xassəsi [özünəinam hissi] oyatmaq üçün milli bir hökumət təşkilinin əlamətizahirisi [zahiri əlaməti] olan ordunun nə qədər böyük bir əhəmiyyəti, nə dərəcə əsərli [təsirli] bir nüfuzu, mənəvi və tərbiyəvi bir nüfuzu vardır.

* * *

Kəndi doğma ordusunu böylə doğma hisslərlə qarşılayan paytaxtın, əsgərlərindən gözlədiyi məqsədləri xülasə etmək lazım gələrsə, bunu iki-üç sözlə xülasə etmək olar.

– Hürriyyətimizin müdafiəsi, namus və istiqlalımızın mühafizəsi!

Gözlədikləri bu məqsədlərin ifası üçün təşkil olunan yeni ordumuzun cansiparanə bir surətdə çalışacağına, bu gün məhdud bir qitəsini [hissəsini] istiqbal eylədiyi ordunun, inşallah, getdikcə böyüyüb möhkəmləşəcəyinə inandığı bir səmimiyyətlə xalq ordumuzun əzmkar generalı Hərbiyyə naziri Səməd bəy Mehmandarov cənablarını pək haqlı olaraq alqışlara tuturdu.

* * *

Ordumuzu istiqbal edərkən Mart facieyi-əliməsini [kədərli Mart faciəsini] gözləri ilə görənlər bittəbii bu martı o mart ilə müqayisə edirlərdi.

Fəqət mən martı martla deyil, apreli noyabr ilə müqayisə edirdim.

O gün ki, türklərlə bərabər yeni vücuda gələn Azərbaycan qitələri də çəkilir, buraya ingilis komandanlığı ilə bərabər Biçeraxovun əsgərləri gəlirlərdi.

Şəhərin üstündə uçan qara qarğa, Biçeraxovun aeroplanı, yuxarıdan başımıza vərəqələr nəşr edir [yayır], Rusiya şəhərinə gəldiyini, hər kəsin Rusiyaya tabe olması lüzumunu bildirirdi. Ah, o nə əndişəli, nə qorxulu, nə ağır günlər idi.

İngilislər burada hürriyyət və istiqlalı ilə yaşamağa əzm etmiş bir millət olduğunu bilməyir, bizim haqqımızda başqa düşmən mənbələrdən almış olduqları məlumat üzərinə hərəkət edir kimiydilər.

Günlər keçdi. Üfüqi-siyasət açıldı. Azərbaycan Cümhuriyyətinin binası möhkəmləşdi.

Bizə qara xəbər gətirən düşmən qüvvət – Biçeraxov-Prjevalski əsgərləri şəhərimizdən çıxarıldı. Flotun [donanmanın] silahı alındı.

Nəhayət, ordumuz gəldi.

Şəhərimizin bəlakeş [bəlalar çəkmiş] sinəsi üzərində əzmkar qədəmləri ilə yürüyən əsgərlərimiz müztərib [iztirab çəkən] ürəklərdə yürüyüş ahəngi ilə mütənasib sevinc zərbələri hasil edir, hər kəs bilaixtiyar:

Yaşasın ordumuz! – deyirdi.

Ordumuzun gəlməsi ilə qabaran hissiyyatımızı ifadə üçün xalqın bir ağızdan söylədigi sözə biz də iştirak edəlim:

Yaşasın ordumuz!

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(Keçən nömrələrin axırı)*

**Malxazyan** - Qanun layihəsi qiraət edilmədən əvvəl, mən bəyan etdim ki, bu məsələ müzakirə edilə bilməz. Zira, məsələ cəlbnamədə [çağırış vərəqəsində] qeyd edilməmişdir. Fəqət Parlaman layihənin müzakirə edilməsinə səs vermişdir. Böyləliklə Nakazın [Nizamnamənin] 86, 87 və 103-cü maddəsi xələldar edilmişdir. Bu maddələrdə denilir ki, Parlamanda mövqeyi-müzakirəyə qoyulan məsələlər cəlbnamədə qeyd edilməlidir. Qeyd edilməyən məsələlər müzakirə ediləmməz. 8-ci babda [fəsildə] Nakazın baxılması qanununda denilir ki, Nakaza Parlaman üzvlərindən beşinin təhriri [yazılı] təklifinə görə yenidən baxmaq olar. Bunun üçün də komisyon təyin edilməlidir. Amma bugünkü qərardad Nakaz[ı] dəyişmişdir ki, buna da yol vermək olmaz. Ona görə, təklif edirəm ki, məsələ təxirə düşsün və zənn edirəm ki, bu təklifi səsə qoymaq belə lazım deyildir.

**Sədr** – Mən borc bilirəm məlum edim ki, bu barədə Nakaz pozulmamışdır. Burada 86-cı maddəyə istinad edilir. Bu maddə qeydində isə fövqəladə iclas barəsindədir. 87-ci maddə isə fövqəladə iclasa əlavə məsələlər olsa da dəvətnamələr göndərilir ki, bu da deməli dürüst istinad deyildir. 103-cü maddəyə istinad etmək də dürüst deyildir. Mən möhtərəm Malxazyanın nəzərini 88-ci maddəyə cəlb edirəm. O maddədə denilir ki, iclas açılanda yövmiyyeyi-müzakiratı [müzakirə gündəliyini] məlum etməli. Mən bunu təhrirən [yazılı] göndərməyib şifahən demişəm. Mən ancaq 99 və 102-ci maddəni pozmuşam. Bu da ondan ibarətdir ki, beş əza istəsə gərək dəvətnamələr yazılsın.

**[Xəlil bəy] Xasməmmədov** – Layihə müzakirəsindən əvvəl, mən bir-iki söz söyləmək istəyirəm. Bu qanun layihəsini Parlamana təqdim etməkdə Daxiliyyə Nəzarətinin üç məqsədi var idi. Biri maaş artırmaq, ikinci bir neçə yerdə məmurları artırmaq, üçüncüsü inqilabdan sonra bir neçə yerdə məmurlar təyin olunub, bu da qanunsuz olduğundan gərəkdir ki, qanuna salınsın. Büdcə təsdiq olunanda hər bir adamın, hər bir məmurun mövqeyin[in] də qanunən olması lazım gəlir. Məmurların maaşını artırmaq üçün bir şey söyləyəcəyəm. Çünki Maliyyə-büdcə komissiyası rəisi bu barədə lazım olan izahatı verdi. Bu bahalıqda qaradovoylar[a] 450 rublə məvacib verilməsi barəsində dedi ki, bu məvaciblər gərək əlbəttə artırılsın. Bir də odur ki, bir neçə yerdə məmur artırmaq. Bu da məlumdur ki, məmləkətdə nizam saxlamaq polis deyil, əsgərlərin vəzifəsidir. Bu da ki, sizə məlum olan bir taqım səbəblərə görə bizdə yoxdur. Bu vəzifəni polis icra edir. Bir məmləkətin hüdudunu da, dövlətini də ancaq əsgərlər müdafiə və mühafizə etməlidirlər. Lakin həman məlumunuz olan səbəbə görə bunu da polis nəfəratı [nəfərləri] icra edir. İştə bu təklif etdiyimiz layihə bu işlər barəsindədir ki, təxiri yaxşı olmaz. Layiheyi-qanuniyyəyə bu nöqteyi-nəzərdən baxılsa görülər ki, bu məsələlər böyük və mühüm məsələlərdir. Bunu demək istərdim ki, bu qanuna öylə bir nəzərlə baxmayasınız ki, guya, biz nə qayda ilə işi aparacağız. Bu qaydanı büdcə təqdim edəndə məlum edəcəyiz. O vaxt təqdim edəcəyimiz layihə barəsində Parlaman öz təsəvvüratını bəyan edə bilər. O məsələ buna qatılmasın. Əlbəttə bizə də başqa müəssisələr, zemstvo [yerli özünüidarə orqanı] və qeyrə kimi lazımdır. Bu barədə hökumətimiz işləyir. Qanun layihəsi tərtib verilir. Layihə sizə təqdim olanda rəyinizi deyərsiniz. Daxiliyyə Nəzarəti qulluqçuları sizin bugünkü qətnamənizi gözləyir. Çünkü onların aldıqları məvacib kifayət etməyir və məvaciblərin artırılması bugünkü qətnamənizə bağlıdır. Bir də kənd işlərinə baxan idarə barəsində demək istərəm ki, bu idarə lazım deyildir. Bakıda bu idarə ləğv olub, Gəncədə isə qalıb. Mən istəyirəm ki, Gəncədəki idarə Bakıdakı kimi olmayıb, kağızları tərtiblə toplayıb Torpaq Nəzarətinə verilsin. Buna görə, mən də Büdcə komitəsi ilə bu idarənin pozulmasına şərikəm. Lakin əlavə edirəm ki, bu məsələ barəsində bir Təsviyə [Ləğvetmə] komissiyası təyin olunsun.

*(5 dəqiqə tənəffüs elan olunur)*

*(Tənəffüsdən sonra)*

**[Aslan bəy] Qardaşov** – Bayaq Parlaman bir həftə olaraq iclası təxirə salmağı qəbul eyləməyinə görə üzvlərdən bir çoxları bu gün gedəcəklərindən, təklif edərdim ki, bu növbədəki məsələnin müzakiratı təxirə salınsın.

**[Ağa] Aşurov** – Mən də öylə bir şey təklif edəcəkdim, ancaq indi bir şey əlavə edirəm. O qulluqçular ki, 480 manat alırlar, onlar baxacaqlar ki, bununla dolanmaq olmaz. Parlaman komisyonu da təyin edibdir ki, 450 manata dolanmaq olmaz. Ona görə bu məsələni təxirə salaq. Hökumət onların məvacibini nə cür istəyirsə artırsın və 20 milyondan versin. Hərgah, 20 milyon qurtarıbsa genə verək. Məsələ böyük və mühümdür. Cənab nazir dedi ki, leqalizatsiya edəcəyik [qanunilədirəcəyik]. Ancaq mən bilmirəm ki, leqalizatsiya haçan olacaq. Mən deyərdim ki, müzakirə gələn dəfəyə qalsın. Bu məsələyə külliyyən baxaq. Ortalıqda bayram vardır. Asudə vaxtda baxa bilərik. Ona görə, indi bu məsələni təxirə salaq.

**[Musa bəy] Rəfiyev** – Bu təkliflər ki, olunub, bayram gəlir, üzvlər gedəcəklər, məsələ qalsın, məsələyə külliyyən baxılsın – bu təkliflər nəzərə alınmazlar. Daxiliyyə nazirinin smetası müzakirə olunanda külli söhbətlər olacaqdır. Bu isə Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin layihəsi kimi təcilidir. Bu məsələyə təcili baxmaq lazımdır. Bu cüzi işə geniş dairədə baxmaq lazım deyil. Hər nəzarətin işinə geniş dairədə baxmaq lazım[sa], smeta müzakirəsi əsnasında baxılar. Layihəyə baxılmalıdır ki, qulluqçular qanuni surətdə olsun. Bir də xidmətçilərin məvacibləri azdır, artırmaq gərəkdir. Bayrama gedən sabah da gedə bilər. Ona görə təklif edirəm ki, bu məsələyə indi baxılıb qəbul olunsun.

**Sədr** – Təklif var ki, Məclis münqəte olub [kəsilib], məsələ gələn iclasa təxirə salınsın. Hər kəs iclasın münqəte olmasına və məsələnin təxirə salınmasına tərəfdarsa əlini qaldırsın. *(Əllər qalxır)*

Sayın! Lehinə 26. Kim əleyhinədir? Əleyhinə 1. Rica edirəm, səsə qoyulan vaxt danışmayasınız! Sayılıb qurtarana qədər əlinizi saxlayasınız.

**Qarabəyov** – Bir də səsə qoyun!

**Sədr** – Təklif olundu ki, Məclis münqəte olsun və layihənin müzakirəsi gələn iclasa qalsın. Yenidən səsə qoyuram. Hər kəs bu təklifə tərəfdarsa, rica edirəm, əlini qaldırsın. *(Əllər qalxır)* Sayın! Lehinə 30. Kim əleyhinədir? Əleyhinə 12. Kim səs verməyib? Səs verməyən 2.

Beləliklə, iclas münqəte olub, məsələ gələn iclasa qalır. İclas qapanır.

*(İclas saat 2.40 dəqiqədə qapanır)*

## TELEQRAF XƏBƏRLƏRİ

* Havas ajansı xəbər verir ki, Reyndə olan fransız istila qoşunlarının komandanı Parisə dəvət edilmişdir. Buna Avropanın cənub-şərq cəhətində xətrəli [təhlükəli] olduğu və bolşeviklərə qarşı göndərilən Müttəfiq qoşunların mütəfərriq [dağınıq] olduqları səbəbdir.

* Stokholm – Vyanada nəşr edilən "İ. M." qəzetəsi Şərqi Qaliçədə və Ukraynada əhvalın son dərəcə xətrəli olduğunu bildirir. Proskurovda 400 ailə qətl edilmidişir.

* Macarıstanda Müttəfiqlərin istila qoşunları Çeqedinə çəkilmişlərdir. Hərbi komissiya və Amerikanın hamı ofiserləri [zabitləri] Peştədən çıxmışlardır.

* Daşkənd – Əfqan əmiri qətl edildikdən sonra, Əfqanıstanda millətçilərlə ingilislər tərəfdarları arasında hökumətdən ötrü qızğın mübarizə davam edir.

**Çin ölkəsində inqilab hərəkətləri**

Daşkənd – Alınan məlumata görə, Çinin İninq qitəsində [rayonunda] şimdiki hökumətdən narazılığa görə inqilab hərəkatı başlanmışdır. Həman qitə və Külcə şəhəri idareyi-əsgəriyyə [hərbi rejim] altına alınmışdır.

## SÜLH ƏTRAFINDA

Vaşinqton – Amerika sülh nümayəndələri "Belı dom"a [Ağ evə] teleqrafla xəbər verirlər ki, sülh əqdi [bağlanması] xüsusunda camaata məlum olandan artıq işlər görülmüşdür.

Paris – Lloyd Corcun Londondan övdətindən [qayıtmasından] sonra, gözlənir ki, Ali Şurayi-Hərbiyyə [Ali Hərbi Şura] mütarikə [atəşkəs] işlərində olan mübahisəli məsələləri həll edəcəkdir. Bu məsələnin bu vaxta qədər təxirinə sülh şəraitini [şərtlərini] tərtibə müvəzzəf ed[il]ən [vəzifələndirilən] mütəxəssislər arasında olan ixtilaf səbəb olmuşdur. Bunların bəzisi müvəqqəti şərtlər tərtib vermişlərdir. Halbuki, digərləri daimi şərtlər hazırlayırmışlar. Buna görə də dünən qət olunmuşdur ki, layihə Foşa qaytarılsın və ümid edilir ki, sabahkı Şuraya idxal ediləcəkdir. "Tan" qəzetəsi zənn edir ki, Almaniya əhvalı xətrəli [təhlükəli] olduğu üçün sülh işlərini təcilən itmama yetirəcəkdirlər [tamamlayacaqlar]. Bundan əlavə, "Tan" xəbər verir ki, Lloyd Corc lazım bilir ki, bilatəxir [gecikdirilmədən] yeni mütarikə şərtnaməsi imza edilsin. Bu şərtnamə ilə abluka [mühasirə] təbdil [dəyişdirilsin] və Müttəfiqlərin şərəfi mühafizə edilsin.

**Almaniya və Rusiya**

Nauen – Almaniyada Rusiya ilə əlaqəyə başlamaq məsələsi qalxmışdır. Əfkari-ümumiyyə [ictimai rəy] bilməyir nədən ötrü Almaniya Rusiya ilə əlaqə bağlamaq kimi Müttəfiqlərin tələbatına razı olmuşdur.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Maliyyə nazirinin Dağıstan Hökumətinə 30 milyon qərz [borc] vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin layihəsini təsviblə [bəyənməklə], ona tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana idxal etsin.

* Daxiliyyə nazirinin Şimali Qafqaziyadan gələnlər haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Dağıstan Cümhuriyyəti təriqi [yolu] ilə Şimali Qafqaziyadan gələnləri fəqət [ancaq] Dağıstan Cümhuriyyəti Hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi tərəfindən verilmiş vəsiqə üzrə Azərbaycan daxilinə buraxmaq olar. Dağıstan Hökuməti tərəfindən şəhadətnaməsi olanlar istisna edilir. İşbu qərardad aprelin 15-dən etibarən qüvvəni havidir [qüvvədədir]. İşbu təşkilat Daxiliyyə Nəzarəti ilə Türüq və Məabir Nəzarətinə mühəvvəl [həvalə] edilir.

**Fransa mürəxxəsinin [nümayəndəsinin] Rəisi-vükəlanı [Baş naziri] ziyarəti**

Həmin aprelin 2-də Fransa dövlətinin Tehran səfiri Rəisi-vükəla həzrətlərini ziyarət edərək Azərbaycan ilə İran dövləti miyanındakı [arasındakı] əlaqəyə dair müsahibədə bulunmuşdur.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- İngiltərə ərkani-hərbi [qərargahı] Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir: Ərkani-hərb bir dəfə Nəzarətə fəhlələrin tabelini göndərərək avqust ayı avans üçün 4 ½ milyon paranın təxsisi[ni] [ayrılmasını] rica etmiş imiş. Binaənileyh [ona görə], ərkani-hərb ikinci dəfə rica etmişdir ki, bu barədə hökumət nəzdində təşəbbüsatda bulunsun. Məsai Nəzarəti ərkani-hərbə xəbər vermişdir ki, birinci dəfə Nəzarət heç bir kağız almamışdır. Nəzarət rica etmişdir ki, fəhlələrin tabelləri təqdim edilsin.

- "Müsavat" firqəsinin Təbliğat və Təşkilat şöbəsi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Binəqədi mədən dairəsi və köyündə neçə vaxtdır ki, Şollar su yolu işləməyir. Bundan naşi [buna görə] fəhlə və kəndçilər miyanında [arasında] bir çox xəstəliklər davam etməkdədir. Şöbə rica etmişdir ki, Nəzarət lazımi tədabiri ittixaz etsin [tədbirləri görsün].

- Məsai Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, tezliklə Binəqədiyə su buraxılsın və bu vaxtadək suyun kəsilməsi səbəblərini məlum etsin.

## KÖÇƏRİ MƏSƏLƏSİ VƏ BARAMA TUMU

Hökumət Kabinəsi tərtib verilib düzəlincə qarşımızda öylə məsələlər dayanmışdır ki, bunların həlli daha bir gün sonraya atılarsa, əhalinin bir çoxu və bəlkə hamısı böyük bir fəlakətə düçar olar. Zatən öylə məsələlərin həllinə bu gün deyil, yarım il bundan qabaq çalışmalı idi. Hərgah, buna indiyə qədər heç bir tədarük görülməmişsə, fövqəladə bir məharət və səriyyülhərəkə [sürətli] bir fəaliyyət lazımdır ki, bəlkə bəlanın yarısı bir tövr rəf [aradan qaldırıla] və dəf oluna.

Fövrən [tezliklə] həllinə möhtac qalmış məsələmiz hədsiz və hesabsızdır. Lakin mövqeyi lap yaxınlaşmış və burnumuzun qabağında dayanıb da bizdən bu saat çarə tələb edən məsələlərin biri köçərilərin halı, ikincisi əkinçilərə müavinət [köməklik] və üçüncüsü də baramaçılara tum tədarükündür. Bunların üçü də biri-birindən əcələli [təcili] olduğu üçün hamısının da çarəsi bir vaxtda gərək yapılsın.

Əvvəla, hamıya məlum olduğu üzrə, Qarabağın və Cavadın aran adlanan cəhətlərində köçəri halı ilə bir çox tərəkəmə tayfaları olurlar ki, qışda qışlaqlarında (aran cəhətində) və yayda da yaylaqlarında (Qarabağın dağ ətrafında) yaşayırlar. Bunların ən böyük məşğuliyyəti maldarlıq və qoyunçuluqdur. Tərəkəmə əhlindən öylə sərvətdarları vardır ki, minlərlə qoyunları mövcuddur. Sürülərinin ucu-bucağı görünməz.

Qoyunçuluğun ən böyük faydaları vardır. Məlum olduğu üzrə, tamam Azərbaycan əhlinin yediyi xörəklər ümumiyyətcə qoyun ətindən hasil olur. Ətindən əlavə, qoyunun yunu, südü, yağı və ələlxüsus peniri hasil olur ki, motal, yaxud "axtarma" adı ilə məşhurdur. Zənn edirəm ki, axtarmanın ləzzəti yevropalıların bir bu qədər tərifini qazanmış "şveysar" penirində olmasın. Bu axtarma penir ancaq göy otlu, soyuq bulaqlı yaylaqlarda hasil olur. Camaat bu il axtarmanın üzünə həsrət qaldı. Səbəbi isə yollar bağlı olduğu üçün köçərilər dağlara getməyib sürüləri ilə bərabər aranda qalmışdılar.

Bundan əlavə, aranda qalmış əhalinin qismi-əzəmi [əksər hissəsi] bu il qızdırma naxoşluğuna mübtəla olub, bir çoxu da vəfat etmişdir.

Zatən aranın bəzi vaxt 40-50 dərəcəyə qədər qalxmış hərarətinə insan deyil, qaramal və qoyun kimi heyvanlar da tab gətirməyib yüzlərcə tələf olurlar. Odur ki, yayda dağlara getmək adətindən məhrum qalmış qoyun sürüləri keçən il aranda qalıb minlərcə qızdırmadan tələf olmuşlar. Əhalinin qaramalını əlindən alıb rus cəbhələrinə göndərmişlərsə də, amma qoyun sürülərinə əsla əl vurulmamışdır.

Binaənileyh [ona görə], təbiətən qoyun əti çox ucuz qiymətlərə satılaydı, halbuki, indi qoyun ətinin girvənkəsi 15 manata satılır. İştə, bunun ən böyük səbəbi qoyunun aranda qalıb qızdırmadan tələf olmasıdır. Hərgah bu il də xudanəkərdə [Allah göstərməsin] qoyunlar aranda qalarsa, gələn il ətin girvənkəsi 50 rubləyə də tapılmayacaqdır. Əhali də aranda batıb gedər.

Köçərilərin dağa doğru hərəkatı Novruz bayramından sonra başlar. Bina-ənileyh, hökumətin birinci təşəbbüsatı bunların mürəffəhülhal ilə [rifah içində, rahat] köçmələrinə müavinət göstərməyidir. Dağ yolları tamamən indidən gərək açılsın və buna dair hər bir binagüzarlıq [tədbir] görülsün. Köçərilərin ümidi yeni təyin olunmuş Qarabağ general-qubernatorunadır. Yəqin ki, o cənabın bu barədə xüsusi tədbir və binagüzarlığı olmuşdur.

İkinci məsələ: keçən il bolşeviklərin təcavüzatı əsnasında Şirvan və Muğan cəhətlərində bir çox kəndlilər qaçıb, əkin və biçinlərindən məhrum qalmışlar. Bu il əllərində tum olmadığı üçün bir çox yerləri başlı-başına qalmışdır. Bir çox müftəxor qaçqınlara ərzaq paylamaq əvəzinə böylə zəhmətkeş əkinçilərə tum paylanarsa, daha mənfəətli olar. Bahalığa bir çarə varsa, o da əkin dairəsini böyütməkdir. Bu barədə hökumətin səyi əhalini əkin işlərinə tərğib edəcəkdir [rəğbətləndirəcəkdir], ta ki əkilməmiş bir qarış da yer qalmasın. Xülasə, tuma möhtac qalmış əkinçilərə hər növ ilə olursa-olsun tum buraxmalıdır ki, yeni məhsulatımız artsın.

Üçüncü məsələ: Azərbaycanın aran cəhətlərində əhalinin bir çoxu qədimdən baramaçılıqla məşğul olur. Barama tumu qismən İstanbuldan və qismən də Türküstan və şərq cəhətlərindən gəlirdi. Gətirənləri də əksərən yunan və erməni tacirləri olurdu. Əcnəbi tacirlərinin əlindən qəbul olunmuş barama tumu bəzi vaxt qəlp və saxta olduğundan, biçarə əhalinin əməyi və səyi hədərə gedirdi. Bu halı müşahidə etmiş sabiq rus hökuməti Tiflisdə barama tumu idarəsi (Шелководственная станція) tərtib verib tumları müayinə və nəzarətsiz buraxmayırdı. Əhali üçün bir qədər arxayınlıq hasil olmuşdu. İndi hələ cavan hökumətimiz böylə bir idarəyə malik olmadığından, avam əhali arasında yenə əcnəbi tacirləri cövlan edəcəklər, tumların xalis və ya qeyri-xalis olduqlarını dərk edəmməyəcəklər.

Binaənileyh, əhalinin hüququnu mühafizə etmək üçün buna dair torpaq idarəsinin ciddi bir təşəbbüsatı olmalıdır. Baramaçılara satılacaq tumları müayinə və tədqiq edib də xalislərinə bandrol vurmalıdır, ta ki əhali bunun salamat bir tum olmağına inansın. Bu üsul qəbul olunarsa, məchul və naxoş tumlardan sadədil [sadəlövh] camaat azad olar.

Yenə təkrar edirəm ki, vaxt çox təngdir [dardır, azdır]. Məsələlərin üçünə də hökumətin diqqətini sürətlə cəlb etməlidir ki, sonra iş-işdən keçər.

*Fərhad Ağazadə*

## ƏLƏKBƏR BƏY RƏFİBƏYOV

Möhtərəm "Azərbaycan"ın 4 nisan [aprel] tarixli nəşr edilən nömrəsi Azərbaycanın ən birinci millətpərəsti, vətənpərvəri, həqiqətən millət atası denilməyə şayəstə və səzavar olan [yaraşan və layiq olan] məşhur Ələkbər bəy Rəfibəyovun mərhum olmasını xəbər verdi.

Əvət, Ələkbər bəy həzrətləri vəfat etdi. İnna lillahi və inna ileyhi raciun! Rəhmətullahi əleyhə rəhmətən vasia!

Fəqət Ələkbər bəy həzrətləri vəfat etdi, yəni öldü demək həqiqətən doğru deyildir. Ələkbər bəy həzrətləri ölməmiş, diridir. Qiyamətədək dəxi diri qalacaqdır. O ancaq bir aləmdən başqa bir aləmə, aləmi-fanidən aləmi-bəqaya [fani aləmdən əbədi aləmə] rihlət [köç] etmişdir.

Bu məsələ üçün isbatmı istənilir? İştə ən şafi [qənaətbəxş] isbat olaraq "O kimsələr ki, Allah yolunda tərki-həyat etmişlər, məgər onları ölmüş hesab edirsiniz? Onlar ölməmişlər. Onlar ta qiyamətədək diridirlər!" məalında [mənasın da] olan ayeyi-Qurani-əzimüşşanı [şanı böyük Quranın ayəsini] göstərə bilərik. Allah yolunda tərki-həyat etmək nə deməkdir? Din, millət və vətən uğrunda çalışaraq tərki-həyat etmək demək deyilmi?

Ələkbər bəy həzrətləri kim idi? Millət və vətən uğrunda nə gunə [nə cür] xidmətlər etmiş? "Azərbaycan"da dərc edilən elanlarda "ədib" deyə göstərilmişdir. Təbii, biz buna iştirak edəmməyəcəyiz. Zira bir şəxsi zəmm etmək [pisləmək, eyibini söyləmək] nə qədər qəbih bir əməl isə, o şəxsin dara [malik] olmadığı sifətlərlə onu mədh etmək dəxi o qədər qəbihdir.

Ələkbər bəy həzrətləri ədib deyildi. Zira, nə rusca və nə də türkcə nəşr edilmiş və yaxud nəşr edilməmiş heç bir əsəri-qələmiyyəsi [yazılı əsəri] yoxdur. Fəqət Ələkbər bəy həzrətləri həqiqi bir vətənpərvər, sadiq bir millətpərəst, kimsədən qorxmaz və çəkinməz, gecə və gündüz istirahət bilməz, heç bir təhlükə və fəlakəti göz önünə almaz, atəşzəban [alov dilli, doğruları deməkdən çəkinməyən] bir müdafeyi-millət [millət müdafiəçisi] idi.

Ələkbər bəy həzrətləri 1898-ci sənədən başlayaraq millət və vətən uğrunda çalışmağa, həm də həqiqətən sadiq olaraq cansiparanə bir surətdə çalışmağa başladı. Başqaları kimi əmniyyətli, asayişli bir vaxtda, bir intixab [seçki] vaxtında ictimalarda (mitinq) kürsiyi-xitabətə atılaraq təhsili-məqsuddan [məqsədinə nail olduqdan] sonra istirahət və kamranlığına [həyatdan kam almağa] çəkilənlər kimi yox, hər bir dəqiqə, hər bir an çalışmağa başladı.

Ələkbər bəy Rəfibəyov həzrətləri ən əvvəlinci fəaliyyətini Gəncə Şəhər İdarəsini islah etməkdən başladı. Böylə ki, Nikolay hökumətinin mənhus siyasəti tənzim etdiyi xəbis qanun mövcibincə [qanuna əsasən], Bələdiyyə İdarəsi əzasının nisfindən əqəlli [üzvlərinin yarısından azı] türk olması lazım gəldiyi məlum olsa gərəkdir. Buna məbni dəxi [buna əsasən də], Gəncə idareyi-bələdiyyəsi əzası miyanında [arasında] barmaq ilə sayılması mülahizə edilən və o da rusca, bəlkə türkcə də bisavad, iclaslarda heç bir şeyi anlamayaraq yalnız gurultuya barmaq qaldıran və bütün iclas vaxtı isbati-vücud [iştirak] etməyən və yaxud etsə də uyuyanlardan ibarət bir neçə nəfər türk bulmaq olardı. Ələkbər bəy həzrətləri buna səbr və təhəmmül edəmmədi [dözə bilmədi]. İslaha, həm də həqiqətən müharibə deniləcək bir tərzdə çalışmağa başladı. Müvəffəq də oldu.

Bələdiyyə İdarəsi müsavat [bərabərlik] üzrə, nüfus [əhalinin sayı] etibarilə təşkil edildi. Bələdiyyə İdarəsinə saylanan türk əzası dəxi uyuyanlardan, bisavadlardan, əcnəbilərin müstəhziyanə [istehzalı] gülüşlərinə hədəf olanlardan deyil, fəal, basavad [savadlı], siyasətşünas gənclərdən oldu.

Sonra Ələkbər bəy həzrətlərinin nəzər-diqqətlərini türklərdə tərbiyeyi-milliyyə olmaması cəlb etdi. Yəqin etdi ki, nə qədər ki, türklərin milli məktəbi yoxdur, o qədər də onlar milli tərbiyə alammayacaqlar. Buna məbni də bir milli məktəb güşadına [açılmasına] təşəbbüs etməyə başladı.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 aprel (Bazar ertəsi günü) tarixli 151-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Heyhat!!!

Nikolay hökumətinin siyasəti, o siyasəti iqamə və tərvic [yerinə yetirmək və ona rəvac vermək] üçün Rusiyadan göndərilən missioner məmurlar buna müsaidə edəcəklərmiydi? Hər halda Ələkbər bəy həzrətləri çalışmağa başladı. Heç bir fədakarlıqdan çəkinmədi, heç bir təhlükədən qorxmadı.

Edadi məktəbi məramnaməsində [proqramında] milli bir məktəb güşadına müsaidə istədi. Lazım olan məkanlara və mövqelərə müraciət etdi. Nəhayət, 1906-cı sənədə bu məsələni həll etmək üçün Gəncə vilayəti valisinin tədabiri [tədbirləri] ilə onun təhti-rəyasətində [başçılığı altında] Gəncə vilayəti qəzalarının nümayəndələri, qazıları və xalq məkatibi [məktəbləri] naziri [müfəttişi] və müdirlərindən ibarət bir ictima [yığıncaq] şurası quruldu.

Müzakirə başlandı. Vali, Ələkbər bəy həzrətlərinə xitabən nə istəyirsiniz, deyə sordu? Ələkbər bəy həzrətləri:

"Ümurati-diniyyə və adati-milliyyəni [din işlərini və milli adətləri] icra üçün bizlərə alimlər vücudu vacibdir. Qanunən əcnəbi məmləkətlərdə təhsili-ülum edən islamlar Rusiya daxilində icrayi-vəzifə etmək haqq və səlahiyyətindən məhrumdurlar. Rusiya məmləkəti daxilində isə dini və milli məktəbimiz yoxdur. Buna məbni [buna əsasən] də öz ümuratımızı [işlərimizi] icra və hökumət tədabirini ifa etmək üçün dini və milli alimlər hazırlamağa, bir milli məktəb güşadına müsaidə edilməsini rica ediriz!" dedi.

Buna kim cavab verdi, nə cavab verdi? Xalq məktəbləri naziri məşhur missioner, o ruslaşdırmaq siyasəti mürəvvici [rəvac verəni] Levitski: "Ola bilməzmi ki, sizin çocuqlar rus darülmüəllimin [seminariya] məktəblərində "Quran"ın rusca tərcüməsini oxuyaraq, sonra sizə axundluq, mollalıq və yaxud əfəndilik etsinlər?" deyə cavab verdi.

Ələkbər bəy həzrətləri hiddətlənərək, qızaraq: "Ola bilməzmi ki, siz ruslar üçün sizin rus çocuqları yəhudi lisanında təlim və tərbiyə alaraq sonra yəhudi lisanına tərcümə edilmiş "İncil" əhkamını [hökmlərini, qanunlarını] sizlərə təbliğ üçün kilsələrdə ifayi-vəzifə edələr?" – deyə müqabilə etdi [cavab verdi]. Bu mücadilə nəticəsində o vaxt Mədrəseyi-Ruhaniyyə və indi Mədrəseyi-Diniyyə təsmiyə edilən [adlandırılan] Gəncə məktəbi-millisi güşadına müsaidə edildi [icazə verildi].

Ələkbər bəy Rəfibəyov həzrətlərinin ən axırıncı mühüm fəaliyyəti 1915-ci sənə Qars faciatı [faciələri] xüsusunda oldu. Məşhur Qafqaz canişini Vorontsov-Daşkovun hüzuruna gedən nümayəndələrin biri də Ələkbər bəy həzrətləri idi və orada ən cəsuranə və ən atəşin bir lisanla idareyi-kəlam edən [danışan] o idi. Orada, yəni Tiflisdə Qars hərbzədələrinə, o məsum məzlumlara müavinəti-maddiyyə etməyə müsaidə alaraq Gəncəyə döndü. Bu mətləb üçün öz təhti-rəyasətində [başçılığı altında] bir komisyon təşkil etdi. Minlərcə, on minlərcə para topladı, səkkiz nəfərədək müəllimlərdən və qeyrilərdən adamlar göndərdi, ta nəhayətədək çalışdı.

Zənn edilməsin ki, mərhum Ələkbər bəy həzrətlərinin gördükləri işlər ancaq bunlardan ibarət olmuş, yox. Əgər o gördüyü, o əmələ gətirdiyi işləri qələmə almaq lazım gələrsə, cildlərlə kitablar yazmaq lazım gələcəyi şübhəsizdir.

"Ələkbər bəy həzrətləri ədib deyildir, zira heç bir əsəri-qələmiyyəsi yoxdur" demişdik. Fəqət Ələkbər bəy həzrətləri, haqqında bir çox əsəri-qələmiyyə əmələ gətirilməyə səzavar bir vücud idi deməyə dəxi cəsarət edə biləriz. Ələkbər bəy həzrətləri millət və vətənə o qədər xidmətlər etmiş ki, onları bilməyən, onları təqdir etməyən millət və vətən nankorudur, şübhəsiz.

Ələkbər bəy həzrətlərinin böylə mühüm zamanda rihlət etməsi [köçməsi] bütün azərbaycanlılar üçün ən mühüm bir zıyai-əbədidir [əbədi bir itkidir]. Böylə müdhiş bir müsibət müqabilində xudavəndi-aləm bütün azərbaycanlılarla bərabər mərhumun ailə və mütəalliqatı [yaxınları, qohumları], xüsusən məxdumu [oğlu] doktor Xudadad bəyə səbr əta etsin.

Rəhmətullahi-əleyh və rəhmətən vasia!

*Məhəmməd Səid*

## ORDUMUZUN PAYTAXTA VÜRUDU [GƏLİŞİ]

**Bir gün əvvəl**

Nisanın 4-də "Yarın ordumuz gəlir" deyə şayiat ildırım kimi paytaxtın hər tərəfinə yayıldı. Hər kəsdə bir sürur [şadlıq] həyəcanı, hər kəsdə bir sevinc olduğunu dodaqlardakı təbəssümlərdən, simalardakı şadlıq və məsərrətdən [sevincdən] görmək mümkün idi.

**Paytaxt ordunu salamlayır**

Nisanın 5-i səhər saat 7-dən etibarən paytaxt bəzənməyə başlanmışdı. Soqaqlar, balkonlar, dükanlar al və milli bayraqlar əmvacı [dalğaları] altında xüsusi gözəl bir mənzərə təşkil etməkdə idi. Nikolayevski caddəsi ilə dəniz kənarı və evlərin balkonlarından ziqiymət [qiymətli] xalılar sallanıb istiqbala [qarşılamağa] çıxmış qadın-çocuqlarla xınca-xınc [qələbəlik, adamlarla dolu] idi. Ən calibi-diqqət [diqqəti cəlb edən], ən müzəyyən [bəzəkli] qala qapılarından başlayaraq Bazarnı küçə və Şamaxı yolu idi ki, divarlarda boş yer görmək belə qabil deyildi. Millətin nəyi varsa, igid qəhrəmanların ayaqları altına salmağa, onları candil ilə pişvaz etməyə [qarşılamağa] hazırlandığı müşahidə edilirdi. "Yaşasın Azərbaycan", "Yaşasın Millət" sözləri yazılmış al parçalardan alaqapılar qayırılmışdı.

Saat 9 radələri üçün məkatib [məktəb] çocuqları ura sədaları ilə soqaqlarda dolaşıb vaxtın yaxınlaşmağını sabah xoruzları kimi, bəkləyən millətə xəbər verirdilər. Bakı istasyonu qarşısından başlayaraq qoşun keçəcək soqaqlarda polis nəfəratı [nəfərləri] dururdu. Səkilər üstündə xalq izdihamla durub bəkləyirdilər. Dün gecədən etibarən qoşun əşyası məxsusi arabalarla Salyan qışlalarına daşınırdı.

**Qəhrəmanlarımız**

"Gəlirlər, gəlirlər" səsi eşidilməyə başladı. Bolşaya Morskaya soqağından əsgəri musiqi tərənnümü, xalqın "Yaşa" alqışları altında qəhrəmanlarımızın birinci sıraları göründü. Süngü meşələri gəlir. İrəli gəldikcə qan coşur. Millət övladlarının "Türk Ordusu" nəğmələri xalq ürəklərinə soxulub "Yaşasın Ordumuz" dedirtdirir. Əvvəl piyada, piyadalardan sonra mitralyoz, topçu və süvarilər. Süvari dəstəsi olduqca calibi-diqqət idi. Zira əllərində uca nizələr, ucunda Milli Bayraq, əski Qafqaziya qaydası üzrə zurna çala-çala yürüyürdülər.

**Bulvar qarşısında**

Qoşun Telefonnı, Bolşaya Morskaya, Malakanskaya, Parapet və Mixaylovski soqaqları ilə bulvar qarşısına gələrək durdu. Burası bir başqa şayani-tamaşa [tamaşaya layiq yer], böyük bir mənzərə idi. Kəsrəti-izdihamdan [izdihamın çoxluğundan] səkilərdə yürümək mümkün olası bir şey deyildi. Bulvarın hasarı, mərdivən, dükanların içləri və balkonlar xıncaxınc məmlu [dolu] idi. Polis nəfəratı qayda və nəzarəti saxlamağa çalışırdı. Qoşun burada durdu. General Həbib bəy Səlimzadə ahənin [dəmir kimi, cingiltili] səda ilə komanda verərkən taqım zabitanı [zabitləri] təkrar edərək də qoşun qitəatı [hissələri] bir təni-vahid kimi [hamı bir nəfər kimi] hərəkətə gəlib komanda əmrlərinə itaət edirdilər.

Sabiq gömrükxana qarşısında ordu vürudunu [gəlişini] təbrik üçün təşrif gətirmiş xüsusi nümayəndələr heyəti hazır idi. Burada bütün Parlaman əzası, başda Məşixət üzvləri müftü Mustafa əfəndi [Əfəndizadə], Şeyxülislam Molla Ağa [Ağaəlizadə] həzrətləri olmaq üzrə, üləma [ruhani alimlər] heyəti, Bakı Ünas [Qadın] Cəmiyyəti-Xeyriyyəsi heyəti, Bələdiyyə Məclisi tərəfindən başda Bələdiyyə Məclisi rəisi İlyuşkin olmaq üzrə bir heyəti-müraxxəsə [nümayəndə heyəti], Dağıstan, Gürcüstan, Lehistan [Polşa] nümayəndələri heyəti dəxi isbati-vücud [iştirak] edirdilər.

Bir az keçmədən əyan, başda Hacı Zeynalabdin Tağıyev olmaq üzrə təşrif gətirdilər. Hökumət dairəsində milli bayraqlar təməvvüc edirdi [dalğalanırdı]. İzdiham bir ağızdan "Yaşasın Azərbaycan" deyə əl çalmağa başladı. "Hökumət gəlir" səsi eşidildi. Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski və başqa nazirlər həzəratı alqış altında təşrif gətirdilər.

Bu vaxtda İngiltərə orduları Baş komandanı Şattlvort və polkovnik Klatterbak öz məiyyətləri [müşayiətçiləri] ilə bərabər süvari olaraq ordu qarşısından Azərbaycan bayrağı altından keçərək qoşunlara "xoş səfa" edib hökumət duran yerə qayıtdılar. Parad Hərbiyyə nazirini bəkləyirdi.

**Hərbiyyə naziri**

Avtomobil şeypurunun səsi eşidildi. Hərbiyyə naziri Səməd bəy Mehmandarov həzrətləri Məsai [Əmək] naziri Aslan bəy Səfikürdlü ilə bərabər gurultulu xalq alqışı və əsgəri musiqi tərənnümü içərisində təşrif gətirdilər. Heyətlərlə salamlaşmadan əvvəl öz məiyyəti və Rəisi-vükəla ilə bərabər qəhrəman əsgərimiz tərəfinə gedib, "Mərhəba!" derkən qoşun tərəfindən "Çox sağ ol!" deyə cavab verilən səslərlə taqımları titrəyirdi. Rəisi-vükəlanın "Salam əleyküm" deməsinə, əsgərlərimiz "Əleykə salam" deyə cavab verirlər.

Bundan sonra Hərbiyyə naziri heyətlərə tərəf alqışlar içində yürüyərək tam bir türk salamı ilə əlini öpüb gözləri üstə qoyaraq pişvaz edənləri salamladı.

Birinci olaraq Rəisi-vükəla həzrətləri Hərbiyyə nazirinə və Orduya müraciətən bu məzmunda bir nitq irad etdilər [nitq söylədi]:

*"Qəhrəman əsgərlər! Bu gün Azərbaycanın böyük, şanlı bir bayramıdır. Azərbaycanın paytaxtına Azərbaycanın şanlı, igid qoşunları gəldilər. O qoşunlar ki, daima öz şücaətləri və qəhrəmanlıqları ilə məşhur olmuşlardır. O qoşunlar ki, sinələrini daima sipər etməklə vətən və milləti mühafizə və müdafiə etmişlərdir. Xudanəkərdə [Allah göstərməsin] yenə müharibə üz verərsə, mən əminəm ki, yenə öz qanınızla namusunuzu, şərəfi-millinizi müdafiə və mühafizə edəcəksiniz. Sülh zamanı isə hamı millətlərin ədalət və müsavat üzrə yaşamaqlarını təmin edəcəksiniz. Ümidvarıq ki, öz vəzifənizi layiqincə ifa etməklə bütün millət və vətəni şad edəcəksiniz. Allah sizi xoşbəxt etsin! Allah sizin qılıncınızı kəskin etsin! Siz Azərbaycanın, müstəqil vətəninizin paytaxtına xoş gəldiniz! Yaşasın müstəqil Azərbaycan! Yaşasın əsgər və zabitan! Yaşasın ordumuzun böyüyü Mehmandarov cənabları!"*

"Yaşasın" və "var olsun" səsləri asumana bülənd oldu.

Sonra müftü həzrətləri bu məzmunda bir nitq irad edir:

*"Millətimiz və vətənimizin ruhi-həqiqisi qəhrəman əsgərlər! Xoş gəldiniz!*

*Möhtərəm bir qonaq gəldikdə xalq onu pişvaz edər, o qonağın gəldiyi yollara gül tökərlər, xoş səfa edərlər. Fəqət bir şey də vardır ki, o da möhtərəm qonağı kütübi-səmaviyyə [səmavi kitablar] ilə qarşılarlar, Allah amanında olmağını diləırlər. Binaənileyh [ona görə], mən kitabi-müqəddəsimiz olan "Qurani-şərif" ilə sizi, siz möhtərəm qonaqları pişvaz edirəm və bu ayeyi-şərifə ilə sizi qarşılamaq istəyirəm:"*

"Və ləqəd kətəbna fit-Tövrati və yerisuha ibadiyəs-salihunə" ayeyi-şərifəsini tilavət edir [oxuyur].

*"Allah-taalanın müjdəsi sizə olsun! Yaşasın ordumuz! Yaşasın müstəqil Azərbaycan!"* – deyə nitqinə xitam verir.

Bədəhu [sonra], Şeyxülislam həzrətləri xütbə tilavət etdikdən [oxuduqdan] sonra deyir:

*"Qəhrəman qoşunlar! Behiştin qapıları sizlərdən ötrü açılmışdır. Siz əllərinizə silahlarınızı aldınız ki, "Quran" və irz-namusunuzu mühafizə edəsiniz. Deyirlər ki, hazır ol cəngə, əgər istər isən sülhü-səlah. Siz zamin olmusunuz Allah hüzurunda ki, millət və dini mühafizə edəcəksiniz. Ümidvaram ki, öz vəzifənizi layiqincə ifa edərsiniz. Yaşasın Azərbaycan əsgərləri!"*

.... rusca nitqində Bələdiyyə İdarəsi tərəfindən Azərbaycanın paytaxtına qəhrəman ordunun vürudunu [gəlişini] təbrik edir.

Bakı müsəlman ünas cəmiyyəti [qadınları] tərəfindən dəxi [bir] xanım əfəndi ordunu təbrik edir.

Lehlər [polyaklar] tərəfindən gəlmiş nümayəndə uca səslə təbrikə başlayaraq deyir:

*"Mən, lehlər tərəfindən sizi, qəhrəman əsgərləri təbrikə gəldim. Biz lehlər səmimi-qəlb ilə sizi təbrik ediriz. Zira, 18-ci əsrdə Lehistanın azadlığı yolunda qəhrəman türklər sinələrini sipər etmişdilər. Biz də öz ordumuzu təbrik etdik. Şimdi sizin də müstəqil ordunuzu təbrik edəriz. Yaşasın Azərbaycan ordusu!"*

Sonra gürcü ataşemilitəri [hərbi attaşesi] əsgəri salam vəziyyətində duraraq təbrik edir və nitqinin axırında:

*"Yaşayınız siz və sizin komandanınız general Mehmandarov və zabitan!"*

Bundan sonra general Həbib bəy Səlimzadə həzrətləri – "Bayraqçılar, irəli!" komandası verərək "Salam marşı" komandasından sonra, taqımlar cümbüşə [hərəkətə] gələrək əsgəri musiqi tərənnümatı ilə Hökumət dairəsi qarşısından Sadovı küçə ilə qalxır. Buradakı görünüş başqa bir görünüş idi. Aşağıdan yuxarı çıxan, mahnı oxuyan ordunu tamaşa edənin qəlbində nələr oyanmayırdı? Süngülər meşə kimi görünür, qəhrəmanları müşayiət edən xalq şitab ilə [tələsə-tələsə] ardlarınca qoşurdu.

**Qadınların göz yaşları**

Bələdiyyə İdarəsi milli bayraqlarla bəzənmiş, Müqəddəs Nina ünas [qız] məktəbi qarşısında cəm olmuş yüzlərcə islam qadın və kişiləri ordunu göz yaşları ilə salamlayır. Onların qarşısından ötdükdə işbu sözləri eşidirəm:

*"Allahköməyiniz olsun, oğullarımız, balalarımız! Bir vaxt bizləri əsir etdilər. Xırda çocuqlarımız ilə çöllərə dağıldıq. Yanan evlərimiz, talan olan mallarımız sizə qurban olsun. Pərvərdigara, şükür olsun qəhrəmanlarımız, sütunlarımız gəldi. Şimdi rahat yatarız."*

İslam qadınları şadlıqlarından ağlayırdılar. Buradan keçənlər dəxi bilaixtiyar şadlıqlarından ağlamağa məcbur olurdu.

**Parlaman qarşısında**

Gurultulu alqışlar, "Yaşasın Ordu!" sədaları altında qoşun Parlaman qarşısına gəlir. Ətraf balkonlardan qoşunların üzərinə güllər saçılır. Parlamanın üzərində al və milli bayraqlar təməvvüc etməkdədir [dalğalanmaqdadır].

Parlaman dairəsi böyümüş kimi nəzərə çarpır, insanın gözlərinə yerləşməyir. Buradan asılmış hər bayraq, hər xalı belə qəhrəman igidləri – namus və şərəfi-milli mühafizlərini salamlayır, yellənir. Kəmahüvə [sanki onu] bağrına basıb öpmək, qucmaq istəyir. Yanmış, qara geyinmiş "İsmailiyyə" belə sanki bütün qəmlərini, yaralarını yaddan çıxartmışdı. İçərisinə asılmış dəmir parçalarını təprədərək ordunu salamlayırdı.

Burada artıq hər kəs ağlayırdı. Parlaman əzası, başda Parlaman sədri Həsən bəy Ağazadə həzrətləri olaraq, ordunu pişvaz edərək nitq irad eyləyir. Nitqinin axırında:

*"Əminəm ki, siz türk qəhrəmanları sayəsində istiqlaliyyətimiz binası möhkəmləşəcək, milliyyətimiz əsasları mətanət kəsb edəcəkdir [əldə edəcək]. Yaşasın ordu! Yaşa, çox yaşa, türk qəhrəmanları! Yaşa, Hərbiyyə qəhrəmanı Səməd bəy! Yaşasın müstəqil Azərbaycan!"*

Qoşunlar bir ağızdan "Yaşa!" deyir. Bundan sonra musiqi tərənnümü ilə Parlaman qarşısından qoşun Bazarnı küçə ilə Salyan qışlalarına tərəf gedirlər.

**Yaşa, Ordu!**

Bazarnı küçəyə yavuq olan küçələr belə əhali ilə dolmuşdu. Burada xalq ağlayır, bir-birini öpür, "Bayramın mübarək!", "Gözlərin aydın!" deyirdi. Xalq ordunu mümkün olsaydı bağrına basacaqdı, duz kimi yalayacaqdı. Aldıqları yaralarına məlhəm kimi sürtəcəkdilər. Artıq, Bazarnı küçədə milli hissin aşıb, coşub-daşmasını gördük. Alqış, "Yaşa, Ordu!" səsləri asumana bülənd olub havada gurlayırdı.

Qəhrəmanlar da xalqı təbəssümlə salamlayır, qadınlar xeyir və dua edir, gənclər orduya gedəcəklərini deyirlər. Nerəyə qulaq verərsək, çocuğundan qocasınadək "Daha artıq vaxt o vaxt deyil. Körpələrimiz də, ağsaqqalılarımız da, lazım olarsa qadınlarımız da orduya gedəcək, Azərbaycanın istiqlaliyyətini saxlayacaq!" sədalarını eşidirdik.

Ordunu gurultulu alqışlar altında xalq qışlalara kimi müşayiət etdi. Fəqət xalq qayıtmaq istəməyirdi. Bir çoxu orada yatacağını söyləyirdi.

"Yaşa, Ordu! Şimdi ölsək də eybi yoxdur" – deyə xalq Allaha şükürlər edirdi. Şəhərin bir çox yerlərində qurbanlar kəsilmişdi.

## BAKI XƏBƏRLƏRİ

**Mütəəllimlər arasında**

- Qafqaziya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi cümə və bayram günlərindən başqa hər gün saat 4-dən axşam saat 6-ya qədər açıqdır. Yekşənbə [bazar] günləri səhər saat 11-dən 1-ə qədər və 5-dən 6-ya qədər. Komitə ilə işi olanlardan göstərilən vaxtlarda Komitəyə müraciət etmələri xahiş olunur. Adres: Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə, Mərkəzi Ev Komitəsinin dükanı cərgəsində. Poçta qutusu N 273.
- Düşənbə [bazar ertəsi] günü, aprelin 7-də, saat 4-də Qafqaziya Müsəlman Mütəəllimləri Mərkəzi Komitəsinin iclası vaqe olacaqdır. İclas ikinci dəfə dəvət edildiyinə görə, hər nə qədər üzv gəlmiş olsa, qanuni hesab ediləcəkdir. Yoldaşlardan xahiş olunur yubanmayıb müəyyən vaxtda təşrif gətirsinlər.

* Son günlər Bakıda Könüllü ordu zabitlərindən bir çoxlarının həbs edildiyi və əzcümlə [o cümlədən] 39 zabitin həbslə Gəncəyə göndərildiyi söylənir.

* Sosialist "Nabat" qəzetəsi yazır ki, ingilis gəmilərində iğtişaş olub, gəmi nəfəratından 200-ü həbslə İrana göndərilmişdir.

* Məsai [Əmək] naziri Ticarət nazirindən təvvəqe etmişdir ki, şərabxana açmaq istəyənlərə şəhadətnamə verməsin və verilmiş olanları geri alsın.

## AZƏRBAYCANDA

**Salyanda şühədayi-vətən ziyarəti**

Məlum olduğu vəch üzrə Salyan müharibəsində şəhid qalan Osmanlı-Salyan şəhidlərinin türbələri, həpsi bir məqamda vaqe olaraq qəbristanımızda mədfundurlar [dəfn edilmişlər].

İşbu Novruz bayramı münasibətilə məzkur şühədanın [adı çəkilən şəhidlərin] türbələri ziyarətinə getmək, "heyəti-mütəşəbbisə" [təşəbbüs heyəti] adlanan bir qaç zəvati-möhtərəmə [möhtərəm şəxslər] tərəfindən təşəbbüs və təsvib edilmişdi [bəyənilmişdi].

Həmin mart ayının 21-də (bayram axşamı) heyətimizi[n] dəvəti üzərinə üləmamızdan [ruhani alimlərimizdən] Ağa Seyid Bağır ağa və bəzi axund və mollalar, qəza qaimməqamı [qəza rəisi] və müavini, polislər komissarları və nəfəratı [nəfərləri], rüşdiyyə məktəbi müəllimləri, sərvətdarlardan bir çox zəvat və başqa sinif xalqımızdan bir cəmiqəfir [böyük bir qələbəlik] məhzən [məhz, sırf] şu məqsəd üçün cameyi-şərifimiz həyatinə toplanmışlardı.

Bu anda Salyan rüşdiyyə məktəbi mütəəllimləri [şagirdləri] əllərində al bayraq olduğu halda şühəda namına tərtib edilən müəssir [təsirli] bir marşı oxuya-oxuya kamali-intizamla came həyatinə gəldilər.

Həyatə toplanan bu cəmi-qəfir üzərinə bazar əhalisindən də bir çox izdihamlı xalq gələrək, mütəəllimlər marşlarını oxuduqları halda əllərində uca bayraqlar olaraq axın-axın qəbiristana tərəf yürüməyə başladılar.

Şühəda qəbirlərinə tərəf yürüməkdə olan xalqımızda başqa bir ruh, başqa bir hissiyyat, istiqlaliyyətə susamış millətlərin istiqlaliyyəti-tamməyə nail olduqları sırada göstərə biləcəkləri qədər sevinc duyulur, çöhrələrdə, üzlərdə məsərrət və başaşət [sevinc və xoşbəxtlik] əlaməti müşahidə edilirdi. Bu gün bütün qəlblər, ürəklər giryan olduğu [ağladığı] halda, çöhrələr, gözlər parlaq və əmin bir istiqlala qarşı xəndan idi [gülürdü].

Şühədanın qəbirləri üzərində iyirmiyə qədər "Qurani-kərim" qareləri [oxuyanlar] bir sırada oturaraq "Quran" tilavət edirlərdi [oxuyurdular]. Məclisin ortasına xitabət üçün bir kürsü qonulmaqdan maəda [əlavə], məclis də xalılarla təfriş və təzyin edilmişdi [döşənmiş və bəzənmişdi] və bayram münasibətilə etiyadımız [adətimiz] üzrə bəzənmiş xonçalar da böyük bir masanın üzərində dururdu.

Əvvəlcə "Qurani-kərim" tilavət edilmiş olduğundan, xətm olunmağa şüru edildi [başlandı; girişildi]. Xətm əsnasında bütün hazirun bir ağızdan qərra [təntənəli] səslərlə təkbirxan olurdu.

Tilavət bə'dində [sonrasında] axund Molla Hüseyn (rövzəxan) əfəndi üləma namından [adından] kürsiyi-xitabətə gələrək din, namus uğrundakı şəhadətin füyuzi-üzmasından [böyük feyzlərindən], həyati-müvəqqətlə həyati-əbədiyyənin nədən ibarət olduğundan bəhslə bu şühədanın fədayi-can etmələrini də həqqaniyyət və ədalətin ən böyük qəhrəmanı həzrəti-Hüseyn əleyhissalam şəhadətinə tətbiq edərək, müəssir bir nitq irad etdi və türbələrə xitabən "mürdəhara zindəkərdi afərin bərmordənət" dedi.

Mumaileyhi mütəaqib [adı çəkilən şəxsin ardınca], Rüstəm İskəndərzadə mühərrirlər [yazıçılar; qəzetçilər] namından [kürsiyi-]xitabətə çıxaraq "Qurani-əzimüşşanımızın" [şanı uca Quranımızın] "Və lə təhsəbənnəlləzinə qutilu fi səbilillahi əmvatən bəl ehyaun ində rəbbihim yurzəqunə" ayəti-kərimisi müfadına [mənasına] tətbiq edilən doktor Abdullah Cövdət bəyin:

*"Əz mərge ma məbad fərəhyab əhle zolm*
*Səd Tuba qiyam bər arəd türabe ma!"*

şeiri fəhvasınca [mənasına uyğun olaraq] şühədayi-din və vətənin [din və vətən şəhidlərinin] ilələbəd [əbədi] yaşayacaqlarını və bu məclisin "tubayi-qiyam"dan bir kiçik nümunə olduğunu bütün təfsilatı ilə zikr etdikdən sonra, Salyan və ətraf islamlarını qəddar erməni-bolşevik süngüləri altından xilas edən şanlı türk qəhrəmanlarının türbələrinə xitabən atəşin bir nitq irad etdi [nitq söylədi].

Bunu mütəaqib [bunun ardınca] qəza qaimməqamı Yusifzadə Əliheydər bəy əfəndi polis və hökuməti-məhəlliyyə [yerli hökumət] namından xitabət kürsüsünə gələrək: "Kəndi yurdlarından iraq düşərək bizim üçün şəhid olan bu türk qəhrəmanlarının ölümdən əbədən qor[x]-mamağı, namus uğrunda fəda olmağı bizlərə bir sərməşq [nümunə, timsal] verdiklərini, bu qurbanların pək çox dəyərli, qiymətli olduqlarını və hər il başında daha mütəntən [təntənəli] bir surətdə dərxatir ediləcəklərini [yada salınacaqlarını] və binaənileyh [ona görə], türbələrinin də layiqi vəch üzrə təmir edilərək "abidələr" yapılmaq üçün xüsusi bir dəftər açacağını" nitqvari zikr ilə bu məqsədə kəndisinin iki min manat ianə etdiyini qeyd və bəyan etdi.

Qaimməqamı mütəaqib məktəb və maarif namından müəllim Əli bəy Qasımov cənabları mövqeyi-xitabətə keçərək türklüyün, türk milləti-nəcibəsinin [nəcib türk millətinin] tarixi, türk cəsarət, mətanət və qəhrəmanlıqları və türkün igid "Uluqbəyləri" xüsuslarında müfəssəl və qərra [parlaq] tarixi bir nitq irad edərək, bu dəxi sair natiqlər kimi türbələrə qarşı bir çox müəssir kəlimat [təsirli sözlər] söylədi.

Lakin bunu da zikr etmədən keçməyiz ki, mumaileyh [adı çəkilən] əfəndidə təəssüf ediləcək bir hal vardısa, o da bütün məvane məfqud ikən [maneələr aradan qaldırılmışkən], başda əcnəbi papağının (şapkasının) bulunması idi. Ehtimal ki, bunun da xüsusi bir səbəbi olsun. Fəqət bizimlə məclisdə isbati-vücud [iştirak] edən bir xristian vətəndaşımızın başında biləks [əksinə] islam papağı görülürdü...

Nitqlərdən sonra fəqir çocuqlara bayramlıq olaraq bəzi ehsanlar olunaraq, fatiheyi-xeyir oxunub məclis xitam oldu.

Ələlümum [ümumiyyətlə], məclis könül arzu edəcək dərəcə gözəl keçmişdir. İştə istiqlaliyyətimiz uğrunda birinci fədayi-can edən şühədayi-vətənin türbələri ziyarətini bu surətlə icra eyləyən əhalimizin şu hərəkətləri qəviyyən şayani-şükran olmaqla [təşəkkürə, minnətdarlığa çox layiq olmaqla] bərabər, yenə istiqlaliyyətin qədr və əhəmiyyətini dərk etməyimizi andırır.

Bu hərəkəti-vətənpəsəndanənin [vətənpərvərlik əməlinin] heyəti-mütəşəbbisi [təşəbbüs heyəti] ədd [hesab] edilən müəllim Molla Əziz Babazadə, Molla Hüseyn Qasımov və Əsədulla Yaqub[ov] əfəndilərə ayrıca ərzi-şükran edir [minnətdarlıq bildirir] və bu məqsəd üçün toplanan paralardan əlavə olaraq kəndi kisəsindən bir çox paralar sərf edən mumaileyh [adı çəkilən] Əsədulla Yaqubov əfəndiyə təkrar ərzi-təşəkkür eyləriz.

*İskəndərzadə*

## BİZƏ YAZIRLAR

Keçən gün mart ayının 12-də Yevlax stasyonunda durduğumuz halda Bakıdan gələn 21 nömrəli trendə bir nəfər iranlı boğulub deyə meyiti yolun kənarına tullayıbdırlar, dedilər. Oradakı islamlardan isə bu meyit nə millət meyitidir deyə də olsun sual edən yox idi. Stasyon mühafizlərinə o meyitin qoxuyacağından nifrət edərək, o meyiti oradan götürdün deyə şikayətlər edirlərdi. Axırda mühafizlərin bir neçəsi orada olan iranlı fəhlələrindən beş nəfərini cəbrən döyərək, o meyit iranlı meyitidir, götürün bir tərəfdə basdırın, deyə apardılar. Onlar da şallaq zərbəsinə davam edə bilməyib naəlac gedib o meyiti götürüb yoldan kənarda bir yer qazıyıb, oraya salıb, üstünü torpaqladıqları əsnada İngiltərə qoşununun islam əfradlarından [fərdlərindən] biri bu halı görərək gəlib iranlılardan "Cənazə islam, ya kafir" deyə sual edir. Onlar, bəli, islam, müsəlmandır, deyə cavab verirlər. O saat onlara basdırmayıb, bir qədər dayanmalarını əli ilə qandırıb təcili qayıdır. Arxada olan islam əfradlarına xəbər verərək tamam yüz nəfərə qədər gəlirlər. Sonra o meyiti oradan götürüb kənara qoyaraq, libasını soyundurub su hazır edirlər və qüsül verib və özləri üçün götürdükləri kəfəndən birinə büküb və bir məzar hazır edərək səf çəkib namaz qılırlar və ehsan olmaq üzrə kişmiş alıb hazirunlara dəfndən sonra payladılar. Mən də özüm də orada hazır idim. Bu təzimi mən heç bir müsəlmanın dəfnində görməmişdim. O meyit yumaq zamanına gəldikdə hər biri bildikləri "Quran" ayələrindən oxumağa başlayaraq ta meyitin üstünü örtüb qurtarana qədər oxumaqda idilər. Onların o tanımadıqları bir cənazəyə nə qədər təzim və təkrim [hörmət] etmələri təəccüb idi. Bu əhvalı görüb öz-özümə dedim ki: yaşasın ümum islamlar üxüvvəti [bütün müsəlmanların qardaşlığı]!

*Səfərzadə Başir*

## BƏYANİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm, cənabınızdan rica edirəm, mənim bu bir neçə kəlmə təşəkküratımı qəzetənizin bir sütununda dərc edəsiniz.

Mən zeyldə ismi mühərrər [aşağıda adı yazılan] Məhəmmədhüseyn Axundzadə artıq dərəcədə biçiz [yoxsul] və fəqir bir ailəyə mənsub olduğum halda, 56 sənə bundan əqdəm İsa bəy Aşurbəyli cənabları mənim xərcimə kəfil olub məni oxutdurdu. Bu gün müşarünileyhin [adı çəkilən şəxsin] hümməti sayəsindədir ki, oxuyub kəndi-kəndimi gözəlcə idarə edirəm. İsa bəy cənablarının bu hümməti ancaq mənə şamil deyildir, məndən başqa çox adamları məsud etmişdir. Kamalirizaməndliyimi müşarünileyhə izharla əmsalının artmasını istirham edirəm.

*Məhəmmədhüseyn Axundzadə*

## İDARƏDƏN CAVABLAR

Göyçayda Molla Gülməhəmməd Hacı Əhməd oğlu əfəndiyə: "Müfəttinlik" [fit-nəkarlıq] sərlövhəli məqalənizdə bəzi müsəlmanlarımızın keçən müəssif [təəssüf doğuran] günlər əsnasında öylə rəzalətli hərəkətlərindən bəhs olunur ki, çapını mümkün bilmədik. Səy etməlidir ki, türklük və islamlıq şərəfi həmişə və hər bir mövqedə uca dursun.

Ağdaşda Miskinzadə əfəndiyə: Məqalənizi bir qədər təfsilatı ilə yazıb Ağdaş məbusu Muxtar Əfəndizadə cənablarına göndəriniz ki, şikayətlərinizi lazım olan yerlərinə bildirsinlər.

Mərdəkanda Feyzulla Qasımzadə əfən-diyə: Müəllim yetişdirmək üçün hökumətimiz tərəfindən darülmüəlliminlər [seminariyalar] açılmaqdadır. Bu darül-müəlliminlərdən biri Qazaxda mövcud olub, biri də Bakı şəhərində açılmaq üzrədir.

**Opera**

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Müdiriyyətin rejissoru artist
Hacıbaba Şərifovun və artistkası
Xanım Y. N. Olenskayanın
şərəfinə (benefisinə)
Düşənbə günü rəcəbül-mürəccəb
ayının 6-da 1337 sənəsi
(aprelin 7-də 1919-cu ildə)
təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
2-ci dəfə
**"Şah İsmayıl"** operası
Müsənnif və bəstəkarı Müslüm bəy
Həmin operada qızlar
və oğlanlar xoru olacaqdır.
Şah İsmayıl – Sarabski
Aslan şah – Hacıbaba Şərifov
Gülzar xanım – Y. N. Olenskaya
Biletlər benefis qiymətinə indidən teatrın kasasında
satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 8-in yarısında.

**İtibdir**

Yusifəli Cəlil oğlu, 10 yaşında, əynində boz pencək, qara papaq, orta boylu. 10 gündür itibdir. Onun barəsində məlumatları olan şəxslərdən acizanə təvəqqe edirəm ki, gəlib mənə xəbər versinlər. Ünvan: Kamenski küçə, nömrə 40. Hacı Ağababa Cavad oğlu.

*5786*

**Elan**

Mən, Mirzə Vəli Əliyev Mirtağı Mirmehdiyevə verdiyim vəkalətnaməni puç edirəm.

*5781*

**İtibdir**

Ərəş uyezd naçalniki tərəfindən Allahverən İsmayıl oğluna (Ağdaşlı) verilən əbədilik pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*5784*

**Satılır**

Bir cüt ingilis kravatı, güzgülü şkaf, umıvalnik [əlüzyuyan], qarderob və venski stullar [Vyana stulları]. Ünvan: Suraxanski küçədə nömrə 253, döngədə (tupikdə) 2-ci mərtəbə, səhər saat 10-dan axşam saat 6-ya qədər.

*5787*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Diş həkimi**

Varşavadan gəlmiş S. A. Yejevski. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üz-bəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"87-ci maddə isə…": qəzetdə "87" yerinə "78" getmişdir.

***Teleqraf xəbərləri***

"İ. M.": "İdişe morqenpost" [Yidishe Morgenpost] qəzeti nəzərdə tutulur.

"Proskurov": Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

"Çeqedin": Macarıstanın cənubunda yerləşən Seqed şəhəri nəzərdə tutulur.

"Əfqan əmiri qətl edildikdən sonra…": 1901-1919-cu illərdə Əfqanıstan əmiri olan Həbibulla xan (1872-1919) nəzərdə tutulur.

***Sülh ətrafında***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

***Ələkbər bəy Rəfibəyov***

"İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

"Rəhmətullahi əleyhə rəhmətən vasia!": Allah ona çoxlu-çoxlu rəhmət eləsin!

"O kimsələr ki, Allah yolunda tərki-həyat etmişlər, məgər onları ölmüş hesab edirsiniz? Onlar ölməmişlər. Onlar ta qiyamətədək diridirlər!": "Quran"ın "Ali-İmran" surəsinin 169-cu ayəsi nəzərdə tutulur.

***Ordumuzun paytaxta vürudu***

"Nikolayevski caddəsi ilə dəniz kənarı": Bakıda, indiki İstiqlaliyyət küçəsi ilə Neftçilər prospekti nəzərdə tutulur.

"Bazarnı": Bakıda, indiki Azərbaycan prospekti.

"Bolşaya Morskaya": Bakıda, indiki Bülbül küçəsi.

"Telefonnı, Bolşaya Morskaya, Malakanskaya, Parapet və Mixaylovski": Bakıda, indiki 28 May, Bülbül, Xaqani küçələri, Fəvvarələr meydanı və Əziz Əliyev küçəsi nəzərdə tutulur.

"Və ləqəd kətəbna fit-Tövrati və yerisuha ibadiyəs-salihunə": Ərəbcə; mənası: "And olsun ki, Biz, Tövratda yazdıq: və təmiz qullarıma miras qalacaq." Bu cümlə, "Quran"ın "Ənbiya" surəsinin 105-ci ayəsinin təhrif edilmiş şəklidir. Ayə və tərcüməsi belədir: "Və ləqəd kətəbna fiz-Zəburi min bə'diz-zikri ənnəl-ərzə yerisuha ibadiyəs-salihunə": "And olsun ki, Biz, zikirdən (Tövratdan) sonra Zəburda da yazdıq: yer üzü təmiz qullarıma miras qalacaq."

"… rusca nitqində Bələdiyyə İdarəsi tərəfindən": əvvəli silinmişdir; burada çox güman ki, Bələdiyyə İdarəsi sədri İlyuşkindən danışılır.

"Sadovı küçə": Bakıda, indiki Şövkət Ələkbərova küçəsi.

"…yüzlərcə islam qadın və kişiləri…": qəzetdə belə getmişdir: "yüzlərcə islam qadın vəkilləri".

***Azərbaycanda***

"xətm", "xətm olunmaq": "Quran"ı başdan-sona qədər oxuyub qurtarmaq; həm bir nəfər tərəfindən, həm də bir neçə nəfər tərəfindən birgə icra edilə bilər.

"təkbirxan olmaq": təkbir oxumaq; "Allahu əkbər" demək.

"mürdəhara zindəkərdi afərin bərmordənət": "ölüləri diriltdin, ölümünə afərin!" (farsca)

"Və lə təhsəbənnəlləzinə qutilu fi səbilil-lahi əmvatən bəl ehyaun ində rəbbihim yurzəqunə": "Quran"ın "Ali-İmran" surəsinin 169-cu ayəsi. Mənası: "Allah yolunda öldürülənləri heç də ölü zənnetmə; əsl həqiqətdə onlar diridirlə; onlara Rəbbi yanında ruzi verilir."

"Əz mərge ma məbad fərəhyab əhle zolm / Səd Tuba qiyam bər arəd türabe ma!": "Zülm əhli bizim ölümümüzdən fərəhlənməsin / Torpağımızdan yüz Tuba [ağacı] bitər." (farsca)

***İdarədən cavablar***

"Müfəttinlik": qəzetdə "Müfəttinliyi" kimi getmişdir.

***İtibdir***

"Kamenski küçə": güman ki, "Kamenisti küçə" (indiki Başir Səfəroğlu küçəsi) olmalı idi.

XXXIII Paris Yay Olimpiya Oyunları

# Parisə fərəhlə, Bakıya zəfərlə



# Fransada Azərbaycan imzası

## İdmançılarımız Paris Olimpiadasını 7 medalla başa vurdular







Hidayət Heydərov, cüdo, qızıl medal



Zelim Kotsoyev, cüdo, qızıl medal



Alfonso Dominqes, boks, gümüş medal



Qaşım Maqomedov, taekvondo, gümüş medal



Həsrət Cəfərov, yunan-Roma güləşi, bürünc medal



Giorgi Meşvildişvili, sərbəst güləş, bürünc medal



Maqomedxan Maqomedov, sərbəst güləş, bürünc medal

**Parisdə Olimpiya həyəcanı başa çatdı. Dünyanın 204 ölkəsindən 10 mindən çox idmançının qatıldığı turnirdə qalib olmaq hər bir atletin arzusu idi. Planetin ən güclülərinin mübarizəsində ilk 3 pillədən birində yer almaq son 4 ildə gərgin və ciddi formada hazırlığın nəticəsidir.**

Əlbəttə, Olimpiadaya gedən hər bir idmançı yalnız qələbə barədə düşünür. Dördilliyin zirvə yarışına 48 idmançı ilə qatılan Azərbaycan komandası turniri 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurub. Qızıl medallar cüdoda, gümüş medalların 1-i boks, 1-i taekvondo, bürünc mükafatlar isə güləş yarışında qazanılıb.

Olimpiadada yarışan və qalib gələn idmançılar alqışla qarşılanır, onlar qarşıdakı turnirlərə daha məsuliyyətlə yanaşırlar. Amma ümidləri doğrulda bilməyən idmançılar da qınaq obyekti olmamalıdırlar. Sözsüz ki, uğursuzluq sonunda ayrı-ayrı idman növləri üzrə mütəxəssislər hər şeyi araşdıracaq, buraxılmış səhvləri nəzərdə saxlayacaq və lazımi nəticələr çıxaracaqlar.

Bir məsələni xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi. Heç kim deyə bilməz ki, əsas favorit idmançı Olimpiadada mütləq medal qazanacaq. Çünki dünyanın ən nüfuzlu yarışında qarşındakı rəqib də güclü idmançıdır, o da qələbə uğrunda mübarizə aparır. İdmanda təcrübə və hazırlıqla yanaşı, şans da, idmançının konkret məqamda əhvali-ruhiyyəsi də önəmli rol oynayır.

Medal sıralamasında isə vəziyyət heç də pis deyil. Belə ki, Olimpiya yığmamız Sidneydə 199 ölkə arasında 34-cü, Afinada 202 ölkə arasında 50-ci, Pekində 205 ölkə arasında 39-cu yeri tutmuşdusa, son Olimpiadada medalların sayına görə 30-cu olduq!

Cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev qızıl medallar qazanaraq ölkəmizin idman tarixinə yüksək töhfə verdilər.

Qızıl medalçılarımızın döyüş yoluna bir daha nəzər salsaq görərik ki, Olimpiadada heç bir qalibiyyət asan əldə edilmir. Parisdə ilk olaraq Hidayət Heydərov medal həsrətinə son qoydu. Dünya çempionumuz kolleksiyasına daha bir medal əlavə etdi. Özü də finalda fransalı həmkarını məğlub etməklə...

73 kiloqram çəkidə mübarizə aparan dünya reytinqinin birincisi Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başladı. Onun rəqibi 1/16 finalın Tohar Bitbul (İsrail) - Reduan Masud Dris (Əlcəzair) cütündə müəyyənləşməli idi. Lakin afrikalı bu qarşılaşmaya çıxmaqdan imtina etdi. Hidayət Olimpiadaya Bitbulla görüşlə start verdi. O, rəqibini məğlub edərək, mərhələni adladı.

H.Heydərov 1/4 finalda Artur Marqelidon (Kanada) ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma həmyerlimizin qələbəsi ilə bitib. İpponla qalib gələn Hidayət yarımfinalda kosovalı Akil Qyakovla üz-üzə gəlib. Bu mərhələdə də rəqibini üstələyən cüdoçumuz adını finala yazdırıb. Həlledici mərhələdə isə rəqib fransalı Joan-Benjamin Qaban idi. Çətin keçən qarşılaşmada rəqibinə ippon fəndi ilə qalib gələn Hidayət Olimpiya çempionu oldu. Bununla da Hidayət Heydərov bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atdı.

Növbəti qürur dolu anları Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, Dövlət himnimizi səsləndirib, bayrağımızı hamıdan yüksəkdə dalğalandırıb.

Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kiloqram çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Paltçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turoboyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız finala çıxıb. Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu adına sahib olub.

Boksçumuz Loren Alfonso Dominqes (92 kq) və taekvondoçumuz Qaşım Maqomedov (58 kq) "Paris-2024"ü gümüş medalla başa vurdular. Yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq), sərbəst güləşçilər Giorgi Meşvildişvili (125 kq) və Maqomedxan Maqomedov (97 kq) ölkəmizin aktivinə bürünc medalları yazdırdılar.

Ümid edirik ki, Parisdə idmançılarımızın qazandıqları 7 medal qarşıdakı turnirlərdə daha da artacaq. Həmişə olduğu kimi, atletlərimiz daha yüksək nəticələr qazanaraq xalqımızı sevindirəcəklər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Paris Olimpiadası başa çatdı




Fransanın paytaxtı Paris şəhərində XXXIII Yay Olimpiya Oyunlarının bağlanış mərasimi keçirilib. "Stad de Frans" stadionunda təşkil edilən tədbirdə əvvəlcə açılış mərasiminin ən yaddaqalan anlarının yer aldığı videoçarx nümayiş olunub.

Daha sonra meydanın mərkəzində dünya xəritəsi formasında hazırlanmış səhnəyə ölkələrin nümayəndə heyətləri daxil olublar. Ölkələrin rəsmi paradında Azərbaycan Bayrağını Olimpiadanın gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedov və bədii gimnastika üzrə yarışda 5-ci yeri tutan Azərbaycanın qrup hərəkətləri komandasının üzvü Zeynəb Hümmətova dalğalandırıblar.

Ardınca Paris Olimpiadasının son mükafatlandırma mərasimi baş tutub. Qadınlar arasında marafonun qalibləri fəxri kürsüyə dəvət olunublar. Niderlandlı Sifan Hassan qızıl, efiopiyalı Tiqst Assefa gümüş, keniyalı Hellen Onsando Obiri isə bürünc medala layiq görülüblər. İdmançılara mükafatları Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Bax və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastyan Kou təqdim ediblər.

Tədbirin bədii hissəsindən sonra Tomas Bax və "Paris-2024" Yay Olimpiya Oyunlarının təşkilat komitəsinin rəhbəri Toni Estanqe çıxış ediblər. Olimpiadanın rəsmi himni səsləndirildikdən sonra Olimpiya bayrağı endirilərək, yarışın növbəti təşkilatçı ölkəsi olan ABŞ-yə ötürülüb. Bayrağı Los-Anceles şəhərinin meri Karen Bas qəbul edib. Daha sonra tanınmış aktyor Tom Kruz bayrağı götürərək arenanı tərk edib. Ardınca "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarının tanıtım videosu yayımlanıb.

Sonda isə Olimpiya məşəli söndürülüb və dördilliyin idman yarışına yekun vurulub.

# "Bu da son"

Sərbəst güləşçi Hacı Əliyev (65 kq) peşəkar karyerasını başa vurub. O bu barədə sosial şəbəkədə paylaşım edib. "Bu da son" başlığı ilə edilən paylaşımda hər kəsə təşəkkür edib:

"Əziz doğma xalqım. Artıq uzun illərdir ki, çoxlu qələbələr gətirmişəm. Hər dəfə qələbə qazanıb bayrağımızı ən zirvələrə qaldırmaq və himnimizi səsləndirmək mənim üçün böyük şərəf olub. Çox sevinirəm ki, Allah mənə həyatda bu qədər qələbələr nəsib etdi, məni yüksəltdi, məni ölkəmə və dünyaya tanıtdı".

Bir vaxtlar atasının əlindən tutub güləşə gedən Hacı haradan bilərdi ki, bu qədər qələbələr qazanıb tarix yazacaq. "Qazandığım bu qələbələr tək mənim yox, bütün Azərbaycan xalqının qələbəsi olub. Güləş karyeram ərzində o qədər medal qazandım ki, cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi, "sənin nə qədər medalın var bəlkə özün də bilmirsən". Bu doğurdan da, belədir. Mənə bu günə qədər dəstək olan hər kəsə təşəkkür edirəm", - deyə Hacı Əliyev bildirib.





# Ən çox medal qazanan üzgüçü

"Paris-2024"də ən çox medal qazanan idmançı Yufei Çjan olub. Çinli üzgüçü Fransa paytaxtında 6 medala yiyələnib. Onun qazandığı medalların heç biri qızıl olmayıb. Yufei 1 gümüş və 5 bürüncə sahib çıxıb.

Qeyd edək ki, Çjan Tokio-2020 Olimpiadasında 2 qızıl və 1 bürünc medal qazanıb.

# Şikayət var

"Paris-2024"ün medal siyahısında dəyişiklik ola bilər. Buna səbəb 89 kq çəkidə kişi ağırlıqqaldıranların yarışında yaranan vəziyyətdir. Olimpiadanı 4-cü başa vuran Marin Robu bürünc medalı almağa iddialıdır. Bununla bağlı İdman Arbitraj Məhkəməsinə (CAS) müraciət olunacaq.



Moldovanın ağırlıqqaldırma federasiyası və Olimpiya Komitəsi 3-cü olan italiyalının Antonino Pizzolatonun nəticəsinin düzgün qeydə alınmadığını, 212 kq çəkini qaldırdığı son cəhdinin qaydalar çərçivəsində olmadığını iddia edir. Onlar bürünc mükafatın italiyalıdan alınması və Robuya verilməsini istəyir.

Qeyd edək ki, bu çəkidə Karlos May Nasar (Bolqarıstan) dünya çempionu olub - 404 kq (180+224). Kolumbiyalı Yeison Lopes 390 kq ilə (180+210) ikinci, Antonino Pizzolato 384 kq (172+212) nəticə ilə üçüncü olub. Robu 383 kq (175+208) çəki qaldırıb.

# Ən bərbad Olimpiya Oyunları



XXXIII Yay Olimpiya Oyunları Fransanın üzqarası kimi tarixə həkk olundu. Ta eramızın əvvəlindən bugünkü günümüzə qədər gəlib çatan və əsasən xalqlar arasında barışı, sülhü simvolizə edən Olimpiya Oyunları 2024-cü ildə Parisdə idman yarışları kimi yox, öz təməl qayəsindən uzaq, tamamilə insani dəyərləri aşağılayan, dini inancları ayaqlar altına atan Makron hakimiyyətinin siyasi sifarişlərinin həyata keçirildiyi ən bərbad tədbir kimi yaddaşlara həkk olundu.

## Olimpiadaya yaraşmayan ölkə

Açılış anından etibarən dünya XXXIII Yay Olimpiya Oyunlarında ard-arda baş verən utancverici hadisələrin şahidinə çevrildi. Təşkilatçılığın sıfır vəziyyətdə olmasından tutmuş, Sena çayının timsalında idmançıların həyatını təhlükəyə atan şəraitə qədər hər şey Fransanın qətiyyən olimpiadaya yaraşan ölkə olmadığını göstərdi.

Mötəbər yarışın açılış mərasimində Parisin nümayişkaranə şəkildə xristianlığı, İsa Peyğəmbəri təhqir etməsi beynəlxalq ictimaiyyətdə böyük təəssüf və hiddət doğurdu. Onsuz da müsəlman aləmi Fransanın dini ayrı-seçkiliyi ilə hər zaman üz-üzə olub. İslamofob ölkənin vaxtaşırı Məhəmməd Peyğəmbərin karikaturalarını dərc etdirməsinin fonunda da bu, aydın görünür. Ancaq evsahibliyi etdiyi bu Olimpiadada Paris aydın şəkildə sübut etdi ki, o həm də katoliklərə, ümumiyyətlə xristianlığa qarşı da qatı düşmən münasibətdədir. Əks təqdirdə, açılış mərasimində İsa Peyğəmbəri, onun həvvarilərini bu cür alçaltmazdı.

XXXIII Yay Olimpiya Oyunlarının açılışında cinsi azlıqların meydan sulaması isə nəinki dinə, ümumiyyətlə insanlığa qarşı təhqir idi. Təbii ki, Makronun transgenderlərlə bağlı şəxsi düşüncələri, istəkləri, planları ola bilər və heç kəs buna qarışmır. Lakin Makronun Fransanın Olimpiadaya evsahibliyi etməsindən sui-istifadə ilə bu mötəbər yarışı cinsi azlıqların keçid törəninə çevirməsi yolverilməzdir. Haqlı olaraq da Parisin bu hədsizliyi dünyada geniş rezonans doğurdu və etirazlara səbəb oldu.

## Himnimizin səsləndirilməsi Fransaya ən layiqli cavab oldu

Qədim dünyanın müasir zamanımıza mirası sayılan Olimpiadanın məqsədi insanları sülhə, barışa səsləməsidir. Hətta tarixdə nümunələr var ki, Olimpiada keçirilən zaman müharibələr belə müvəqqəti dayandırılarmış. Amma XXXIII Yay Olimpiya Oyunlarında bütün bu dəyərlər ayaqlar altına atıldı. Azərbaycanla hər zaman düşmənçilik aparan müstəmləkəçi və ermənipərəst Fransa Olimpiadanın açılış mərasimində də ölkəmizə qarşı riyakarlığını gizlədə bilmədi. Həmin zaman "France 2" telekanalı ölkəmizə qarşı qərəzli ifadələr işlətdi. Azərbaycan tərəfi dərhal təxribatla bağlı bəyanat yaydı. Azərbaycan Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə (BOK) rəsmi etiraz göndərildi. BOK tərəfindən Azərbaycanın rəsmi etiraz məktubuna münasibət bildirildi, "France2" telekanalının səsləndirdiyi qəbuledilməz ifadələrlə bağlı ölkəmizdən üzrxahlıq edilərək, bu ifadələrin Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təşviqinə çalışdığı prinsiplər və dəyərlərlə bir araya sığmadığı vurğulandı.

Bu nümunədən də göründüyü kimi, Fransa əlinə keçən hər fürsətdə ölkəmizə qarşı qarayaxma kampaniyası aparmağa çalışır. Amma o da gerçəklikdir ki, heç zaman buna nail ola bilmir və layiqli cavabını alaraq yerinə otuzdurulur.

Yeri gəlmişkən, Azərbaycan idmançıları XXXIII Yay Olimpiya Oyunlarından vətənə iki qızıl, iki gümüş, üç bürünc medalla döndülər. Parisdə Azərbaycan himninin səsləndirilməsi, üçrəngli, ay-ulduzlu bayrağımızın ən yüksək zirvəyə qaldırılması isə elə azərbaycanofob Fransaya layiqli cavab oldu.

## Parisin əsl siması

Fransanın Olimpiada biabırçılığı təkcə açılış mərasimi ilə bitmədi. Hələ hazırlıq mərhələsindən etibarən Fransanın qərəzli, insanlıqdan uzaq fəaliyyəti barədə xəbərlər sürətlə yayılmağa başlamışdı. Məsələn, Olimpiya Oyunları başlamazdan əvvəl miqrantlara qarşı amansızlıq nümayiş etdirilərək, onlar zor gücü ilə Parisdən didərgin salındılar.

Fransada oğurluğun, soyğunçuluğun, qaçaqmalçılığın, narkotik ticarətin baş alıb getdiyi məlumdur. Hər nə qədər Makron hakimiyyəti bunların üstünü ört-basdır etməyə çalışsa da, bacarmadı. Dünya Olimpiada günlərində Fransanın qaranlıq üzünü də görmüş oldu, bunlarla bağlı xeyli sayda çəkilişlər edilib paylaşıldı.

İdmançıların otaqlarında kondisionerlər quraşdırılmadığı üçün onlar məcbur olub öz vəsaitləri hesabına bunu həyata keçirdilər. Olimpiada iştirakçıları Fransada aclıq sınağına da tuş gəldilər, bəzən yeməyə heç nə tapmadılar. Antisanitar şəraitdən isə hər kəs şikayətçi idi.

İdmançıların yarışdan sonra mədə-bağırsaq sistemlərində yaranan problemlər Sena çayının əsl təhlükə mənbəyi olduğunu ortaya qoydu.

Ümumiyyətlə, hər gün müxtəlif ölkələrdən olan idmançıların dilə gətirdikləri narazılıqlardan aydın oldu ki, XXXIII Yay Olimpiya Oyunlarında təşkilatçılıq bərbad vəziyyətdə olub.

Bəli, dünyaya mədəniyyətdən, sağlamlıqdan, ekoloji təmizlikdən dəm vuran, Azərbaycanda COP29-un keçirilməsinə dil uzadan Fransanın əsl siması Olimpiya Oyunları ilə üzə çıxdı.

Əslində, bu heç də təəccüblü olmadı. Çünki Makronun idarəçiliyindəki Fransa bu gün dünyada hansı aşağı səviyyədədirsə, olimpiada təşkilatçılığı da elə o cürdür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Samuxda Vətən müharibəsi şəhidinin doğum günü qeyd edilmişdir

Samux rayonunun Əhmədbəyli kəndində Vətən müharibəsi şəhidi Elməddin Cəsur oğlu Mürsəlzadənin doğum günü ilə bağlı məzarı ziyarət olunub. Tədbirdə Samux Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhidin ailəsi, yaxınları, təhsil aldığı məktəbin müəllim və şagird kollektivi, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Əvvəlcə şəhidin məzarı üstünə gül dəstələri qoyulub, ruhuna dualar oxunub. Çıxış edənlər şəhidin keçdiyi şərəfli döyüş yolu və həyatı haqqında geniş məlumat veriblər. Daha sonra Əhmədbəyli kənd tam orta məktəbinin şagirdləri vətənəpvərlikdən bəhs edən şeirlər söyləyiblər.

Şəhid Elməddin Mürsəlzadə 7 avqust 2000-ci ildə Samux rayonunun Əhmədbəyli kəndində anadan olub. Gəncə Dövlət Universitetinin Pedaqoji fakültəsində qiyabi təhsil alırdı. 29 sentyabr 2020-ci ildə səfərbərlik üzrə hərbi xidmətə çağırılıb. O, Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüşlərdə kəşfiyyatçı kimi vuruşub, 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 17 oktyabr 2020-ci ildə Samux rayonunun Əhmədbəyli kəndində dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azercell

abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 13 avqust 2024-cü il tarixinə nəzərdə tutulmuş dəyişikliklər 3 sentyabr 2024-cü il tarixindən etibarən tətbiq ediləcək:

Fakturasız (SimSim) xətt sisteminə aid yeni nömrələr əldə edilərkən ödənilməsi nəzərdə tutulan 2 AZN məbləğində təsis haqqı ləğv edilir. Eyni zamanda Fakturasız (SimSim) xətt sisteminə aid yeni nömrələr üçün təqdim edilən "Xoş gəldin" kampaniyası dayandırılır. Qeyd olunan tarixə qədər "Xoş gəldin" kampaniyasına qoşulan nömrələr, istifadə müddəti bitənədək kampaniya şərtlərindən yararlana biləcəklər.

***Qeyd:*** *Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*

"Bakı-Ət" ASC-nin səhmdarlarının nəzərinə!

"Bakı-Ət" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 30 sentyabr 2024-cü il saat 11:00-da Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2 ünvanında keçiriləcək.

***Gündəlikdəki məsələlər:***

1. *ASC-nin fəaliyyətinin 2023-cü maliyyə ilində yekununun müzakirəsi.*
2. *Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, balansın təsdiqi.*
3. *İdarə Heyətinin, Müşahidə Şurasının və Təftiş Komissiyasının yeni tərkibinin seçilməsi.*

**Əlaqə telefonu: 012 - 514-17-71**

***İdarə Heyəti***

"PETROHONGKONG-PİRSAAT OİL LİMİTED" MMC-nin müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsində e-2-2(113)-811/2024 saylı iş üzrə məhkəmə baxışı 21.08.2024-cü il tarixinə, saat 14:45-ə təyin edilmişdir. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsi.**
**Əlaqə telefonu: (012) 525-20-74**

"Bank Respublika" ASC səhmdarlarının nəzərinə!

"Bank Respublika"ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 17 sentyabr 2024-cü il tarixdə saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.

***Gündəlikdəki məsələlər:***

1. *İclasın sədrinin və katibinin təyin edilməsi.*
2. *İclasın gündəliyinin təsdiq edilməsi.*
3. *2024-cü ilin birinci yarımili üzrə Kənar audit yoxlamasının nəticələri haqqında.*
4. *"Bank Respublika" ASC-də Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında.*

# Makron fitə basıldı

## Tarixin ən zəif Olimpiadasının bağlanış mərasimi bitməmiş tamaşaçılar stadionu tərk ediblər

Dünyadakı əsas idman festivalı - XXXIII Yay Olimpiya Oyunları başa çatıb. Olimpiadanın "Stade de Frans" arenasında 71 min 500 tamaşaçının iştirakı ilə keçirilən bağlanış mərasimi də birmənalı qarşılanmayıb.





Bir tərəfdən, açılış mərasimindəki biabırçı şou ilə bağlı haqlı tənqidlərdən müəyyən nəticə çıxaran fransızlar bağlanışda top sənətçilərin cəlb olunması ilə bu dəfə normal tamaşa nümayişinə cəhd göstəriblər. Tənqidçilərin fikrincə, bağlanışın uğurlu alınmamasının səbəbi dəvət edilən tanınmış sənətçilərin mərasimə gəlməmələri olub. Əvvəlcədən söz verilsə də, Snupp Doqq, Red Hot Chili Peppers və Billi Ayliş kimi incəsənət ustaları canlı çıxış etməyiblər. Belə ki, onların nömrələri Los-Ancelesdə əvvəlcədən çəkilib və ekranda göstərilib. Bu, tamaşaçıları və idmançıları o qədər məyus edib ki, onlar mərasim bitməmiş stadionu tərk etməyə başlayıblar.

Olimpiya Oyunlarının bağlanış mərasimində iştirak edən tamaşaçılar Fransa prezidenti Emmanuel Makronu fitə basıblar. Bu barədə yerli media xəbər verib. Məlumata görə, Makron yekun nitqini söyləmək üçün podiuma qalxıb, lakin "Stade de Frans" stadionuna gələnlər Fransa prezidentinin mərasimdə peyda olmasından narazı qalıblar və yüksək coşqu ilə onu fitə basıblar. Bundan sonra tamaşaçılar güclü uğultu yaradıblar və belə davranışa görə Makron çıxışına fasilə vermək məcburiyyətində qalıb. Prezident bundan çox məyus hala düşüb. Bunu onun baxışlarından da hiss etmək mümkün olub.

Bağlanış mərasiminə gəlincə, demək olar ki, tamaşaçıların diqqətini cəlb edən yalnız bir şou olub. Bu da məşhur amerikalı Hollivud aktyoru 62 yaşlı Tom Kruzun stadiona daxil olması səhnəsidir. Belə ki, şounun ortalarında Tom Kruz stadionun damından tullanaraq trosla aşağı düşüb. O, Olimpiya bayrağını oyunların iştirakçılarından qəbul edərək motosikletlə vətəninə aparıb. Sonra mərasimi izləyənlərə Tom Kruzun virtual olaraq ABŞ-yə getməsi və bayrağı 2028-ci ildə Los-Ancelesdə keçiriləcək XXXIV Olimpiadanın təşkilatçılarına ötürülməsi ilə bağlı videoçarx nümayiş etdirilib.

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax yarışı rəsmi olaraq qapalı elan etdikdən sonra fransalı üzgüçü Leon Marşan, keniyalı marafonçu Eliud Kipçoge, kubalı güləşçi Mixain Lopes, çinli tennisçi Sun İnşa, fransalı cüdoçu Teddi Riner, avstraliyalı üzgüçü Emma Makkeon və qaçqınlar komandasının boksçusu Sindi Nqamba Olimpiya məşəlini söndürüblər.

Bağlanış mərasimi əfsanəvi amerikalı müğənni Frenk Sinatranın "My Way" mahnısı ilə tamamlanıb. Mərasimin finalında Olimpiya Oyunlarının bayrağı Fransa tərəfindən Los-Anceles meri Karen Bassa təhvil verilib.

Xatırladaq ki, Parisdə başa çatmış 2024-cü il Olimpiadası açılış mərasimi, yarışlar və mükafatlandırmalar zamanı dəfələrlə baş vermiş rezonanslı ictimai qalmaqallarla yadda qalıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ötən həftə Xankəndi, Xocavənd, Füzuli və Xocalıda xeyli silah-sursat aşkarlanıb

Vətən müharibəsi və antiterror əməliyyatlarından sonra Böyük qayıdış prosesinin sürətləndirilməsi və təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları qarşıya qoyulan tapşırıqları peşəkarlıqla icra edirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müharibə qalıqları, təhlükə mənbələrinin aşkarlanıb zərərsizləşdirilməsi prosesi fasiləsiz davam etdirilir. Bölgənin silah-sursatlardan, partlayıcı maddələrdən təmizlənməsi işi xidmətə cəlb edilən daxili işlər orqanları əməkdaşlarının əsas fəaliyyət istiqamətlərindən biridir.

Həyata keçirilən tədbirlərlə ötən həftə polis əməkdaşları tərəfindən Xankəndi şəhəri ərazisindən 38 avtomat silahı, 2 pulemyot, 9 tapança, 14 tüfəng, 69 qumbara, 1 qumbaraatan, 61 alışdırıcı, 1 mərmi, 10 mina, 11 kiloqram barıt, 9 gecəgörmə cihazı, 31 süngü-bıçaq, 26 rabitə vasitəsi, 197 patron darağı, 19 min 986 ədəd müxtəlifçaplı patron və digər sursatlar, Xocavənd rayonu ərazisindən 4 avtomat silahı, Füzuli rayonu ərazisindən 2 avtomat silahı, 1 qumbaraatan, 3 pulemyot, 4 mərmi partlayıcısı, 1050 ədəd müxtəlifçaplı patron, Xocalı rayonu ərazisindən 6 avtomat silahı, 1 tapança, 2 tüfəng, 7 qumbara, 5 alışdırıcı, 160 ədəd müxtəlifçaplı patron aşkar edilərək götürülüb.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3855
Sifariş 1809

Qiyməti 60 qəpik